www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu   Gündəlik qəzet 1 avqust 2014-cü il  Cümə   № 192  (5901)   Qiymətı   40 qəpik

**Xəbər**

## Nəşriyyat "Azadlıq"ın çapını dayandırdı

yazısı səh.4-də

**Gündəm**

### Baş Prokurorluq və MTN Leyla Yunusun həbsi ilə bağlı açıqlama yaydı



Beynəlxalq təşkilatlar işə iqtidardan hüquq müdafiəçisinin azad olunmasını tələb edir

yazısı səh.5-də

*ABŞ səfirliyi:*

### "Viza probleminin nə vaxtadək davam edəcəyini bilmirik"

yazısı səh.6-da

### Rusiya Azərbaycandakı bank sədrini niyə dəyişdi?

yazısı səh.13-də

### Dini Komitənin yeni sədri danışdı

yazısı səh.7-də

### "Hafka" villasını satışa çıxardı

yazısı səh.13-də

### Müharibə Vahid Ələkbərovun biznesini vurdu

yazısı səh.13-də

### Qarabağda iki erməni hərbçisi öldürüldü

yazısı səh.9-da

### Hüquq müdafiəçisinin məhkəməsi başladı

yazısı səh.15-də

### Kərəm Həsənovun əmlak siyahısında nələr var?

yazısı səh.10-da

### Fərahim İlqaroğlu ilə bağlı istintaq yubadılır

yazısı səh.7-də

### Dağlıq Qarabağla bağlı ilginc iddia

yazısı səh.11-də

### Morninqstar Azərbaycandan getdi

yazısı səh.8-də

### Asma körpüdə intihara cəhd

yazısı səh.4-də

## Qərb regionda Rusiyaya qarşı ikinci cəbhə açır

# AZƏRBAYCANDA QAFQAZSAYAĞI MAYDANI KİM HAZIRLAYIR? - İDDİA

Morninqstarın xəbərdarlığının əks-sədası Rusiyadan gəldi; pravda.ru videokanalı bölgəmizdə rəngli inqilab layihələrinə həsr etdiyi verilişdə ilginc detallara diqqət yönəltdi; Amerikanın geosiyasi planlarında Türkiyəyə də rol ayrıldığı deyilir...

yazısı səh.9-da




# Azərbaycanda radikal qruplara qarşı əməliyyatlar başlayır

Avqustun 1-dən ölkə boyu bölücü, təkfirçi qruplara, eləcə də xarici ölkələrə döyüşçü göndərən şəbəkələr əleyhinə geniş miqyaslı əməliyyatlara start veriləcək; 2015-ci ilədək gizli cərəyanların hamısının ifşa olunaraq sıradan çıxarılacağı gözlənilir

yazısı səh.8-də



*Fərrux Məmmədov:*

### "Moskva Azərbaycanın güc strukturlarında öz adamlarını yerləşdirə bilib"

yazısı səh.9-da



Anar Məmmədov

### Məmmədovlardan "Yeni Müsavat"a böyük təzyiq

yazısı səh.4-də



*Hüseyn Abdullayev:*

### "... İnterpol axtarışlarımı dayandırmır"

yazısı səh.6-da



# Dərbənddə azərbaycanlı klanın qiyamı

**Dağıstan rəhbəri Ramazan Abdulatipovun işdən çıxarmağa hazırlaşdığı Dərbənd rayonu administrasiyasının rəhbəri Qurban Qurbanov tərəfdarlarını toplayaraq etiraza qalxıb.**

Virtualaz.org saytı xəbər verir ki, Dərbənd rayonu administrasiyasının binasına toplaşan yüzlərlə adam Qurban Qurbanovun işdən azad edilməsinə qarşı çıxıblar.

Aksiyada Dərbənd rayonu sakinləri, rayon məclisinin deputatları, ictimai xadimlər və Q.Qurbanovun özü iştirak edib.

Məlumatı "Kavkazskiy uzel" portalına aksiyanın iştirakçısı Maqomed Axmedov verib.

Onun sözlərinə görə, toplantıda cəmi 600-dən çox adam iştirak edirdi. Toplantıda Dərbənd rayon fəalları Ramazan Abdulatipovun Q.Qubanovu vaxtından əvvəl istefaya göndərmək barədə ötən həftə verdiyi bəyanata qarşı çıxıblar.

R.Abdulatipov ötən həftə Dağıstan televiziyasının efirində canlı yayımda suallara cavab verərkən demişdi ki, tezliklə Dərbənd rayonu rəhbərini dəyişdirəcək. Çünki bu rayonda ciddi nöqsanlar var, həmçinin rəhbərlik uzun müddətdir dəyişmir.

Dərbənd rayonu administrasiyasındakı anonim mənbə isə deyib ki, Dağıstan rəhbərinin Q.Qurbanovu sərbəst şəkildə işdən çıxarmaq səlahiyyəti yoxdur.

**"Qurbanov ümumxalq səsverməsi ilə seçilib, onun səlahiyyət müddəti 2015-ci ildə bitir. Qoy onun 47 min seçicisi öz rəhbəri ilə bağlı hansı qərar verməyi özü müəyyən etsin"** - deyə mənbə bildirib.

Q.Qurbanov isə toplantıda çıxışı zamanı deyib ki, könüllü şəkildə istefaya getməyə hazırlaşmır və müddətinin sonuna qədər işləyəcək. Lakin Dağıstan hökumətindəki mənbə onun yerinə namizədin də artıq müəyyən edildiyini bildirir.

Mənbənin bildirdiyinə görə, Dağıstanın keçmiş ədliyyə naziri Azadi Rəhimov Q.Qurbanovun yerinə təyin edilə bilər. Dağıstan hökumətinin mətbuat xidməti məlumatı şərh etməyib.

Milliyyətcə azərbaycanlı olan Q.Qurbanov Dərbənd rayonuna 1998-ci ildən rəhbərlik edir. O vaxta qədər isə rayona 1962-ci ildən etibarən atası Səid Qurbanov rəhbərlik edirdi. Q.Qurbanovun qardaşı Maqomed Dağıstanın Azərbaycandakı rəsmi nümayəndəsi olub və Abdulatipovun qərarı ilə bu vəzifədən azad edilib. Qurbanovlar klanı uzun müddətdir Dağıstanın cənubuna nəzarət edir.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

**Email:** metro-servis@mail.ru

**Web:** www.metro-servis.az

Siz bizi həmçinin Facebook sosial şəbəkəsində tapa bilərsiniz:

**https://www.facebook.com/metroservismmc**

«QAYA MƏTBUAT YAYIMI» MMC!

İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

Ən başlıcası gündəlik «Yeni Musavat » qəzetinə–0,40 man və bundan əlavə 2000 adda yerli və xarici nəşrlər.

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil, Telefonla zəng etməyiniz kifayətdir:

Bakı şəh. 564-63-45 598-35-22

Respublikanın digər büyük şəhərlərinə də abunə qəbul olunur: mobil: (050)-235-23-41


# "Financial Times": "Sanksiyalar Azərbaycanın Neft Fonduna da zərbə vuracaq"

**ABŞ və Avropa İttifaqının Rusiyaya qarşı sanksiyaları Azərbaycan Dövlət Neft Fonduna (DNF) da ziyan vuracaq. Virtualaz.org saytı xəbər verir ki, bu haqda Britaniyanın nüfuzlu "The Financial Times" qəzetinin məqaləsində deyilir. Qəzet yazır ki, son sanksiyalar xüsusən Rusiyanın korporativ bank sektoru üçün "dağıdıcı" olacaq.**

Xəbər verildiyi kimi, ABŞ Maliyyə Nazirliyi artıq Rusiyanın üç bankına, o cümlədən Azərbaycanda filialı olan "Vneştorqbank"a (VTB) qarşı sanksiyaları rəsmən elan edib.

Avropa İttifaqının Rusiyaya qarşı iqtisadiyyatın bir sıra bütöv sektorlarına, o cümlədən maliyyə sektoruna sanksiyaları nəzərdə tutan paketi də sabahdan qüvvəyə minir. Bu paketə əsasən Rusiya banklarının və şirkətlərinin Qərbin kapital bazarına çıxışı məhdudlaşdırılır.

"The Financial Times"in yazdığına görə, sanksiyalar Rusiya iqtisadiyyatının iri kreditorlarına çevrilən, dövlətin nəzarətində olan "Sberbank" və VTB-ni sarsıda bilər. Son illər bu banklar xarici və yerli rəqiblərini bazardan sıxışdıraraq investisiya bankçılığından tutmuş istehlak kreditlərinin verilməsinə qədər bütün sahələrdə faktiki olaraq inhisarçıya çevriliblər.

VTB rəhbərliyinə yaxın digər mənbə deyib ki, istənilən sanksiyalar bankın iri səhmdarlarına - Norveçə, Qətərə və Azərbaycana da ziyan vuracaq.

"Prosperity Capital" fondundan investisiyalar üzrə müşavir Aleksandr Branis isə hesab edir ki, sanksiyalardan "Sberbank" daha az ziyan çəkəcək, çünki güclü depozit bazasına malikdir.

**"VTB üçün isə bu daha mürəkkəb olacaq. Onun maliyyəsinin əsas hissəsi topdan kredit verən mənbələrdən daxil olur. Və onun biznesinin çox hissəsi Rusiyanın xaricindədir"** - deyə o bildirib.

Rusiya hökumətinin Qərbin sanksiyalarının əvəzini Çinlə iqtisadi-biznes münasibətlərini inkişaf etdirməklə çıxmağın mümkünlüyü haqda səs-küylü bəyanatlarına baxmayaraq Moskvada çoxları hesab edir ki, Çin bankları Rusiya şirkətlərinə Qərb bankları kimi uzunmüddətli və ucuz kreditlər vermək imkanında deyil. Ona görə də sanksiyalar bank sektorundan başlayaraq iqtisadiyyatın ən müxtəlif sahələrinə öz mənfi təsirini göstərəcək.

# Bu il ordumuz 50 hərbçi itirib

**"Doktrina" Jurnalistlərin Hərbi Araşdırmalar Mərkəzinin kütləvi informasiya vasitələri üzərində həyata keçirdikləri monitorinqin nəticələrinə əsasən adlı siyahı üzrə 2014-cü ilin geridə qalan dövründə Azərbaycan təhlükəsizlik və müdafiə sektorunun itkiləri 50 nəfər təşkil edib. Bu barədə məlumat verən "Doktrina" JHAM direktoru Cəsur Sümərinli qeyd etdi ki, ötən müddətdə 98 nəfər yaralanıb və ya xəsarət alıb. C.Sümərinli qeyd etdi ki, müvafiq dövrdə dünyalarını dəyişənlərin 10-u döyüş (erməni gülləsi), 3-ü mina partlayışı, 37-si isə qeyri-döyüş itkiləridir.**

10 - nəfər avtoqəzadan, 1 - nəfər naməlum səbəbdən, 6 nəfər qeyri-nizamnamə (qanunazidd) hərəkətlərindən, 2 nəfər bədbəxt hadisədən (suda boğulma, elektrik cərəyanı), 7 nəfər xəstəlikdən dünyasını dəyişib. 11 nəfər intihar edib (asma, güllələmə, intihar). Dünyasını dəyişənlərin 42-si Müdafiə Nazirliyinin, 3-ü Ədliyyə Nazirliyinin, 2-si Daxili Qoşunların, 3-ü Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularıdır.

# Azərbaycan ordusu şəhid verib

**Ermənilərin atəşkəsi pozması nəticəsində Azərbaycan ordusu itki verib.**

APA-nın məlumatına görə, hadisə iyulun 31-də Ağdamın Çıraqlı kəndi istiqamətində qeydə alınıb.

Ermənistan silahlı birləşmələrinin atəşkəsi pozması nəticəsində Azərbaycan ordusunun hərbçisi Əhmədov Qaryağdı Eldar oğlu həlak olub.



# İŞİD lideri agent çıxdı

## "İraq və Şam İslam Dövlətinin lideri İsrailin agentidir"

**ANS PRESS-in məlumatına görə, belə bir iddia ilə İran mətbuatı çıxış edib. Mətbuatda yazılanlara görə, İŞİD lideri Əbubəkir əl-Bağdadi ölüb və onun yerinə İsrail casusu yerləşdirilib. İddiaya görə, əl-Bağdadi 8 il bundan əvvəl, 2006-cı ildə öldürülüb. ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin keçmiş əməkdaşı Edvard Snouden tərəfindən mediaya sızdırılan sənədlər bunu təsdiq edir.**

Əl-Bağdadinin yerinə gətirildiyi iddia edilən şəxsin saqqalsız və saqqallı fotoları yayılıb.

# Rusiyaya qarşı yeni sanksiyalar qüvvəyə mindi

**Avropa Birliyi Rusiyaya qarşı iqtisadi sanksiyaların üçüncü paketini hazırlayıb. APA-nın UNİAN-a istinadən verdiyi məlumata görə, bunu Brüsseldə keçirdiyi brifinqdə Avropa Birliyinin xarici işlər və təhlükəsizlik üzrə komissarı Ketrin Eştonun sözçüsü Maya Kosyanoviç deyib.**

M. Kosyanoviç qeyd edib ki, sanksiyalar paketi artıq təsdiq olunub və avqustun 1-dən qüvvəyə minəcək.

# BMT rəsmisi canlı yayımda Qəzza üçün ağladı

**İsrail ordusunun Qəzzadakı məktəb binasına hücumu və nəticədə çoxsaylı insan tələfatı canlı efirdə olan BMT rəsmisini kövrəldib. "Əl-Cəzirə"nin efirində olan Kriss Ginnes canlı yayımda hönkür-hönkür ağlayaraq, İsrailin addımını pisləyib.**

Səhiyyə Nazirliyindən verilən məlumata görə, iyulun 30-da Qəzzada qız uşaqları üçün ibtidai məktəbin bombardman edilməsi nəticəsində ən azı 17 nəfər həlak olub, daha 90 nəfər yaralanıb.

❑ azadliq.info

# Arseniy Yatsenyukun istefası qəbul edilmədi

**Ukrayna Ali Radası baş nazir Arseniy Yatsenyukun istefasını rədd edib. APA-nın "RİA Novosti"yə istinadən verdiyi məlumata görə, onun istefasının lehinə cəmi 16 deputat səs verib.**

"Batkivşina" fraksiyasının lideri Sergey Sobolev bildirib ki, Yatsenyukun istefasının qəbul edilməməsi hökumətin parlamentin etimadını qazandığını göstərir.

Qeyd edək ki, avropayönümlü parlament koalisiyası dağılandan sonra Arseniy Yatsenyuk iyulun 24-də istefa verdiyini elan edib.

# Neft oğurlayan 5 azərbaycanlı tutuldu

**Rusiyanın Yamal-Nen Muxtar Vilayətində iri həcmdə neft oğurluğu ilə məşğul olan azərbaycanlılardan ibarət mütəşəkkil qruplaşmanın üzləri həbs edilib.**

Virtualaz.org saytı xəbər verir ki, axtarış zamanı polis onlardan 50 ton oğurluq xam neft müsadirə edib.

Polisin bildirdiyinə görə, 5 Azərbaycan vətəndaşı neçə vaxtdır ki, xam neft oğurluğu ilə məşğul olub və oğurladıqları nefti Xantı-Mansiysk Muxtar Vilayətində, habelə Tümen, Novosibirsk və Tomsk vilayətlərində satıb.

Oğurluq neftin maneəsiz daşınması üçün mazut nəqlinə dair saxta sənədlər hazırlanıb. Qruplaşmanın indiyədək nə qədər neft oğurladığı məlum deyil, ancaq onların vurduğu ziyanın həcmi on milyonlarla rubla hesablanır.

Axtarış zamanı qrup üzvlərindən 2013-cü ilin sentyabrından bu yana oğurlanan neftə və əldə olunan gəlirlərə dair hesab kitabçası, iri məbləğdə pul, qaiməmələr tapılıb. İstintaq gedir.

# EL-in qurultayı payıza qaldı

**EL Hərəkatının qurultayını sentyabr-oktyabr aylarında keçirməyi nəzərdə tuturuq".**

Bunu APA-ya açıqlamasında EL Hərəkatının Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsinin üzvü Eldəniz Quliyev deyib.

Onun sözlərinə görə, hazırda qurultaya texniki hazırlıq işləri gedir.

E. Quliyev hərəkatın partiyaya çevrilməsi və ya adının dəyişdirilməsi məsələsini də istisna etməyib: "Bunlar qurultayın səlahiyyətində olan məsələlərdir. Təklif olarsa, müzakirə olunub, qərar veriləcək. Bu baxımdan istənilən təklifə ehtimal var".

# Ermənistan: əhalinin 40 faizi ölkəni tərk etmək istəyir

## BMT-dən şok hesabat

**Ermənistan mediası yazır ki, BMT Humanitar Fondunun hesablamalarına görə, əsrin sonunda Ermənistan əhalisi 750 min nəfərdən artıq olmayacaq. Bu barədə erməni sosioloq Aqoron Ağabəyyan yerli mediaya açıqlamasında məlumat verib. "Mühacirətin coğrafiyası" sorğusunun nəticələrinə diqqət çəkən mütəxəssis deyib: "Ermənistanda potensial mühacir olmaq istəyənlər daha çox Kotay rayonunda cəmləşiblər. Əvvəllər orada çoxsaylı zavodlar, fabriklər fəaliyyət göstərib. İndi isə qapıları bağlıdır. Yerli sakinlər kənd təsərrüfatı ilə də məşğul ola bilmirlər. Yerli şərait buna imkan vermir. Ona görə də yeganə çıxış yolu kimi mühacirəti görürlər".**

Cənab Ağabəyyan Ermənistanın bir çox bölgələrində oxşar vəziyyətin olduğunu vurğulayıb: "Hesablamalar onu deməyə əsas verir ki, Ermənistan əhalisinin 40 faizi potensial mühacirdir".

❑ **Elbəyi HƏSƏNLİ**

YENİ MÜSAVAT
N 192 (5901) 1 avqust 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**“Neft Azərbaycanın bəlasıdır”. Azərbaycan müstəqilliyini bərpa edəndən sonra bu fikri müxalif siyasətçilərin, ekspertlərin, vətəndaş cəmiyyəti institutları təmsilçilərinin, eləcə də sadə vətəndaşın dilindən dəfələrlə eşitmişik. Neft Azərbaycanda demokratiyanın qarşısını kəsən ən önəmli amillərdən sayılır. Üstəlik, vətəndaşların çoxu bu sahədə baş verənlərin yalnız hakim komandadakı dar çevrəyə bəlli olduğundan əmindir.**

# “İran Azərbaycana həsəd aparır”

## İlham Şaban: “Dünyadakı demək olar, bütün münaqişələrin kökündə neft-qaz kəmərlərinə nəzarət dayanır”

*“Caspian Barrel” Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabanla söhbətimizdə orta statistik vətəndaşın düşüncəsində daha çox ümumi ifadələrlə qalan enerji sektorunun açıq tərəflərini, həm Azərbaycanda, həm də regionda baş verən tendensiyaları rəqəmlərin dili ilə açıqlamağa çalışdıq.*

***- İlham bəy, bir neçə gün qabaq facebook sosial şəbəkəsində “Borularımızda təzyiq stabildir, TV-lərdə hərdən zilə qalxsalar da” statusu yazmışdız. Azərbaycanın neft-qaz borularında vəziyyət necədir? Bu haqda xəbərlərin statistikasında çoxmu təhriflər olur?***

- Bir zamanlar olaylara neft amilini əsas götürərək yanaşardım. Ancaq indi neft amili qalsa da, borular önə keçib. Sağdan, soldan, qərbdən, şərqdən, dənizdən - Azərbaycan özünü ixrac boruları ilə əhatələyib və gələn “beşillikdə” də borular tikməkdə davam edəcəyik. Ona görə də neft-qaz sahəsindəki proseslərin ixrac boruları prizmasından dəyərləndirilməsini vacib sayıram. Boru məsələsi strateji məsələdir, xüsusi həssaslıq tələb edir. Məsələn, götürək İranı. İran ehtiyatlarına görə dünyanın ikinci qaz ölkəsidir, ancaq boru ixracına görə Azərbaycana həsəd aparır, çünki nə zamanında boru xətləri tikib, nə də sonradan buna imkan verilib. Ya da Ukrayna. Bir zamanlar ümumi buraxıcılıq gücü 140 milyard kubmetrədək olan 11 magistral boru kəmərini, o cümlədən “Dostluq” kəmərlər şəbəkəsini birləşdirən bir sistemə malik ölkə bu gün yanlış siyasətin girovuna çevrilib. Bu gün dünyadakı demək olar, bütün münaqişələrin kökündə neft-qaz kəmərlərinə nəzarət dayanır.

***- Azərbaycandakı boruların o biri ucunda işıq görünürmü?***

- Magistral kəmərlər heç vaxt düz olmur ki, bu başından baxıb o biri ucundakı işığı seyr edəsən. 90-cı illərdə “Çeşmə” qəzetində boruların əyri-üyrülüyünün “səmərəliliyi” ilə bağlı da bir lətifə vardı. Ona görə hətta marşrut düz olsa belə, müəyyən yerlərdə kəməri əyirlər də, qısa marşrutdan uzadırlar da, ona təhlükəsizlik məqsədilə ərsinlər *(klapanlar)* əlavə edirlər, nasos stansiyaları tikirlər. Bu baxımdan borunun sonundakı “işıq” deyilən amil kəmər işləyirsə, yəni onunla neft və qaz ötürülərsə və bunun müqabilində dövlətin xəzinəsinə davamlı və kifayət qədər vəsait daxil olması kimi başa düşülməlidir. Yəni bu, istismarda olan kəmərlərə aid edilə bilər. Azərbaycanın neft və qaz yataqlarının işlənməsindən xəzinə adlandırdığımız yığım toplusuna dövlət büdcəsi və Neft Fondu aiddir. Şirkətlər neft və qazın dünya bazarına çıxarılmasından əldə etdikləri qazanca görə gəlir vergisini - Hasilatın Pay Bölgüsü Sazişləri çərçivəsində bu 25%-dir - dövlət büdcəsinə köçürürlər, dövlətin mənfəət nefti və qazının bölüşdürülməsindən əldə etdiyi gəlir isə Neft Fonduna köçürülür. “Azəri-Çıraq-Günəşli” yataqları üzrə dövlətə çatan mənfəət payı 2008-ci ilin II rübündən 80%-dir. Real olaraq bu rəqəm 75%-dir. 5% isə Bakı-Tiflis-Ceyhan neft kəməri ilə daşıma xərclərinin ödənilməsinə sərf olunur.

**“SOCAR-ın yaxın 5 ildə CQBK, TANAP və TAP layihələrinə yatırımları 8,88 milyard dollar olacaq”**

Rəqəmlər deyir ki, Azərbaycanın boru kəmərlərinin sonunda “işıq” görünür. Bakı-Tiflis-Ceyhan (BTC) kimi Xəzəri Aralıq dənizi ilə birləşdirən 1768 km-lik, buraxıcılıq gücü 50 milyon ton olan boru kəmərinin tikintisi Azərbaycana 5,4 milyard dollara başa gəlib. Ancaq uzunluğu 1511 km olan, buraxıcılıq gücünün 28 milyondan 67 milyon tonadək artırılmasını nəzərdə tutan Qazaxıstanın Tengiz-Novorossiysk neft kəmərinin modernləşdirilməsi layihəsi 5,5 milyard dollar qiymətləndirilir. Bu boru xətti 2002-ci ildə istifadəyə verilməsinə baxmayaraq indiyə qədər ona xərclənən vəsaiti geri qaytara bilməyib. Neft Fondundan BTC-nin tikintisinə yönəldilən 297 milyon dollar vəsait qarşılığında təkcə 2008-2011-ci illərdə 597,1 milyon dollar divident qazanılmışdı. 2012-ci ildən başlayaraq isə BTC layihəsi çərçivəsində hər il təqribən 150 milyon dollar civarında vəsait SOCAR-ın hesabına köçürülür. Yəni bu ilin yekununa görə Azərbaycanın BTC-dən götürəcəyi dividentlərin həcmi 1 milyard dolları ötəcək.

***- Azərbaycan qaz kəmərləri tikməyə qərar verib. Bu layihələrin də neft kəməri kimi rentabelli olacağı ehtimalı nə qədərdir?***

- Azərbaycan ötən ildən qlobal infrastruktur layihəsinin - “Cənub qaz dəhlizinin” - Cənub Qafqaz Boru kəmərinin, Trans Anadolu kəmərinin (TANAP) və Trans Atlantik boru kəmərinin (TAP) tikintisinin gerçəkləşməsinə imza atıb. Bu layihələrin ümumi kapital xərci ilkin mərhələdə 20 milyard dollardan çox olacaq. Hər üç kəmərin tikintisini 2018-ci ilin ikinci yarısında başa çatdırmaq gərəkdir. Bundan sonra Azərbaycan qazını Avropa bazarına müəyyən edilmiş vaxtda çıxarmaq mümkün ola bilər. Avropanın tələbatını nəzərə alsaq, kəmərlərin rentabelli olacağına şübhə yoxdur.

***- Hər 3 kəmərin çəkilməsi üçün Azərbaycan, konkret SOCAR nə qədər vəsait xərcləməlidir?***

- Cənub Qafqaz Boru kəmərinin (CQBK) genişləndirilməsi layihəsi 5,296 milyard dollar dəyərindədir. SOCAR-ın burada payı təqribən 884 milyon dollar olacaq. Son açıqlamaya görə, TANAP layihəsi üzrə kapital xərcləri 11,7 milyard dollar proqnozlaşdırılır. SOCAR xərclərin 58%-ni ödəməlidir. Ola bilər, SOCAR gələcəkdə payını 51%-dək azaltsın. Ancaq bu, işlərin gedişindən asılı olacaq. Ümumi götürsək, TANAP layihəsində kapital xərclərinin təqribən 7 milyarda yaxınını Azərbaycan ödəməli olacaq. TAP layihəsinə gəlincə, kapital xərclərinin 5 milyarda yaxın olması güman edilir. SOCAR-ın payı 20%-dir, yəni xərclərin təqribən 1 milyard dolları onun üzərinə düşəcək. Ümumilikdə SOCAR-ın yaxın 5 ildə CQBK, TANAP və TAP layihələrinə yatırımları 8,88 milyard dollar olacaq. Məbləğin 30%-ni - 2,66 milyar dolları şirkət öz vəsaitləri hesabına reallaşdıracaq. Bundan başqa, “Şahdəniz-2" layihəsinin ilkin mərhələdə kapital xərcləri 28 milyard dollar, müqavilənin sonuna kimi, yəni 2041-ci ilə qədər isə 32,9 milyard dollar olması planlaşdırılıb. Burada isə SOCAR-ın payı təqribən 5,5 milyard dollar olacaq.



**“2014-cü ilin yekununa görə Azərbaycanın BTC-dən götürəcəyi dividentlərin həcmi 1 milyard dolları ötəcək”**

***- Bu qədər xərcə getməyin iqtisadi əsası vardımı? Azərbaycanın məqsədi öz qazını Avropaya satmaq idi, daha Avropaya qədər uzanan infrastruktura sahib olmaq onun nəyinə gərəkdi? Bir də ki, Avropa axı Nabucco ilə Azərbaycan qazını Gürcüstan-Türkiyə sərhədində almaq istəyirdi. Azərbaycanın bu addımı siyasi qərar idimi?***

- Bir qədər tarixi ekskursa ehtiyac var. Xəzərdə “Şahdəniz” qaz-kondensat yatağının açılması 1999-cu ilin iyununda elan edilib. 2001-ci ilin martında Azərbaycanla Türkiyə arasında Şahdəniz qazının alqı-satqısına dair 16 illik ilk müqavilə imzaladı. O zaman belə hesab edilirdi ki, ilk qaz Türkiyə bazarına 2005-ci ilin sonuna kimi çıxarılacaq. Ancaq bu tarix 3 iyul 2007-ci ildə baş verdi. İlk hasilat isə “Şahdəniz” yatağında 2006-cı ilin noyabrında oldu. Yataq çox mürəkkəb bir geoloji quruluşa malikdir və hasilatın stabilləşməsi üçün mütəxəssislər təqribən üç aya qədər vaxt sərf etdilər. Yeni yatağın açılmasından ilk qazın satışına 8 ildən artıq vaxt lazım oldu. BP-nin ilkin planlarına görə, “Şahdəniz-1"də ilk qaz hasil ediləndən sonra konsorsium başlamalıydı. "Şahdəniz-2" layihəsinin dizayn işlərinə və təqribən 2012-ci ilin sonlarına kimi bu layihə çərçivəsində ilk qaz bazarlara çıxarılmalıydı. Görürsünüzmü, indiki müqavilələrə əsasən isə bu hadisə 2019-cu ildə baş verəcək. Artıq daha böyük həcmdə qazın hasil edilməsi və onun qlobal bazarlara çıxarılması zamanı da artır. Hesab edin ki, 12 il konsorsiuma gərək olacaq ki, “Şahdəniz-2"-ni layihələndirməyə başlayandan ta qazı bazarlara çıxarmaq anına qədər. Bütün bunlar indi elan edilən tarixdə həyata keçirilərsə, onda BP və tərəfdaşlarına başda SOCAR olmaqla, borunun dənizdən Sanqaçal terminalına doğru çıxacağı yerdə bir xatirə daşı da qoymaq olar. Qaz sənayesi üzrə ad çıxarmış, az qala dünyanı lərzəyə salan Rusiya ehtiyatları 3,7 trilyon kub metr olan ”Ştokman" dəniz yatağını 10 ildən artıq xarici şirkətlərlə belə danışıqlar aparıb, memorandum imzalasa belə işləmə mərhələsinə qədəm qoya bilmədi. Yeni qaz böyük kapital tələb edən, işlənməsi çətin, nəqli mürəkkəb, satışında böyük rəqabət olan, üstəlik, istifadədə çox təhlükəli yanacaq növüdür. Ona görə də inkişaf etmiş ölkələr məişətdə təbii qazdan istifadəni qadağan edib.

***- Azərbaycana belə bahalı projelər gərəkdirmi?***

- Avropa Birliyinin 28 ölkəsindən 6-sı qaz idxalına görə Rusiyadan tam asılıdır, 11 ölkə isə 30%-dən 45%-dək enerji baxımından Rusiyaya möhtacdır. 2006 və 2009-cu illərdə Rusiya və Ukrayna arasında qışda “qaz müharibələri” yaşandı və iki həftəyə yaxın bir müddətdə bir çox ölkələr mavi yanacaqsız qaldılar. Ancaq Avropa Birliyi enerji siyasətində diversifikasiya məsələlərini 2005-ci ildən prioritet elan etsə də, faktiki olaraq “əlini ağdan qaraya vurmurdu”. Nəticədə 2009-cu ildən başlayaraq Rusiya 2 il ərzində “Şimal axını” layihəsini gercəkləşdirərək heç bir tranzit ölkə olmadan Baltik dənizi dibindən birbaşa Almaniyaya illik gücü əvvəlcə 27,5 milyard kub metrlik qaz kəməri çəkdi, ardınca da onun gücünü 55 milyard kubmetrə çatdırdı. Ukraynadan keçən magistral qaz kəmərləri çox köhnəliblər. Qərb isə onların modernləşdirilməsinə vəsait verməkdə maraqlı deyildi. Məbləğin korrupsiyanın çiçəklənməsinə xidmət edəcəyindən ehtiyatlanırdı. Rusiya isə həmin işləri Ukraynanın əmlakına sahib çıxmaq şərti ilə görmək istəyirdi. Avropa ilə Rusiya arasında münaqişənin dərin kökləri buradan başlayır. Sonra isə Qərb məsələləri elə məcraya yönəltdi ki, Rusiya tələsik “Cənub axını” layihəsinə start verdi. Ancaq Krım məsələsi, ardınca rəsmi Brüsselin “Qazprom” şirkətinə qarşı III Enerji Paketinin müddəaları ilə bağlı iddia qaldırması - müddəalara görə, eyni şirkət hasilatçı, daşıyıcı və satıcı ola bilməz - “Cənub axını” layihəsinin tam həcmdə işləməsini yubadır.

***- Qərb Rusiyaya iqtisadi basqılarla enerji təhlükəsizliyini təmin edə biləcəkmi?***

*(ardı var)*

❑ **Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 192 (5901) 1 avqust 2014



# Kağız müxalifətinin dəstəyi

Azər RƏŞİDOĞLU

**Türkiyə sol hərəkatının mübarizə rəmzinə çevrilən Dəniz Gəzmiş edamından bir neçə saat əvvəl atasına yazdığı məktubda bildirirdi: "Oğlun ölüm qarşısında aciz və çarəsiz qalmayıb. O, bu yola bilərək girib və sonunun belə olacağını bilirdi. Səninlə düşüncələrimiz ayrıdır, amma məni anlayacağına ümid edirəm"...**

Hüquq müdafiəçisi Leyla Yunusun həbsi Dəniz Gəzmişin son sözlərini yada saldı. Həbsin motivləri barədə geniş şərh verməyə də ehtiyac yoxdur. L.Yunusun həbsinin gerçək səbəbləri hər kəsə bəllidir.

30 apreldə "Rauf Mirqədirov işi" ilə bağlı istintaqa ifadə verərkən də hiss eləmişdim ki, həbslər davam edəcək və ilk növbədə hədəfdə L.Yunusdur.

Burada təəccüblü də bir məsələ yox idi.

Maraqlı və müəmmalı olan məsələnin digər müəmmalı tərəfidir.

11:45-də evinin qarşısından oğurlanandan və 20:30 - da barəsində 3 aylıq həbs-qətimkan tədbiri çıxarılan Leyla Yunusun taleyinin necə olacağını izləməyə demək olar ki, jurnalistlərdən başqa heç kəs gəlmədi. 11:45-20:30 arası kifayət qədər böyük müddət idi ki, məhkəmənin və yaxud prokurorluğun qarşısı insanlarla dolu olsun. Lakin "anındaca bəyanatı hazır olanlar" bunu özlərinə rəva bilmədilər.

Nə müxalifət liderləri, nə hüquq müdafiəçiləri, nə də ki onun siyahısında olan 130 siyasi məhbusun ailəsindən kimsə L.Yunusu müdafiə etməyə gəlmədilər. Hakimiyyətin cəza aparatı ilə başlı-başına buraxılan hüquq müdafiəçisi həbs edildi.

Bu, Azərbaycan siyasətinin, demokratiyasının üzüqarası idi. Baş verənləri Milli Şura üzvü Yeganə Hacıyeva sosial şəbəkədəki statusu ilə dolğun əks etdirdi: "Hörmətli siyasi üzlər, simalar, liderlər, boslar, partiyalar və s. Leyla Yunus həbs olunub!!! P.S. Dedim xəbər verim, bəlkə xəbəriniz yoxdur !".

Burada da təəccüblü bir nəsnə yoxdur. 20 il işini yalnız bəyanat verməklə bitmiş hesab edənlər hüquq müdafiəçini ən ağır günündə meydanda yalnız buraxdılar.

Bir qədər əvvəl eyni işlə bağlı həbs edilən jurnalist Rauf Mirqədirov da eyni aqibəti yaşamışdı. Hər iki sima müxalifəti son 20 ildə obrazlı desək, qanları ilə müdafiə etmişdilər. Adi bir kağız parçası olan bəyanat isə heç kəsə lazım deyil, o cümlədən nə L. Yunusa, nə də ki R.Mirqədirova.

Hər iki ictimai fəalı dövlətə xəyanətdə ittiham edirlər. Hər iki simanı ömürlük həbs cəzası və ermənilərə casusluq etmək damğası gözləyir.

Məsələ bu qədər dərindir yəni. Odur ki, müxalifət və cəmiyyət daha fəal yanaşmalı idi problemə.

L.Yunus Qərb demokratiyasının Azərbaycandakı bəlkə də son adacığı idi. R.Mirqədirov isə Qərb dəyərlərini davamlı təbliğ edən azsaylı siyasi şərhçilərdən idi. Hər iki sima edam kötüyünə çıxardıldı və ötən əsrin 90-cı illərindən fərqli olaraq Qərb diplomatları da baş verənləri uzaqdan izləməyə və ən yaxşı halda bəyanat verməklə işlərini yekunlaşdırmağa üstünlük verdilər.

L.Yunusun həbsi ilk növbədə Qərbə bir mesaj idi. Sanki Qərb siyasi mərkəzləri də Azərbaycanın addım-addım Rusiyanın yatağına doğru irəliləməsinə seyrçi qalıblar.

Hamını bir sual düşündürür - müxalifət L.Yunusun belə asanlıqla həbsinə niyə göz yumdu? Yəni doğrudanmı heç kəs "erməni işinə" əlini bulaşdırmaq istəmədi? Mümkün variantdır. Lakin problemə bir qədər geniş baxdıqda başqa suallar da meydana çıxır - bir qədər əvvəl Azərbaycandan Gürcüstana keçirilən 3 ton heroinin gürcülər tərəfindən saxlanılmasına niyə müxalifət lal-dinməz qaldı və işini bəyanat verməklə yekunlaşdırdı? Azərbaycanda narkotrafik piramidasının başında kimin durduğu hər kəsə bəllidir. Yenə də sual və şübhələr meydana çıxır...

Həbs olunan L.Yunus sıradan biri deyil. Şəkər xəstəsi olan 60 yaşlı hüquq müdafiəçisinin neytrallaşdırılması Azərbaycanı hüquq müdafiəçisiz qoydu. Yüzlərlə qanunsuz həbs edilən insanın son ümid yeri də həbs edildi.

L.Yunusun səhhətində kifayət qədər problemlər var. İkinci, daha səs-küylü "Faina Kunqurova qalmaqalı" baş verərsə, bundan təmizlənmək olduqca çətin olacaq.

İndi bir nəsnəni proqnozlaşdırmaq olar - həbslər davam edə bilər. "Erməni işi" və digər işlərlə bağlı yeni simalar istintaqa cəlb edilə bilər. Araşdırmaçı jurnalistlər, müxalifət liderləri də eyni taleyi yaşaya bilərlər. L.Yunusun həbsindən sonra təzyiqə məruz qalacaq sima iri ranqlı da ola bilər. Artıq "onun ranqı böyükdür, ona toxuna bilməzlər" deyimi işləmir.

Artıq hər şey mümkündür. Müxalifət liderlərindən kimsə həbs edilərsə nə baş verəcək ki? Anındaca bəyanat yazılacaq?

20 ilin müxalifətindən bəlkə də çox nəsnə gözləməyə dəyməz. Nəzərlər gənclikdə idi. 30 iyul tarixi göstərdi ki, Azərbaycanda yeni gənclik də gözlənilən ümidləri doğrulda bilmir.

30 iyul Azərbaycan demokratiyasının üzqarası günü kimi qeyd edilə bilər. O gün bir həqiqət də sübuta yetirildi. Azərbaycan insanı bu iqtidarı sevmir. Bu, anlaşılandır. Hakimiyyət cəmiyyətə zülm edir. Onu kim sevə bilər ki? Lakin müxalifətin vurduğu zərbənin miqyası da kiçik deyil - onlar insanların inamını əllərindən alıblar, xalqın ümidlərini puç ediblər. 30 iyul tarixində bu həqiqət bütün çılpaqlığı ilə sübut olundu...

# Məmmədovlardan "Yeni Müsavat"a böyük təzyiq

## Əməkdaşımızı döydürənlər geri çəkilməyimiz üçün təsir imkanlarını işə salıblar

**Nəqliyyat naziri Ziya Məmmədovun qardaşı oğlu Aynar Məmmədovun "Yeni Müsavat"ın əməkdaşı Fərahim İlqaroğlunu döydürməsindən sonra Məmmədovlar klanının qəzetimizə qarşı açıq hiss olunan basqısı start götürüb. Bu, bir neçə istiqamətdə hiss olunur. Bunlardan ən əsası Z. Məmmədovun oğlu Anar Məmmədovla "Azadlıq" və "Yeni Müsavat" qəzetlərinin illərdir davam edən məhkəmə çəkişməsi nəticəsində ortaya çıxmış 4 min manatlıq cərimə hökmü və təkzib qərarının yenidən gündəmə gəlməsidir.**

Xatırladaq ki, tərəflər bu məsələ ilə bağlı öz aralarında mövzunun gündəmdən çıxması ilə bağlı razılığa gəlmişdilər. "Azadlıq" qəzeti üzr istəyərək bu cərimədən qurtulmuş, "Yeni Müsavat" qəzeti isə A. Məmmədovun vəkili Ruslan Məmmədovun vasitəçiliyi ilə nazir oğlu ilə centlmen sazişi bağlamışdı.

Əməkdaşımız F.İlqaroğlu döyülənə qədər, 6 ay müddətində bu centlmen sazişi öz qüvvəsində qalmışdı. Lakin əməkdaşımızın döyülməsi ilə qəzetimizdə Məmmədovlara dair yazılar yer aldı. Görünür, bu, Anar Məmmədova təsir edib. O da centlmen sazişini pozub. Hazırda "Yeni Müsavat"a Nizami Rayon Məhkəmə icraçıları tərəfindən ciddi təzyiqlər var. **Qəzetin vəkili Vaqif Hüseyn** bildirir ki, icraçılarla hər gün yazışırlar və onlar israrla maliyyə məbləğinin ödənilməsini, eyni zamanda təkzibin verilərək baş redaktorun üzr istəməsini tələb edirlər. Vəkil onu da bildirib ki, birinci punkt, yəni maliyyə cərimısinin tələb olunması qanunsuzdur. Çünki 4000 manat məbləğində olan bu cərimə müştərək qaydada, məhkəmə tərəfindən "Azadlıq" və "Yeni Müsavat" qəzetlərinə təyin edilib. Əgər tərəflərdən birinə bu borc bağışlanıbsa, digəri onu ödəyə bilməz. Məhkəmə icraçılarının bunu tələb etməsi tamamilə qanunsuzdur. Ölkə məhkəmələri tarixində görünməmiş bir intuziazm, təşəbbüskarlıq müşahidə edilir ki, vəkilimiz bunu təsadüfi saymır.

**Qəzetimizin baş redaktoru Rauf Arifoğlu isə hesab edir ki, bu məsələdə Məmmədovların məhkəmə icraçılarına rüşvət verməsi şübhəsi tamamilə mümkündür. Onun fikrincə, əks halda, onlar bu cür canfəşanlıq və fədakarlıq etməzdilər:** "Çox mühüm məhkəmə qərarları, vətəndaşların hüquqlarının bərpa olunması ilə bağlı məhkəmə hökmləri illərlə icra olunmadan arxivlərdə qalır. Məhkəmə icraçıları bununla bağlı heç nə etmir. Amma indi 4 min manat və təkzib tələbindən yapışıblar. Biz bilirik ki, Anar Məmmədovun, ümumiyyətlə, Məmmədovlar klanının 4 min manata ehtiyacı yoxdur. Onlar bunu qəsdən edirlər. Məqsədləri "Yeni Müsavat" qəzetini qəsdən pis vəziyyətə salmaqdır. Ona görə də bu qanunsuzluğu məhkəmə icraçılarının əlləri ilə həyata keçirirlər. Biz hüquq-mühafizə və məhkəmə sisteminin rəhbərliyini xüsusən bu nüansa diqqət yetirməyə dəvət edirik".



Anar Məmmədov

**A.Məmmədovun Amerika təsisatları ilə işlədiyini yazmağımıza gəlincə, R.Arifoğlu xatırlatdı ki, bu məqama dəfələrlə toxunulub. Baş yazarın sözlərinə görə, onun guya Azərbaycanın Amerikadakı lobbi fəaliyyətini sürdürməsi və onu maliyyələşdirməsi ilə bağlı xəbərlər mediada da yer alıb:** "Belə bir adamın ölkənin bir nömrəli media quruluşuna bu cür təzyiq göstərməsi əslində onun özünə böyük zərərdir. Onunla bağlı biz artıq Amerikanın müvafiq qurumlarına, Senata, Konqresə, ABŞ Dövlət Departamentinə və Amerikanın Azərbaycandakı səfirliyinə sənədlər hazırlayırıq. Amerikanın önəmli fiqurları ilə şəkil çəkdirib, ziyafətlərdə iştirak edən bir şəxsin Azərbaycanda media azadlığını məhdudlaşdırmaq istiqamətində addımlar atmasını da faktlarla sübut edəcək vəziyyətdəyik. Bütün bunları adını sadaladığım qurumlara təqdim edəcəyik. Təbii, Anar Məmmədov bir nazir oğludur. Təəssüf ki, bu faktın bəzi qanunların qarşısına keçmək baxımdan böyük təsiri olur. Anar Məmmədovun əmisi oğlu Aynar Məmmədov bizim müxbirimiz Fərahim İlqaroğlunu döydürüb və bu, "Yeni Müsavat" qəzeti ilə Məmmədovlar klanı arasındakı münasibətləri son dərəcə gərginləşdirməyə gətirib çıxarıb. Biz bu işə Anar Məmmədovu qatmaq istəmirdik, amma özü qarışdı".

**"Yeni Müsavat"ın baş redaktoru hesab edir ki, əslində bir nöqtədə bu, həm də işin xeyrinə olub. Çünki daha öncə centlmen sazişi qəzetin bu mövzuda obyektiv olmasına, Məmmədovlar klanı, onların əməlləri ilə bağlı bütün nüansları açıb ortaya qoymağa mane olurdu:** "Bir nüans da ondan ibarətdir ki, Məmmədovlar həm də cinayət əməllərini gizlədirlər. Bir jurnalistə qarşı sifarişli sui-qəsd hadisəsinin tərəflərindən biri olmasına baxmayaraq, istintaqa təsir edirlər. Eyni zamanda da döydürdükləri jurnalistin baş redaktorunu və qəzeti hədəfə götürərək onu kiçiltmək, cərimələtdirmək, mütləq və mütləq, qanunun tələbində göstərilmədiyi halda onu üzr istəməyə vadar etmək istəyirlər. Bildirirəm ki, bunların hamısı boşunadır, "Yeni Müsavat" bu cinayətlərlə dolu klandan, onun ailə üzvlərindən üzr istəməyəcək. Eyni zamanda maliyyə tələbi də yerinə yetirilməyəcək. Çünki bu tələbin özü qanunsuzdur. Anar Məmmədov "Yeni Müsavat" qəzetinə və mənə pislik etmək istəyirsə, yeni fraqment başlasa daha məqsədəmüvafiqdir. Bu fraqment ona heç bir fayda gətirməyəcək".

❑ Sevinc TELMANQIZI




# Asma körpüdə intihara cəhd

**İyulun 31-də paytaxtın Nizami rayonu ərazisində, metronun "Koroğlu" stansiyasının yaxınlığındakı körpüyə çıxan şəxs özünü yüksəklikdən atmaq istəyib. Köpüyə qalxanda özü ilə benzin də götürüb. O, körpünün üstündə özünə od vuracağını deyib. APA-nın məlumatına görə, intihar məqsədi ilə körpüyə çıxan şəxs əslən Qərbi Azərbaycandan olan 62 yaşlı Yusif Abbas oğlu Əmirov olub. O, günahsız yerə 14 il həbsdə yatdığını və azadlığa çıxandan sonra ona qarşı başlanmış cinayət işinin yenilənməsinə etiraz olaraq bu addımı atdığını deyib.**

Hüquq-mühafizə orqanı əməkdaşları intihar etmək istəyən şəxslə danışıqlar apararaq, onu fikrindən daşındırmağa çalışıblar. Y.Əmirov isə deputat Qənirə Paşayevanın hadisə yerinə gəlməsini tələb edib. Qənirə Paşayeva axar.az-a bildirib ki, intihar etmək istəyən şəxs və onun millət vəkilini görmək istəyi ilə bağlı məlumatsızdır: "İntihar etmək istəyən şəxsin məni görmək arzusunu indi sizdən eşidirəm. Hazırda tədbirdəyəm. Bu dəqiqə tədbirdən çıxıb hadisə yerinə gedirəm".

Əraziyə cəlb olunan FHN Xüsusi Riskli Xilasetmə İdarəsinin əməkdaşları və polisin onunla apardıqları danışıqdan sonra intihar etmək istəyən Yusif Əmirov körpünün üzərindən endirilib.




# Nəşriyyat "Azadlıq"ın çapını dayandırdı

**"Azərbaycan" nəşriyyatı "Azadlıq" qəzetinin çapından qeyri-müəyyən vaxta qədər imtina edib. Səbəb qəzetin nəşriyyata olan borclarıdır. Qəzetin nəşriyyata 20 min manatdan artıq borcu yığılıb. Qəzet borcu düşünülmüş şəkildə salındığı maliyyə böhranına görə ödəyə bilmir. Qəzetin ən böyük satıcısı "Qasid" firması ona olan 70 min manatdan artıq borcu ödəmir. KİV-ə Dövlət Dəstəyi Fondu da qəzetin layihələrini maliyyələşdirməkdən imtina edib. Qəzet satış firmalarına yaradılan əngəllərə görə "Azadlıq"ın tirajı və deməli, gəlirləri də azalıb.**

Nəşriyyatın sanksiyası artıq bu gündən qüvvəyə minib və qəzet sabah satışda olmayacaq.

YENİ MÜSAVAT
N 192 (5901) 1 avqust 2014

**Xəbər verildiyi kimi, iyulun 30-da Sülh və Demokratiya İnstitutunun (SDİ) rəhbəri Leyla Yunus həbs edilib. SDİ rəhbəri barəsində Nəsimi Rayon Məhkəməsinin qərarı ilə 3 aylıq həbs qətimkan tədbiri seçildi. O, 1 saylı Bakı İstintaq Təcridxanasında saxlanılır. Hüquq müdafiəçisinin həyat yoldaşı Arif Yunusdan isə ölkədən çıxmamaqla bağlı iltizam alınıb.**

# Baş Prokurorluq və MTN Leyla Yunusun həbsi ilə bağlı açıqlama yaydı

## Beynəlxalq təşkilatlar isə iqtidardan hüquq müdafiəçisinin azad olunmasını tələb edir

Leyla Yunus CM-in 274 (dövlətə xəyanət), 178 (dələduzluq), 192-ci (qanunsuz sahibkarlıq) və 213-cü (vergidən yayınma) maddələri ilə ittiham olunur. Arif Yunus isə 274 və 178 maddələri ilə təqsirləndirilir. Çoxları Yunusovlar ailəsinə qarşı bu cür sərt ittihamların irəli sürülməsinə səbəb kimi, son zamanlar Leyla Yunusun ölkə prezidentinin ünvanına tənqidi fikirlər söyləməsi, 2015-ci ildə Bakıda keçiriləcək I Avropa Yay oyunlarını boykot etməsi amilinin olduğunu iddia edirlər.

Leyla Yunus əvvəlcə 11:45-də yaşadığı binanın önündən həbs olunaraq, Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinə gətirilib. Axşam saatlarında isə barəsində həbs-qətimkan tədbiri seçilmək üçün məhkəməyə aparılıb. Hüquq müdafiəçisinin dindirilmə və məhkəməsi təxminən 10 saata yaxın çəkib. Bu müddət ərzində həbsindən daha çox, onun meydanda tək qalması diqqəti çəkdi. Belə ki, məhkəmə önündə nə müxalifət partiyalarının liderləri, nə hüquq müdafiəçiləri gözə dəydi.

***

**Müsavat başqanının müavini Gülağa Aslanlı hesab edir ki, Leyla Yunusa dəstək verilməməsi iddiası reallığı əks etdirmir:** "Leyla Yunus istintaqda olarkən, Müsavat rəhbərliyi bu məsələni qərargahda müzakirə etdi. Onun məhkəməyə aparılacağı barədə dəqiq məlumat yox idi. Bu baxımdan siyasilərin məhkəmə önünə gəlməməsi ilə bağlı səsləndirilən fikirlər düzgün deyil. Partiyamız Leyla Yunusun həbsindən əvvəl öz etirazını bildirdi. Bu barədə bəyanatda verib. Əgər məhkəmənin zamanı məlum olsaydı, partiya rəhbərliyinin və üzvlərin ora getməsi mümkün idi. İlk olaraq, bəyanat verməyimiz onu göstərir ki, Müsavat Partiyası təkcə Leyla Yunusu deyil, bütün hüquqları pozulmuş vətəndaşları müdafiə edir".

**Ümid Partiyasının sədri, deputat İqbal Ağazadə insanların Leyla Yunusun həbs ediləcəyinə inanmadığı səbəbindən məhkəmə önünə gəlmədiklərini bildirdi:** "Heç kəsin ağlına gəlmirdi ki, Leyla Yunus barədə həbs qərarı verilə. Düşünürdük ki, dindiriləndən sonra buraxılacaq. Təəssüf ki, ümidlərimiz və gözləntilərimiz doğrulmadı. Məhkəmə onun haqqında həbs-qətimkan tədbiri seçdi. Bundan sonra hüquqlarının müdafiəsi istiqamətində lazımı addımları atacağıq".

**Deputat bu məsələni Milli Məclisdə qaldıracağını da qeyd etdi:** "Arzu edirəm ki, Leyla xanım oktyabra qədər azad olunsun. Bildiyimiz kimi, parlament oktyabrda fəaliyyətə başlayacaq. O dövrə qədər proseslər davam etsə, bu məsələni parlamentdə qaldıracağam. İndiyə qədər haqqı tapdalanan hər kəsin hüquqlarını Milli Məclisdə müdafiə etmişik. Bu həbsi birmənalı olaraq, qətiyyətlə pisləyirəm. Vətənə xəyanət maddəsi olduqca ağırdır. Bu ağır ittihamlara baxmayaraq, cəmiyyət Leyla Yunusu kifayət qədər tanıyır və müdafiə edir. Onun barəsində verilən məlumat bu qədər bəsit və istintaq sirri kimi dəyərləndirilməsi düzgün deyil. Sübutlar varsa, açıq mövqe qoyulmalı idi. Təəssüf ki, bu barədə dəqiq məlumat cəmiyyətdə yoxdur. Fikrimcə, Leyla Yunusun həbsi qərəzli, sifarişlə olan bir həbsdir".

**Milli Şuranın Sədr Aparatının üzvü Yeganə Hacıyeva Leyla Yunusa dəstək verilməməsindən təəssüfləndiyini bildirdi:** "Məndə hətta təəssürat yarandı ki, sanki cəmiyyət ya bu həbsdən xəbərsizdir, ya da bu






həbsin nə demək olduğu haqqında fikirləşmir. Leyla Yunus sovetlər dövründən ölkədə və xaricdə tanınmış hüquq müdafiəçisidir və onun həbsi hüquq müdafiəçiliyi institutunun çökdürülməsinin son akkordları idi. Çoxluğun məhkəmə önündə olmamasının izahını verməyə, doğrusu, çətinlik çəkirəm və bunu görmək üzücü idi. Çünki bu ölkədə siyasi baxışından asılı olmayaraq günahsız həbs edilən hər bir şəxs onun dəstəyini hiss etmişdi. Siyasi məhbuslar, evləri sökülmüş vətəndaşlar, etnik icmaların nümayəndələri, jurnalistlər, inanclı kəsimin nümayəndələri və digərləri. Hesab edirəm ki, icmalar, onların ətrafı, evləri sökülmüş adamlar, siyasi partiyalar, inanclı kəsimin nümayəndələrinin məhkəmə önündə olması onların bir formada mənəvi borcu idi. Təəssüf ki, bu belə olmadı. Ümumiyyətlə isə Azərbaycanda siyasi quruluşlar fəaliyyətini bəyanat vermək və ondan uzağa getməmək tendensiyası ilə davam etdirməsi uzun illərdir, mövcuddur. Bu, kökündən yanlış siyasətdir. Bəyanatın ardınca mütləq müəyyən bir aktivlik olmalıdır".

**"Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev məhkəmə önünə gəlməklə dəstək olmağın mənasız olduğunu söylədi:** "Məhkəmə önünə gəlməklə həmrəylik göstərmək olardı. İndiyə qədər dəfələrlə belə hallar olub. Amma heç bir təsiri olmayıb. Leyla Yunusun məhkəməsinin zamanında belə tərəddüdlər çox idi. Qəflətən baş verən bir qərar idi. Hüquqi cəhətdən müdafiə etmək lazımdır. Məhkəmə prosesləri başlayan zaman inanıram ki, tanınmış insanların çoxu ona dəstək olacaq. Onunla bağlı ilk dəfə istintaq başlayanda da az sayda tanınmış şəxslər dəstək oldu. Təəssüf ki, cəmiyyətin böyük hissəsi hakimiyyətlə anlaşıb. Bu baxımdan dəstək olmaqdan çəkinir. Amma biz indiyə qədər necə dəstək olmuşuqsa, bundan sonra da o istiqamətdə fəaliyyətimizi davam etdirəcəyik".

**Mehman Əliyev bu həbs dalğasının böyüməsi ehtimalının olacağını düşünür:** "Hazırda böyük həbs dalğası var. Bu baxımdan hər şey ola bilər. Çünki biz hüquqi dövlət deyilik. Özbaşınalıq baş alıb gedir. Hakimiyyət nə istəyirsə, onu da edir. Aktiv adamların sıradan çıxarılması prosesi davam edir. Hesab edirəm ki, bu proses Leyla Yunusla bitəcək. Bunun davamı olacaq".

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu məhkəmə önünə getməmələrinin səbəbləri barədə bunları dedi:** "Dünən gecə səhərə qədər yatmamışam. Həqiqətən çox pis oldum. Çünki Leyla xanım xəstədir. Ağır əməliyyat keçirib. Ürəyim ağrıdı ki, Leylanı həbs ediblər. Sadəcə, vaxtilə onun Ramil Usubovla davası var idi. Biz Ramil müəllimin qəbuluna getdik. Xahiş etdikdən sonra, o işi bağladılar. Bundan sonra Leyla xanım çıxış etdi ki, onların müdafiəsində lüzum görmürəm, məni müdafiə etməsinlər. Bütün bunlara baxmayaraq, ona verilən 3 ay cəza bizi üzdü. İnanmıram ki, Leyla Yunus vətən xainidir. Hamımızı yoxlasaq, qüsur tapmaq olar. Qrant məsələlərində. İstintaq bitmədən bu cür qərar vermək düzgün deyil. Ev dustağı etmək mümkün idi. İstəmərəm ki, o, həbsxanada olsun. Onu sona qədər müdafiə edəcəm. O, müdafiəsindən imtina etsə belə, biz yenə öz borcumuzdan çıxıb, müdafiəmizi quracağıq. Çünki 20 ildir, bu şərəfli adı daşımışıq. Bütün metodlardan istifadə edəcəyik. Hökumətlə belə danışıqlara gedəcəyik. Əlimizdən gələni edəcəyik ki, Leyla Yunus həbsxanada qalmasın".

***

**Leyla Yunusun vəkili Cavad Cavadov "Yeni Müsavat"a açıqlamasında məhkəmə qərarı ilə bağlı apelyasiya şikayətləri hazırladıqlarını bildirib:** "Məhkəmə qərarında Leyla Yunusun Bakı İstintaq Təcridxanasına aparılması qeyd olunub. Bugünlərdə onunla görüşəcəyik. Hazırda məhkəmə qərarından apelyasiya şikayəti hazırlayırıq".

**Leyla və Arif Yunusların qızı Dinara Yunusova BMT-nin insan haqları üzrə xüsusi məruzəçisinə, demokratik ölkələrin prezidentlərinə, beynəlxalq hüquq müdafiə təşkilatlarına və valideynlərinin həmkarlarına məktubla müraciət edib. O, beynəlxalq təşkilatları valideynlərinə dəstək olmağa çağırıb:** "Mənim valideynlərim - Leyla və Arif Yunusun azadlıqlarına təhlükə yaranıb. Onlar ağır cinayətlərdə ittiham olunur, o cümlədən vətənə xəyanətdə. Bu ittihamlar sifarişli səciyyə daşıyır. Son 30 ildə valideynlərimin fəaliyyəti Azərbaycan Konstitusiyası çərçivəsində insan hüquqları və azadlıqlarına həsr olunub. Onlar siyasi məhbuslar, işgəncələr, Qarabağ münaqişəsi ilə bağlı fəal mövqe tutub və bu prosesdə Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin prinsiplərinə əsaslanıblar.

Mən hakimiyyətlərin azad və müstəqil hüquq müdafiəçilərinə dözümsüz yanaşdığı ölkələrdə demokratik dəyərlərə səs verən hər kəsə çağırış edirəm. İnanıram ki, yalnız demokratik qüvvələri dəstəkləməklə mənim ana və atama qarşı olan ittihamların ləğvinə təsir etmək olar".

***

İyulun 31-də Baş Prokurorluq və Milli Təhlükəsizlik Nazirliyi (MTN) Leyla Yunusun həbsi ilə bağlı məlumat yayıb. Məlumatda deyilir: "Azərbaycan Respublikasının(AR) vətəndaşı Mirqədirov Rauf Həbibula oğlunun 2008-ci ilin aprelindən etibarən Ermənistanın xüsusi xidmət orqanının əməkdaşlarına qəsdən kömək edərək casusluğu ilə dövlətə xəyanət etməsinə əsaslı şübhələr olduğundan onun barəsində Nəsimi Rayon Məhkəməsinin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

Müəyyən edilib ki, Leyla Yunus 2002-ci ildən etibarən təsisçisi və sədri olduğu, "Sülh və Demokratiya İnstitutu" adlı qurumla Şahnazaryan David Qurgenoviç, Baqdasaryan Laura Seyranovna və digərləri ilə birlikdə Ermənistanın "Region" Tədqiqatlar Mərkəzi və digər qeyri-hökumət təşkilatları arasında "xalq diplomatiyası" üzrə birgə layihələrin həyata keçirilməsi adı altında beynəlxalq donor təşkilatlardan aldığı qrant vəsaitləri, eləcə də Karen Ohacanyan tərəfindən Böyük Britaniyadakı bankdan 2002-ci ildə, Ermənistanda fəaliyyət göstərən "Jurnalist Araşdırmaları" qeyri-hökumət təşkilatı tərəfindən isə Yerevan şəhərindəki bankdan 2004-cü ilin iyulundan 2005-ci ilin mayınadək olan müddətdə rəhbərlik etdiyi qurumun şöbə müdiri olan, əri Yunusov Arif Seyfulla oğlunun Azərbaycanda fəaliyyət göstərən kommersiya banklarındakı hesablarına köçürülmüş külli miqdarda pul vəsaitləri müqabilində, maddi maraq zəminində xarici kəşfiyyata şəxslərin casus kimi ələ alınmaları üçün şəxsi keyfiyyətlərini araşdırıb maddi vəziyyətlərini yaxşılaşdırmaq niyyətlərinə əmin olaraq Mirqədirov Rauf Həbibula oğlunun dəfələrlə Gürcüstan Respublikasının ərazisindən Ermənistan Respublikasına səfərlərini Arif Yunusov ilə birlikdə təşkil edib. Həmin səfərlərin bir qismində Arif Yunusov da Rauf Mirqədirov ilə birlikdə iştirak edərək Ermənistan Respublikasının sabiq milli təhlükəsizlik naziri David Şaxnazaryan və xüsusi xidmət orqanlarının nəzarəti altında fəaliyyət göstərən digər qurumların nümayəndələri ilə görüşlər keçiriblər.

Göstərilən xüsusatlar üzrə dindirilmələri üçün Leyla və Arif Yunusovlar dəfələrlə istintaqa dəvət olunmalarına baxmayaraq, müxtəlif bəhanələrlə, heç bir üzrlü səbəb olmadan çağırışa gəlməkdən yayındıqlarından 2014-cü il 25 iyul tarixdə AR-nın Cinayət-Prosessual Məcəlləsinin 178-ci maddəsinə əsasən istintaq orqanına məcburi gətirilmələrinə dair qərarlar qəbul edilib.

Leyla Yunusovanın Cinayət Məcəlləsinin 274-cü, 178.3.2-ci, 192.2.2-ci, 213.2.2-ci, 320.1-ci və 320.2-ci, Arif Yunusovun isə həmin məcəllənin 274-cü və 178.3.2-ci maddələrində nəzərdə tutulan cinayət əməllərini törətmələrində əsaslı şübhələr olduğundan 2014-cü il 30 iyul tarixdə onlar qeyd olunan maddələrlə təqsirləndirilən şəxs qismində cəlb edilib, Leyla Yunusovanın ölkəni tərk etməyə cəhd göstərməsi, cinayət prosesini həyata keçirən orqanın çağırışlarına üzrlü səbəblər olmadan gəlməməsi, eləcə də iş üzrə şahid qismində dindirilmiş Əzizova Mətanət Mürşüd qızı və digərlərinin obyektiv ifadə vermələrinə qanunsuz təsir göstərməsinə dair məlumatlar nəzərə alınaraq, azadlıqda qalarsa cinayət prosesini həyata keçirən orqandan gizlənəcəyi, ibtidai istintaqın normal gedişinə mane olacağını ehtimal etməyə kifayət qədər əsaslar olduğundan barəsində Nəsimi Rayon Məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Arif Yunusovun isə səhhəti nəzərə alınmaqla barəsində polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib".

***

**Leyla Yunusun həbsi ilə bağlı bəyanat verən Milli Şura hüquq müdafiəçisinin həbsini qanunsuz hesab edərək, onun azadlığa buraxılmasını tələb edib:** "Zaman-zaman siyasi mülahizələrlə həbs edilmiş bütün siyasi məhbusların, vicdan məhbuslarının azadlığa çıxmasında onun misilsiz xidmətləri olmuşdur. Bu gün də siyasi və vicdan məhbuslarının ən dolğun və obyektiv siyahısını məhz Leyla Yunus hazırlamış və beynəlxalq təşkilatlara göndərmişdir. Lakin indi o özü vicdan məhbusudur və ölkənin bütün vicdanlı adamları onun yanında olmalıdır. Milli Şura bütün qanuni vasitələrlə Leyla Yunusu hakimiyyətin qanunsuz repressiyalarından qorumağa çalışacaq və bütün vasitələrlə onu müdafiə edəcək. Biz onun dərhal azad olunmasını tələb edirik".

Bundan əlavə, beynəlxalq hüquq-müjafiə təşkilatları da Leyla Yunusun qanunsuz olaraq həbs olunduğunu bildiriblər. "Human Rights Watch", Norveç "İnsan Hüquqları Evi Fondu" və "Amnesty İnternational" kimi nüfuzlu təşkilatlar bəyanatlarında Azərbaycan hökumətindən hüquq müdafiəçisinin azadlığa buraxılmasını tələb edib.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 192 (5901) 1 avqust 2014



# Böyümək istəyən şahzadənin nağılı...

Hüseynbala SƏLİMOV

**Dostları ondan müharibəyə getməməyi xahiş edirdilər. Deyirdilər ki, o, bir yazıçı kimi Fransaya daha çox şöhrət qazandıra bilər. Amma o, fikrində qəti oldu, müharibəyə getdi.**

Özü də bu istəyini çox, olduqca lakonik şəkildə ifadə etdi: "Mən bu müharibədə iştirak etməliyəm. Ona görə ki, mənim sevdiyim hər şey indi təhlükədədir..."

Düşünürük ki, bəli, bir insanın, bir vətəndaşın öz Vətənini müdafiə etmək istəyini əsaslandırmaq üçün bundan tutarlı bir dəlil tapmaq çətindir: "Mənim sevdiyim hər şey təhlükədədir"...

"Hər şey" ifadəsi özündə çox şeyi ehtiva edir. "Hər şey" doğmalar, yaxınlar, ölkən, şəhərin, kəndin, hətta sevimli küçən, sevdiyin kafe deməkdir. Əgər bu şeyləri başqa bir yerdə tapmayacağına əmin olsan, Vətən sənə əziz olacaq. Yox, əgər düşünsən ki, yox, onları başqa yerdə də tapmaq mümkündür, onda səndən bəlkə də yaxşı alim, mühəndis, yazıçı, daha nə bilim, kim çıxar, amma heç vaxt əsl vətəndaş və yaxud da şair demişkən, "vətən daşı" çıxmaz...

Amma yəqin indi hamınız düşünürsünüz ki, bu, görən yenə də hansı yazıçının ətəyindən belə bərk-bərk yapışıb? Tələsməyin, deyəcəm...

Bəri başdan deyim ki, mən onu uşaqlıqda, sonra da tələbəlik illərində oxumuşdum. Sizə deyim ki, təsadüf elə gətirdi ki, mən uşaqlıqda oxuduğum bir çox yazıçıları sonradan, yetkinlik yaşında bir daha oxudum...

Düşünürəm ki, bu, çox vacibdir. Bəli, riyaziyyatı, fizikanı erkən yaşlarında öyrənmək və hətta başa düşmək mümkündür. Amma ədəbiyyat üçün zaman lazımdır, elə əsərlər var ki, onları başa düşmək üçün vaxt lazım gəlir. Bəli, kimsə lovğalanıb deyə bilər ki, mən on yaşımda "Anna Karenina"nı oxumuşdum. Amma bu, olsa-olsa gülüş doğura bilər, çünki elə mətləblər var ki, onlar yalnız yaşla gəlir...

Məndən soruşsalar ki, oxuduğun yazıçılar arasında ən zərifi kimdir? Düşünmədən bu gün haqqında bəhs edəcəyim yazıçının adını çəkərdim - de Sent-Ekzüperi deyərdim...

O, çox maraqlı insan olub. Amma mənim diqqətimi tək buna görə özünə cəlb etmədi - bu həftə de Sent-Ekzüperinin ölümündən düz 70 il keçir və bu, müəyyən mənada təkan oldu ki, mən bu yazını yazım...

Bəli, o düz 70 il bundan əvvəl, 1944-cü ildə vəfat etdi, daha doğrusu, yoxa çıxdı. Onun ölümü ilə bağlı nələri demirdilər? Hansı əfsanələri quraşdırmırdılar? Hətta deyilirdi ki, onu yad planetlilər oğurlayıb! Yalnız bu yaxınlarda-1998-ci ildə onun ölümünün təfərrüatları bilindi...

Məni ona bağlayan onun "Balaca şahzadəsi" oldu. Bilirsiniz, qəribə əsərlər var. İlk baxışda müəyyən etmək olmur ki, bu, uşaqlar üçün, yoxsa böyüklər üçün yazılıb? Elə "Alisa güzgü arxasında" əsəri də belədir. İnanırsınız, bu son əsəri Kerrol elə yazıb ki, sonradan böyük fiziklər bu uşaq əsərinə kommentlər yazmalı olublar. Deyim ki, "Alisa"nı yazanın özü də alim- riyaziyyatçı olub.

Amma Ekzüperi təyyarəçi idi. Bəlkə də təyyarəçiliyi yazıçılıqdan və jurnalistlikdən çox sevirdi. Hər halda, müasirləri belə deyirlər. Ekzüperinin bütün əsərləri (onlar o qədər də çox deyil) əsl estetikadır...

Ümumiyyətlə, Qərb ədəbiyyatını estetikaya varmadan başa düşmək mümkün deyil. Orada bizim adət etdiyimiz cansıxıcı didaktika, etik ricətlər yoxdur. Bu ədəbiyyat necə yaşamağı öyrətmir, sadəcə, həyatı göstərir.

Amma bizdə necədir? Nəinki yazıçı, hətta iyirmi iki yaşlı jurnalist də belə hesab edir ki, o, insanlara necə yaşamağı öyrədə bilər. Publisistikanın gözdən düşməsinin səbəbi bəlkə də bu oldu - insanlar bir növ mətbuatdan iyrəndilər...

Qərb ədəbiyyatı isə estetikadır. O, gözəl olanı axtarır, onu tərənnüm edir. Bu mənada o, yorucu və didaktik deyil...

Ekzüperinin özü də mənə balaca şahzadəni andırırdı. Böyümək istəyən balaca şahzadəni. Bilirsiniz, bir qədər qəribə səslənəcək, amma mən Ekzüperidə bir Anderson ruhu, bəli, Anderson nağıllarının ruhunu hiss edirdim, onun rahiyəsini duyurdum...

O, 44 yaşında dünyanı tərk etdi. Amma "Balaca şahzadə" qaldı. Elə o özü də yaddaşlarda balaca şahzadə kimi həkk olundu...

Bəlkə də ölümü də simvolik idi. Dənizçilər dənizdə ölməyi üstün tutduğu kimi hava şahinləri də havada ölürlər...



# Hüseyn Abdullayev: "... İnterpol axtarışlarımı dayandırmır"

## Milli Məclisin keçmiş üzvü Azərbaycan hökumətinin beynəlxalq qurumlar vasitəsilə təhdidlərini davam etdirdiyini deyir

**"Almaniyadan siyasi sığınacaq alsam da Azərbaycan hökumətinin tələbi ilə İnterpol xətti ilə axtarışıma son verilməyib. Almaniyadakı vəkillərimin 8 aydan çoxdur İnterpolun Londonda yerləşən baş ofisi ilə yazışmalarına baxmayaraq axtarışlar dayandırılmır". Bu sözləri "Yeni Müsavat"a açıqlamasında Milli Məclisin keçmiş üzvü Hüseyn Abdullayev deyib.**

İyulun 29-da NATO Əməkdaşlıq İnstitutu Hüseyn Abdullayevin təqib edilməsi ilə bağlı Ağ Ev başda olmaqla, dünyanın bir neçə aparıcı qurumuna müraciət edib.

Bu haqda NATO Əməkdaşlıq İnstitutunun rəhbəri Fərrux Məmmədov facebook sosial şəbəkəsində status yayıb. F. Məmmədov Azərbaycandan köçüb Avropa ölkələrində siyasi sığınacaq alan bir sıra şəxslərin təhlükəsizlikləri ilə bağlı ciddi problem olduğuna diqqət çəkib: "NATO Əməkdaşlıq İnstitutunu narahat edən məsələlərdən biri bu gün Azərbaycandakı diktator rejimin Avropada siyasi sığınacaq alan ictimai fəal insanları təhdid və şantaj etmək məqsədi



INTERPOL

HOME | ABOUT INTERPOL | NEWS AND MEDIA | MEMBER COUNTRIES | INTERPOL EXPERTISE

Back to Search result

ABDULLAYEV, HUSEYN

WANTED BY THE JUDICIAL AUTHORITIES OF AZERBAIJAN FOR PROSECUTION / TO SERVE A SENTENCE

IDENTITY PARTICULARS

Present family name: ABDULLAYEV
Forename: HUSEYN
Sex: Male
Date of birth: 25/05/1967 (46 years old)
Language spoken: Azerbaijani, Russian
Nationality: Azerbaijan

PHYSICAL DESCRIPTION

Colour of eyes: Brown

CHARGES Published as provided by requesting entity

Charges: tax evasion in large scale

PHOTOS

ilə beynəlxalq institutların imkanlarından qanunsuz istifadə etməsidir. Qərara gəlmişik ki, bu məsələ ilə bağlı bilgilərimizi dünya birliyinə çatdıraq. Almaniyadan siyasi sığınacaq alan keçmiş Milli Məclis üzvü Hüseyn Abdullayevlə bağlı təqiblər əldə etdiyimiz faktlardan biridir. Prosesin bu şəkildə davam etməsi beynəlxalq institutların nüfuzuna ağır zərbə vurmaqdadır. Belə hallara yol verilməməsi üçün BMT-yə, Ağ Evə, ABŞ Dövlət Departamentinə, ABŞ Konqresinə, "Freedom House" təşkilatına, Avropa Parlamentinə, Avropa Komissiyasına müraciətlər etmişik".

Fərrux Məmmədov onu da bildirib ki, məsələ haqqında dünyanın aparıcı media quruluşlarından olan CNN, BBC, EuroNews, ABC, "Washington Post", "New York Times", "Spigel", "The Guardian"dan problemi işıqlandırmaları xahiş olunub.

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan Hüseyn Abdullayev Azərbaycan hakimiyyətinin ona qarşı irəli sürdüyü vergidən yayınma ittihamını absurd sayır:** "Azərbaycan hakimiyyətinin ittihamları əsassızdır. Gerçəkliyi, Azərbaycan hakimiyyətinin saxta ittihamlarla məni şantaj etməsini, böhtan atmasını üzə çıxarmaq üçün dünyanın aparıcı beynəlxalq institutlarına, eləcə də insan haqları qurumlarına çatdırılmasına ehtiyac var. Bu məsələni gündəmdə saxlayan bütün şəxslərə təşəkkür edirəm".

**Hüseyn Abdullayev onu da bildirib ki, iyulun 31-də vəkilləri vasitəsilə Almaniya Daxili İşlər Nazirliyinə, Bundestaqa müraciət edəcək:** "Mən Almaniyadan sığınacaq almışam. Təhlükəsizliyim Almaniya dövlətinin təminatı altındadır. Hesab edirəm ki, həyatım və təhlükəsizliyim üçün üzləşdiyim problem haqqında Almaniya dövlətinin xəbərdar edilməsinə ehtiyac var. Əminəm ki, dünyanın ən demokratik və sivil dövlətləri sırasında öncüllərdən olan Almaniya təhlükəsizliyim üçün vacib olan bütün addımları atacaq".

❑ Aygün MURADXANLI

# ABŞ səfirliyi: "Viza probleminin nə vaxtadək davam edəcəyini bilmirik"



**ABŞ-ın Azərbaycandakı səfirliyi vizaların verilməsində yaranmış problemlə əlaqədar məlumat yayıb. APA-nın xəbərinə görə, ABŞ-ın Azərbaycandakı səfirliyinin facebook səhifəsində yer alan məlumatda deyilir ki, ABŞ Dövlət Departamentində viza sistemi ilə bağlı problemlər yaranıb.**

Qeyd edilir ki, qlobal miqyaslı əməliyyatlara təsir edən problem ayrı-ayrı ölkələrə deyil, bütün dünya ölkələrinə təsir göstərir.

"Biz yaranmış narahatlığa görə təəssüf edirik. Pasportları vaxtında qaytarmaq üçün əlimizdən gələni edəcəyik. Təəssüf ki, problemin nə vaxtadək davam edəcəyini bilmirik. İstisna kimi xüsusi hallar nəzərdən keçiriləcək", - deyə məlumatda vurğulanıb.

# Nazir dərs ilini uzatmaq üçün Rasizadəyə məktub göndərdi

## Hazırda bu məsələ hökumətin müzakirəsindədir

**Təhsil Nazirliyi növbəti tədris ilində tədris ilinin müddətinin artırılması ilə bağlı təkliflər hazırlayaraq hökumətə təqdim edib.**

Təhsil Nazirliyinin məktəbəqədər və ümumi təhsil şöbəsinin müdiri Aydın Əhmədov APA-ya açıqlamasında deyib ki, hazırda məsələ hökumətin müzakirəsindədir.

A.Əhmədov qeyd edib ki, ötən tədris ili başa çatmamışdan əsaslandırılmış təkliflər hazırlanaraq Nazirlər Kabinetinə verilib. Onun sözlərinə görə, bu məsələyə yüksək səviyyədə baxılmalı və müəyyən qərar qəbul olunmalıdır: "Bununla bağlı qərarı biz qəbul etmirik. Təkliflərə əsasən, növbəti tədris müddəti, dərs ili ərzində şagirdlər üçün tətil müddəti ilə bağlı məsələlər Nazirlər Kabineti tərəfindən təsdiq olunduqdan sonra bu barədə yerlərə rəsmi şəkildə məlumat veriləcək. Burada bəzi məsələlər var ki, onlar müzakirə olunmalı, yenidən baxılmalıdır. İndiki zamanda təkliflər barədə əlavə məlumat vermək düzgün deyil. Hər bir halda məsələyə Nazirlər Kabinetində baxıldıqdan sonra hansı qərar qəbul olunacaqsa, bu, yerlərə çatdırılacaq və ictimaiyyətə açıqlanacaq".



Mikayıl Cabbarov

**Şöbə müdiri təhsil naziri Mikayıl Cabbarovun əmrinə əsasən, ümumtəhsil məktəblərinin 2014-2015-ci dərs ilinə aid tədris planlarının təsdiq edildiyini xatırladıb. Onun sözlərinə görə, növbəti dərs ili üçün tədris planını saxlamaq mümkün olmayıb:** "Dərs bölgüsü və digər prosesləri həyata keçirmək üçün bu plan təsdiqlənərək məktəblərə verilməli idi. Hökumət tərəfindən tədris müddətinin uzadılması ilə bağlı hansı qərar veriləcəksə, bu, müvafiq əmrə əlavə ediləcək".



## Fərahim İlqaroğlu ilə bağlı istintaq yubadılır

### **Elçin Sadıqov:** “Biz sorğu göndərib cavab istəyəcəyik”

**“Yeni Müsavat” qəzetinin reportyoru Fərahim İlqaroğluna qarşı sui-qəsd faktı ilə bağlı aparılan istintaq yubadılır. Jurnalist özü və vəkili bunun qəsdən edildiyini söyləyir, işi aparan müstəntiq isə sualları cavablandırmaqdan imtina edir. Daxili İşlər Nazirliyi (DİN) də məsələ ilə bağlı susur.**

İşi aparan müstəntiq Mikayıl Qüdrətov istintaqın gedişi ilə bağlı “Yeni Müsavat”a danışmaq istəməyib. O bildirib ki, istintaqla bağlı məlumat almaq üçün DİN-in mətbuat xidmətinə müraciət etmək lazımdır. DİN-dən isə bildirildi ki, məsələ ilə maraqlanacaqlar.

F.İlqaroğlunun vəkili **Elçin Sadıqov** isə bildirir ki, istintaqın gedişində heç bir yenilik yoxdur: “Bizə məlumat vermirlər. Bir aydan artıqdır ki, istintaqın gedişi ilə bağlı heç bir məlumat ala bilmirik. Gözləyirik ki, yaxın günlərdə istintaqı yekunlaşdıracaqlar. Biz məsələ ilə bağlı aidiyyəti qurumlara rəsmi müraciət də göndərəcəyik. Bizə istintaqın gedişi barədə məlumat verilməsi üçün DİN-ə sorğu göndərəcəyik, cavab istəyəcəyik. İstintaq uzadılır, bizə də bildirməyiblər niyə uzanır bu məsələ. Fərahim İlqaroğlu ilə bağlı bu müddətdə cəmi iki dəfə istintaq hərəkəti aparılıb. Hər hansı bir istintaq aparılmır. Ortada bir hərəkətsizlik var. Ümid edirəm ki, tezliklə hərəkətlilik təmin olunar və istintaqın gedişi ilə bağlı məlumat ala bilərik”.

**F.İlqaroğlu isə qeyd edib ki, istintaqın sifarişin nəticəsi olaraq uzadıldığını düşünür:** “İstintaqın gedişi barədə bizə heç nə demirlər. Müstəntiq də danışmaq istəmir, deyir ki, iş araşdırılır və məlumat veriləcək. İndiyə kimi təkcə işimlə bağlı Feyruz Termişinin tutulduğu barədə məlumata malikəm”.

Qeyd edək ki, F.İlqaroğlu aprelin 25-də kirayə yaşadığı binanın qarşısında hücuma məruz qalıb. Hadisədən üç ay keçsə də, istintaq heç bir nəticəyə gəlməyib. Artıq sui-qəsdin arxasında nəqliyyat naziri Ziya Məmmədovun qardaşı oğlu Aynar Məmmədovun durduğu heç kəsə sirr olmasa da, istintaq bu məsələlərin üstünə işıq salmağa tələsmir.

❑ **Röya RƏFİYEVA**

**Moskva məhkəməsi iyulun 28-də Yegor Şerbakovun qətlində ittiham olunan Azərbaycan vətəndaşı Orxan Zeynalovu 17 il azadlıqdan məhrum etdi. Orxan Zeynalov məhkəmədə ifadə verərkən Yegor Şerbakovu öldürmədiyini, hadisənin baş verdiyi gün Moskvada olmadığını bildirib.**



# Orxan Zeynalovun Azərbaycana ekstradisiyası mümkündürmü?

Maraqlıdır, Azərbaycan Ramil Səfərovun işində olduğu kimi Orxan Zeynalovun da arxasında dayanmalı və ona hüquqi kömək etməlidirmi?

**Tanınmış hüquqşünas Müzəffər Baxış Orxan Zeynalovun işində anlaşılmazlıqlar olduğunu dedi:** “Orxan Zeynalovla Ramil Səfərovu müqayisə etmək hüquqa, ədalətə və sividarlığa sığmır. Ramil Səfərov Azərbaycan bayrağı ermənilər tərəfindən təhqir edildiyinə görə öz vətəndaş münasibətini bildirmişdi və bunu edəni qətlə yetirmişdi. Amma Orxan Zeynalovla bağlı bunu demək çətindir. Düzdür, Orxan Zeynalovun da işində anlaşılmazlıqlar var. Bu anlaşılmazlıqlar ondan ibarətdir ki, o, ifadəsində deyib ki, hadisə baş verən zaman ümumiyyətlə Moskvada olmayıb. Hamı bilir ki, Rusiya hüquqa söykənən bir dövlət deyil. Amma Azərbaycan Konstitusiyasının 53-cü maddəsinin 3-cü hissəsinə görə, ölkə hüdudlarından kənarda yaşayan vətəndaşların hüquq və azadlıqlarının təmini üçün tədbirlər görülməlidir. Əgər Orxan Zeynalov Azərbaycan vətəndaşıdırsa, o zaman dövlət çalışmalıdır ki, onun nə dərəcədə əsassız şəkildə Rusiya Federasiyasında məhkum edilib-edilməməsi səbəbini araşdırsın və özünün diplomatik kanalları vasitəsilə onun ədalətli mühakimə edilməsi üçün müvafiq tədbirlər görsün. Ancaq mən Azərbaycan dövlətinin nə dərəcədə bu gün bundan istifadə edəcəyini bilmirəm. Gələcəkdə Orxan Zeynalov barəsində hökm qüvvəyə minəndən sonra cəzasını Azərbaycanda çəkməsi üçün Ədliyyə Nazirliyi vəsatətlə Rusiyaya müraciət edə bilər”.



**Müzəffər Baxış:** “Hamı bilir ki, Rusiya hüquqa söykənən bir dövlət deyil”



**Səadət Bənəniyarlı:** “Azərbaycan onun arxasında dayanmalıdır”

**Hüquq müdafiəçisi Səadət Bənəniyarlı isə Azərbaycanın Orxan Zeynalovun arxasında dayanmalı olduğunu bildirdi:** “Azərbaycan Orxan Zeynalovun pozulan hüquqlarını müdafiə etməli və onun arxasında dayanmalıdır. Çünki o, məhkəmədə verdiyi ifadələrdə bu əməli törətmədiyini bəyan edib. Daha sonra orada hansı maraqlarla hansı hadisələrin baş verməsi hər kəsə bəllidir. Bazarların bağlanması və sairə buna misaldır. Amma bir vətəndaş olaraq hüququ pozulursa, onun Azərbaycana gətirilməsi üçün addımlar atılmalıdır. Əgər bu gün bu hadisə ictimaiyyətin diqqətindədirsə, yəqin ki, lazımi addımlar atılacaq. Orxan Zeynalovun pozulmuş hüquqlarını bərpa etmək üçün lazımi addımlar atılmazsa, o zaman biz hüquq müdafiəçiləri olaraq çox istərdik ki, onun ailəsi, qohumları bizə müraciət etsinlər. Onlar bizimlə əlaqə saxlasınlar ki, biz gedişatdan xəbər tuta bilək və onu sonadək nəzarətdə saxlayaq, lazımi instansiyalara müraciət edə bilək. Orxan Zeynalova verilmiş cəzadan və onun saxlanma şəraitindən asılı olaraq müəyyən yazışmalardan sonra onun Azərbaycana gətirilməsi və cəzasını burada çəkməsi təmin edilə bilər”.

❑ **Günel MANAFLI**

# Dini Komitənin yeni sədri danışdı

### **Mübariz Qurbanlı:** “Belə hesabatlara etibar etmək olmaz”

**“Azərbaycanda dini problemlər mövcud deyil. ABŞ Dövlət Departamentinin hesabatları yoxlanılmamış faktlara söykənir. Onlar bu hesabatı Azərbaycan Respublikasında vətəndaşların dini hüquqları ilə bağlı vəziyyəti təhrif etmək məqsədi ilə hazırlayırlar”.**

Modern.az saytının məlumatına görə, bu sözlərini “vestikavkaza” xəbər portalına açıqlamasında Azərbaycanın Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib. O, ABŞ Dövlət Departamentinin Azərbaycanda dini vəziyyət haqqında hazırladığı hesabatı şərh edərkən bildirib ki, bu, qeyri-obyektivdir. Komitə sədrinin sözlərinə görə, ABŞ dövlət katibi Con Kerrinin Azərbaycanda dini təhsillə bağlı fikirləri həqiqətdən uzaqdır.

**Mübariz Qurbanlı Azərbaycanın tolerant ölkə olmasına da diqqət çəkib:** “Azərbaycanda bütün dinlərin nümayəndələrinin hüquqlarına riayət edilir. Azərbaycanın tolerantlığı dünya üçün nümunədir. Azərbaycan əhalisinin 96 faizi müsəlmandır, amma müxtəlif dinlərin nümayəndələri tez-tez görüşüb vacib məsələləri müzakirə edirlər”.

**Komitə rəhbəri Con Kerrinin hesabatının keçənilki olduğunu da vurğulayıb. Mübariz Qurbanlı vurğulayıb ki, belə hesabatlara etibar etmək olmaz:**

“Bu cür hesabatlar adətən qəzet, jurnal məlumatları əsasında hazırlanır. Bu məlumatlar faktlarla əsaslandırılmamış ola bilər. Tamamilə yanlışdır. Bu cür məruzələr diqqətlə yoxlanılmalıdır. Artıq belə hesabatlara insanlar öyrəşiblər. Azərbaycan, Çin, Rusiya xarici işlər nazirlikləri ABŞ-da dini icmaların hüquqları ilə bağlı tədqiqat apara bilərlər. Biz də ABŞ qəzet və jurnallarından dini problemlərlə bağlı asanlıqla məlumatlar əldə edə bilərik. Bütövlükdə Qərb ölkələrində onlarla dini cərəyana qadağalarla bağlı nümunələr göstərmək olar. Həmin icmalara öz fəaliyyətlərini azad həyata keçirmək üçün imkanlar verilmir”.

**Məscidlərlə bağlı ABŞ xarici siyasət idarəsinin yazdıqlarına gəlincə, Mübariz Qurbanlı bunun da mötəbər olmayan mənbələrdən əldə edildiyini bildirib:**

“Azərbaycanda sovet vaxtı cəmi 17 məscid var idi. İndi isə məscidlərin sayı 2 minə yaxındır. Son bir neçə ildə 200-dən çox məscid təmir edilib və ya tikilib. Əgər hakimiyyət dini icmalara mane olsaydı, onda bu qədər məscid olmazdı”,-deyə Mübariz Qurbanlı söyləyib.

Qeyd edək ki ABŞ-ın Dünyada Dini Azadlıqlar üzrə Komissiyasının illik hesabatında Azərbaycan tənqid edilib. Məruzədə Azərbaycanda dini motivlərlə 51 nəfərin həbs edildiyi bildirilib. Bununla yanaşı, Azərbaycanda dini icmaların fəaliyyətinə məhdudiyyətlər qoyulduğu, daha çox Azərbaycandakı şiələrin guya təzyiqə məruz qaldıqları vurğulanıb.

Xatırladaq ki, hesabat 2013-2014-cü ilin aprel ayı üçün olan dövrləri əhatə edir.



## Elşad Abdullayevin Fransadakı son fotoları yayıldı

### Sabiq rektor velosiped sürür, ördəkləri yemləyir və məscidə gedir...

**Bağlanmış ABU-nun sabiq sahibi və rektoru Elşad Abdullayevi sığındığı Fransadan israrla almaq istəyən Azərbaycan hakimiyyətinin cəhdləri hələ ki səmərə vermir. Zaman-zaman ABU-nun sabiq işçiləri barəsində açılan cinayət işləri açılsa da, habelə E.Abdullayevin beynəlxalq axtarışda olması ilə bağlı xəbərlər yayılsa da, sabiq rektoru cinayət məsuliyyətinə cəlb etmə istəyi sadəcə açıqlamalarda qalır.**



Heç son zamanlar E.Abdullayevin də hər hansı bəyanatı, videosu mediada yer almır. Sabiq rektor başda “mandat alveri” olmaqla qaldırdığı bütün məsələləri, eləcə də qardaşı Mahir Abdullayevin oğurlanması işini unutmuş kimi görünür. “Yeni Müsavat”ın bir neçə gündür davam edən israrlı zənglərinə cavab verməməsi də bu qənaəti möhkəmləndirir.

Amma bununla paralel, E.Abdullayev son bir ayda sosial şəbəkədəki statusunda xeyli özəl fotolar paylaşıb. Fransadakı gözəl istirahət guşələrində çəkdirdiyi fotolarda sabiq rektor göldəki ördəkləri yemləyir, idman edir, velosipedə minir, Eyfel qülləsinin yanında şəkil çəkdirir. O, sanki bu fotoları ilə həyatındakı hər şeyin qaydasında olması ilə bağlı ictimaiyyətə, eləcə də iqtidara mesaj verir. Hətta E.Abdullayevin idman edərkən çəkdirdiyi fotolardan birinin altında hazırda mühacirətdə olan Mahir Cavadovun belə bir şərhi yer alır: “Yəqin ki, professorun geri qayıtmasında mənim də rolum olmuşdur”.

Fotolardan birində isə E.Abdullayevin bir məsciddə molla ilə söhbət etdiyi görünür. Çox güman ki, blogger Elnur Məcidli tərəfindən çəkilən bu fotolar da E.Abdullayevin dostları tərəfindən bəyənilib. Amma sabiq rektorun namaza başlaması və ya dindarla nə barədə söhbət etməsi sual olaraq qalır.

❑ **SEVİNC**

## Ukraynada Azərbaycan diasporunun rəhbərlərindən birini güllələdilər

**Ukraynanın Luqansk vilayətinin Azərbaycanlılar Konqresinin sədr müavini Telman Sədi oğlu Cəfərov separatçılar tərəfindən güllələnərək öldürülüb. Luqansk Azərbaycanlıları Konqresinin sədri Rasim Uğurluyevin APA-ya verdiyi məlumata görə, hadisə dünən axşam Luqansk yaxınlığındakı Kamenko kəndinin ətrafında baş verib.**

T.Cəfərovun meyiti separatçıların nəzarəti altında olan ərazidə qalıb və hələlik meyiti götürmək mümkün olmayıb.

T.Cəfərovla birgə Mahir, Nurlan və Elman adlı azərbaycanlılar isə separatçıların açdığı atəş nəticəsində yaralanıblar. Onların itkin düşdüyü bildirilir. Məlumata görə, T. Cəfərov və onun azərbaycanlı tanışları həmin ərazidə fermer təsərrüfatlarına aid heyvanları çıxarmaq istəyəndə hücuma məruz qalıblar.

Azərbaycanın Ukraynadakı səfirliyinin Konsulluq məsələləri üzrə I katibi Asim Osmanov APA-ya hadisə ilə bağlı araşdırma aparılacağını deyib.

Qeyd edək ki, Ukrayna vətəndaşı olan 1961-ci il təvəllüdlü Telman Cəfərov əslən Bakıdandır.

YENİ MÜSAVAT
N 192 (5901) 1 avqust 2014



# Monikaya xəyanət

Zamin HACI
zaminhaci@gmail.com

**Leyla Yunus və Arif Yunusun "dövlətə xəyanət" maddəsi ilə ittiham olunması bir daha bu maddəyə diqqətimizi yönəltdi. 90-cı illərdə yapistlər xalqımıza işgəncə vermək istəyəndə "vətənə xəyanət" adlı maddədən istifadə edirdilər. Sonradan bunun adı dəyişdirildi, indi "dövlətə xəyanət" şəklindədir. Hakimiyyətin xoşu gəlməyən bir çox şəxslərə yapışdırılıb.**

Ancaq hesab edirəm Cinayət Məcəlləsində bu, çox mənasız, irticaçı, vaxtı keçmiş bir maddədir. Dövlətə xəyanət o qədər yayğın, bir az da romantik anlayışdır ki, bunun içinə istənilən söhbəti dürtüşdürmək mümkündür. İnsanı casusluqda şərləsinlər, dövlət əmlakını xarici şpionlara satmaqda suçlasınlar, nə bilim, cibinə narkotik atsınlar - bunların hər birində hansısa məzmun var. Dövlətə xəyanət isə çox düşük söhbətdir. Dövlət bəyəm insanla ər-arvad münasibətləri qurur ki, sonra onu pozanları tutur? Sən zəhmət çək, yoldaş Dombalanskiyə əmr elə, normal bir maddə tapsın.

Yeri gəlmişkən, bu "dövlətə xəyanət" qədim Romada yaranmış bir hüquqi anlayışdır, sonradan orta əsr Avropa dövlətlərində də krala, hökmdara xoş gəlməyən insanları öldürmək üçün istifadə edilib. Dövlət deyərkən kralı nəzərdə tutublar. Sonra Avropa dövlətləri bu axmaq maddədən imtina ediblər. Keçmiş SSRİ-də bu maddə ən populyar maddə idi, rejimin xoşu gəlməyən minlərlə insanı bununla öldürüblər. İndi də Rusiya, Azərbaycan, Şimali Koreya kimi postkommunist rejimlərdə dövlətə xəyanət aktual ifadədir.

Hazırda normal dünya dövlətlərindən demək olar heç birinin qanunvericiliyində qalmayan bu maddə, maraqlıdır ki, ABŞ-da hələ saxlanılır. Amma necə? Amerikada "dövlətə xəyanət" yeganə cinayət maddəsidir ki, bunun necə deyərlər, təfsirini birbaşa konstitusiyaya yazıblar. Sadə səbəbdən: məhkəmə hakimləri, prokurorlar, dövlət bu maddədən vətəndaşlara qarşı kefi istəyən kimi yararlana bilməsin! Təfsir (açıqlama) isə belədir ki, yalnız Amerikaya qarşı müharibə elan edən şəxs xain sayılır. İkinci Dünya Savaşından bəri - son 70 ildə ABŞ-da "dövlətə xəyanət" maddəsi ilə... cəmi 1 nəfər suçlanıb: "Əl Qaida" üzvü Adam Qadan adlı şəxs. O da qiyabi ittihamdır, yanılmıramsa Qadan heç tapılmayıb, hardasa Əfqanıstan dağlarında sülənir.

Ancaq yenə yazıram, Azərbaycan, Rusiya kimi ərazilərdə hər il xeyli insan dövlətə xəyanətdə suçlanır. Adamı yandıran da odur ki, barı dövlət də bir dövlət ola... Böyük hissəsini düşmən tutub, qalanı da YAP-çıların əlindədir. Misal üçün, biri var adamı Monika Beluççiyə xəyanətdə suçlayalar, biri də var İlhamə Quliyevaya. Fərqi hisslər deyilmi? İkinci daha sarsıdıcı, işgəncəli, ağır deyilmi? Söhbət budur.

Leyla Yunus və Arif Yunusun bu maddə ilə suçlanmasına gələndə, burda absurd gözə girir. Hətta onlara casusluq ittihamı da yapışmır, çünki hər hansı dövlət sirrinə çıxışları olmayan, o cümlədən dövlət orqanı qarşısında öhdəlik götürməmiş şəxslərdir. Ancaq gəlin MTN və Baş Prokurorluğun dünənki gülünc bəyanatından bir cümləni oxuyaq və hələlik zövq alaq. Şəxsən mən bu uzunluqda cümləni qurasdıran müstəntiqin beynində bağırsaq partlaması (qrıja) yaranmasından qorxuram, adama yazıq olub, Anadolu türkləri demiş. Buyurun: "Eyni zamanda Leyla və Arif Yunusovlar hələlik adları açıqlanmayan ayrı-ayrı Azərbaycan Respublikası vətəndaşlarını da məxfi əməkdaşlığa cəlb edilmələri üçün Ermənistan xüsusi xidmət orqanının nümayəndələri ilə əlaqələndirərək, Azərbaycan Respublikasına qarşı istifadə məqsədilə ictimai-siyasi, sənaye, energetika, hərbi texniki təchizat sahələrində mövcud vəziyyət barədə məlumatlar toplanılması, işğal altında olan torpaqlarımızın azad edilməsi müqabilində Dağlıq Qarabağdakı qondarma rejimin müstəqilliyinin tanınmasının zəruriliyinin təbliğ edilməsi barədə onlara konkret tapşırıqlar verilməsi ilə üzərinə düşən vəzifəni başa çatdırıblar". Burdakı başqa şəxslərə də torba tikmə hazırlıqları mesajı bir yana, bunun özü nə deməkdir? Dağlıq Qarabağı tanıyıblar? Əgər zövq almadınızsa, axırını bir daha oxuyun: "Qondarma rejimin müstəqilliyinin tanınmasının zəruriliyinin təbliğ edilməsi barədə onlara konkret tapşırıqlar verilməsi ilə üzərinə düşən vəzifəni başa çatdırıblar". Üzərlərinə düşən vəzifə tanınmağın zəruriliyinin təbliği olub, yoxsa konkret tapşırıqların verilməsi? Belə cümlə qurmaq dövlətə sədaqətdir?

Sonda onu deyim ki, heç Monika da düzgün arvad deyil, o cür bazburutlu aktyor əri Vensan Kasseli qoyub Telman İsmayılov tipli idiotlarla aşnalıq edirdi. Axırda da boşandılar.

### Hakimiyyət dini sahə ilə bağlı şok gediş ərəfəsində

# Azərbaycanda radikal qruplara qarşı əməliyyatlar başlayır

## Avqustun 1-dən ölkə boyu bölücü, təkfirçi qruplara, eləcə də xarici ölkələrə döyüşçü göndərən şəbəkələr əleyhinə geniş miqyaslı əməliyyatlara start veriləcək; 2015-ci ilədək gizli cərəyanların hamısının ifşa olunaraq sıradan çıxarılacağı gözlənilir...

**Azərbaycan hakimiyyəti avqustun 1-dən etibarən ölkə boyu radikal dini qruplara qarşı əməliyyatlara başlayır. Bu barədə "Yeni Müsavat"a ötürülən məlumatda qeyd olunur ki, əməliyyat uzun müddətdir hazırlanıb və miqyasına görə indiyədək olanlardan daha böyük olacaq.**



Məlumatda qeyd olunur ki, bu ilin əvvəlində Azərbaycan dövlət rəhbərliyinə ölkə ərazisindəki radikal dini qrupların fəaliyyəti, eləcə də ölkədən Suriyaya, İraqa kütləvi şəkildə gənclərin döyüşmək üçün getməsini təşkil edən şəbəkə barədə ciddi, narahatedici dosye təqdim olunub. Bizə çatan məlumata görə, müvafiq dövlət qurumlarının hazırladığı dosyedə narahatlıq doğuran problem detallı şəkildə əksini tapıb.

Sənəddə ölkə daxilində radikal fəaliyyətləri dəstəkləyən, təşviq edən mərkəzlər, Suriyaya döyüşçü aparan şəbəkə, onları maliyyələşdirən mərkəzlər, qeyri-leqal maliyyə şəbəkələri, eyni zamanda ölkə daxilində və xaricdən məhz radikal qrupları, radikalizmi təbliğ edən məscidlərin saxlanılması üçün ayrılan pullar və onların ötürülməsi sxeminin qeyd olunduğu vurğulanır. Eyni zamanda konkret olaraq bu qrupları maliyyələşdirən biznes qurumlarının siyahısının hazırlanaraq ölkə rəhbərliyinə təqdim olunduğu deyilir.

O da bildirilir ki, artıq müvafiq qurumlar bir neçə müddətdir ölkə boyunca radikal qruplar və onlara dəstək verən qurum və şəxslərin fəaliyyətini nəzarət altında saxlayır. Avqustdan etibarən isə ölkə boyu adları qeyd olunan sahələrdə geniş miqyaslı əməliyyatlar başlanacaq. Bizə çatan bilgilərdə o da qeyd olunur ki, əməliyyat yalnız sələfi-vəhhabi, xəvaric qruplara qarşı deyil, radikalizmi təbliğ edən şiə qruplara qarşı da aparılacaq. Siyahıda bir neçə belə qrupun olduğu bildirilir.

Yeri gəlmişkən, bu ilin yazında hökumət qurumları bir neçə məsciddə kiçik miqyaslı təmizləmə işləri aparıb, radikalizmi təbliğ edən din xadimləri, icmalar ifşa olunaraq məsciddən uzaqlaşdırılıb, məscidlərin imam və axundları dəyişdirilib. Bundan başqa, ötən həftə Bakıda fəaliyyət göstərən bir sıra özəl şirkətlərdə reallaşan yoxlama və həbslər də məhz bu qurumların radikal qrupları maliyyələşdirməsi ilə bağlı olub. O sırada konkret olaraq "Sevil" yaşayış massivinin sahibi Hacı Aynurun həbsi məhz onun radikal qruplara yaxınlığına görə olub. Məlumatlara görə, yaşayış kompleksinin ərazisində tikilməkdə olan məscid də tez bir zamanda sökülüb.

Ötən həftə barəsində yoxlamalar başlanan və sədrinin həbs olunduğu bildirilən daha bir tikinti şirkəti "AAAF Park" yaşayış kompleksi oldu. Mətbuatda gedən xəbərlərdə Vergilər Nazirliyi və Baş Prokuror Yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsi əməkdaşlarının şirkətdə yoxlamalar apardığı və daha sonra "AAAF İnşaat" MMC-nin rəhbəri Tofiq Heydərovun həbs olunduğu bildirilirdi. İddia olunurdu ki, T.Heydərov vergi cinayəti ilə bağlı saxlanılsa da, onun cəzalandırılmasının kökündə radikal dini cərəyanlara, xüsusən vəhhabilərə "yaşıl işıq" yandırması dayanır. Şirkət rəhbəri radikal dini qruplara və şəxslərə maliyyə yardımları göstərməkdə, bu dini cərəyanların nümayəndələrinin işlə, evlə təmin olunmasında, eləcə də onların təhlükəsizliyinin təmin edilməsində iştirak edib.

Başqa bilgilərə görə, hazırda radikal cərəyanlara bağlı və ya onlara dəstək verən bir çox şirkətlərə və iş adamlarına qarşı araşdırmalar başlanıb və həbslərin davam etməsi gözlənilir. Bildirilir ki, bu istiqamətdə müəyyən müddətdə fasilə verilməsinin səbəbi araşdırmaların aparılması ilə yanaşı, hökumətin bu sahədə fəaliyyət göstərəcək əsas dövlət qurumları ilə bağlı hazırlıqları *(Dini Komitəyə yeni sədr məsələsi və s.)* olub.

Əlavə edək ki, bir qayda olaraq yerli vəziyyətdən və dövlətin sahəsində konkret proqramının yoxluğundan istifadə edən dini qruplar uzun illər ölkədə rahat şəkildə fəaliyyət göstərib və yayıla biliblər. Ancaq artıq vəziyyət dəyişib və hökumət Suriya, eləcə də İraq olaylarından ciddi şəkildə narahat olmağa başlayıb. Xaricdə döyüşən azərbaycanlıların ölkəyə qayıtması *(artıq bu cür faktlar var)*, həmçinin radikal dini təbliğatların yayılması rəsmi Bakını bərk narahat etməyə başlayıb.

Bu məqsədlə hakimiyyət rəsmi qurum statusunda olan QMİ-nin fəaliyyət imkanlarını genişləndirməklə yanaşı, eyni zamanda radikalizmi və dinlər arası münasibətləri gərginləşdirməyə çalışan, bu yöndə təbliğat aparan cərəyan və qrupları sıxışdırmağa çalışır. Hökumətdə hesab edirlər ki, şimalda Dağıstan, cənubda İran faktoru, son illər isə Türkiyə hakimiyyətinin radikal dini cərəyanların üzvlərinə ölkəsində yer verməsi, o cümlədən Azərbaycandan gedən gənc dindarların Suriyaya döyüşə göndərilməsinə şərait yaratması Bakıda ciddi narahatlıq doğurur.

Bu səbəbdən hakimiyyət ölkə daxilindəki dini cərəyan və qrupları nəzarət altına almağı qərarlaşdırıb. Belə görünür, 2015-ci ilədək Azərbaycanda gizli şəkildə şəbəkələşmiş bütün cərəyanlar *(sünni, şiə, nurçu, vəhhabi, xəvaric və sair)* ifşa olunaraq sıradan çıxarılacaq.

❑ Kənan RÖVŞƏNOĞLU

# Morninqstar Azərbaycandan getdi

**Riçard Morninqstar ABŞ-ın Azərbaycandakı səfiri vəzifəsində öz səlahiyyətlərini artıq başa vurub. Bu barədə "Trend"ə ABŞ-ın Azərbaycandakı səfirliyindən bildiriblər. Səfirliyin məlumatına görə, səfir artıq öz vətəninə yola düşüb.**

Qeyd edək ki, ABŞ Senatı 2012-ci il iyunun 30-da R.Morninqstarın Azərbaycanda səfir postuna namizədliyini təsdiq etmişdi. R.Morninqstarın bu posta namizədliyi ABŞ Prezidenti Barak Obama tərəfindən irəli sürülmüşdü və Senatın Xarici əlaqələr komitəsi bu təklifi yekdilliklə bəyənmişdi.



Riçard Morninqstar

Onu da qeyd edək ki, B.Obama ABŞ-ın Azərbaycandakı yeni səfiri postuna hazırda dövlət katibinin enerji məsələləri üzrə köməkçisinin birinci müavini olan Robert Frensis Sekutanın namizədliyini irəli sürüb. R.Sekuta əvvəllər ABŞ Dövlət Departamentinin Energetika və biznes məsələləri Bürosunda dövlət katibinin köməkçisinin energetika, sanksiyalar və xammal məhsulları üzrə müavini vəzifəsində çalışıb. Onun xaricdə son təyinatları Tokioda (2007-2009-cu illər) və Berlində (2003-2007-ci illər) olub. O bu ölkələrdə ABŞ hökumətinin iqtisadi məsələlərin bütün spektrində iştirakına nəzarət edib.

Almaniyada iqtisadi müşavir - səfir kimi R.Sekutanın işi terrorizmlə və beynəlxalq cinayətkarlıqla mübarizənin gücləndirilməsi olub. O, həmçinin ABŞ Dövlət Departamentinin Energetika və biznes məsələləri Bürosunda ərzaq təhlükəsizliyi məsələləri üzrə baş müşavir və ABŞ-ın Əfqanıstandakı səfirliyində Koordinasiya direktorunun iqtisadi məsələlər üzrə birinci müavini olub.

## Qərb regionda Rusiyaya qarşı ikinci cəbhə açır



# Azərbaycanda qafqazsayağı Maydanı kim hazırlayır? - iddia

## Morninqstarın xəbərdarlığının əks-sədası Rusiyadan gəldi; pravda.ru videokanalı bölgəmizdə rəngli inqilab layihələrinə həsr etdiyi verilişdə ilginc detallara diqqət yönəltdi; Amerikanın geosiyasi planlarında Türkiyəyə də rol ayrıldığı deyilir...

**Ukraynada avrointeqrasiya tələbləri ilə başlayan Maydan hadisələri hələ məntiqi sonluğa çatmayıb. Ancaq bir şey indidən aydındır ki, bu hadisələr MDB-nin və Şərqi Avropa məkanının ən mühüm ölkəsini - Ukraynanı Rusiyanın siyasi-hərbi təsir zonasından həmişəlik çıxarıb. Paralel olaraq, Putinin SSRİ-ni yeni qiyafədə bərpa eləməyə yönəlik Avrasiya layihələrinin aqibəti məlum hadisələrlə uğursuzluğa tuş gəlib.**

Bu üzdən Kreml başçısı Maydan proseslərinin heç olmasa başqa postsovet regionlarına, ələlxüsus Güney Qafqaza sirayət eləməməsinə səy edir, prosesin təkrarlanmaması üçün ən müxtəlif və preventiv planlar üzərində baş sındırır. Təbii ki, belə bir məram rəngli inqilablarda maraqlı olmayan yerli antidemokratik rejimlərin də istəyi ilə yüzdə yüz uzlaşır.

Bu yerdə yada ötən həftəsonu Almaniyanın nüfuzlu "Der Spiegel" nəşrində getmiş bir məqalə düşür. Məqalədə Rusiyanın Azərbaycanı da hədəf ala biləcək yeni qorxunc planından bəhs olunurdu. Bildirilirdi ki, Moskva potensial tətbiq yeri Qafqaz və Ukrayna olacaq, həmçinin postsovet məkanında rəngli inqilabları önləməkdə istifadə edilə biləcək özəl ordu hazırlıqlarına başlayıb.

Müəllif konkret faktlara istinadən qeyd edirdi ki, Kreml ABŞ-ın "Blackwater"inə bənzər özəl silahlı qüvvələrin yaradılması planı üzərində ciddi şəkildə işləyir. Ehtimal edilir ki, belə bir yeni, dövlətüstü strukturlardan "siyasi həssas situasiyalarda" istifadə olunacaq.

***

Rusiyanın pravda.ru videokanalının birbaşa efirində getmiş və Güney Qafqaz ölkələrində protest hərəkatın perspektivlərinə həsr olunmuş analitik veriliş bu xüsusda təxminlərə başqa yandan işıq sala bilər. Region dövlətlərində *(şübhəsiz, əsasən Azərbaycan və Ermənistan nəzərdə tutulur)* Ukraynasayağı Maydanın mümkünlüyünə həsr olunan müzakirələrdə bəzi fikirlər xüsusilə diqqət çəkir.

Məsələn, qeyd edilir ki, korrupsiyalaşmış oliqarxiya rejimlərinin özünün mövcudluğu, milli sərvətlərin düzgün bölüşdürülməməsi potensial Maydan üçün onsuz da hər zaman zəmin yaradır. Hərgah, rusiyayönlü politoloq hesab edir ki, guya Maydan hadisələrini körükləməklə Qərb eyni zamanda həmin ölkələrin dövlətçiliyini məhv eləmək, onları daha asan idarə olunan hala gətirmək niyyəti güdməkdədir. Rusiyanın Maydan hadisələrinə qarşı çıxması guya həm də bu amillə bağlıdır.

**Sitat:** "Artıq Güney Qafqazda situasiya güclü şəkildə laxladılmaqdadır. Əslində daxildən Ermənistanı yox, bütün regionu partlatmaq, Rusiya ətrafında sabitsizlik kəməri yaratmaq istəyirlər. Suriyada məğlub olan Qərb Rusiyadan əvəzini Ukrayna çıxmaqdadır. Buna hazırlıqlar çoxdan gedirdi. Növbədə Qafqaz ölkələridir. Bu, Qərbin geosiyasi planlarına daxil olan məsələlər sırasındadır".

**Ekspert Maydanın təhdid elədiyi əsas ölkənin məhz Ermənistan olacağını düşünür:** "Partlayışın mərkəzində Ermənistan duracaq. Episentr də o olacaq. Çünki region ölkələrindən məhz Ermənistan Rusiyaya hərbi-siyasi cəhətdən ən güclü şəkildə bağlanan dövlətdir, burada Rusiyanın yeganə leqal hərbi bazası var və üstəlik, yerli hakimiyyətdən sosial narazılıq çox böyükdür. Bizdə artıq Maydan komitələri, gənclərin bu yöndə müxtəlif təşkilatları, QHT-lər mövcuddur".

Politoloqun iddiasına görə, regionda destabilizasiya üçün daha bir faktor odur ki, "Gürcüstanda, Azərbaycanda və Ermənistanda KİV faktiki, Qərbin nəzarəti altındadır və hər üç ölkədə onlar koordinasiya olunmuş şəkildə fəaliyyət göstərir".

**Onun qənaətincə, Qərb Rusiyanı regiondan vurub çıxarmaq üçün Qafqazda Kremlə qarşı ikinci cəbhə açmaq istəyir:** "Bölgədə Ukraynasayağı Maydanın, inqilabların təkrarlanması üçün xüsusən son aylarda ciddi fəallaşma hiss olunur və özünü son zamanlar Dağlıq Qarabağ konflikti ətrafında gərginləşən situasiyada da göstərməkdədir. Belə qənaət hasil olur ki, Qərb Qarabağ məsələsi ilə bağlı hansısa dəyişikliyin daxildə yaradacağı spontan etirazları da hesaba alır. Prosesə həmçinin Türkiyə cəlb olunacaq. Bir sözlə, hazırda bölgədə dondurulmuş kimi görünən situasiyanın donu hər an açıla bilər".

***

Xatırladaq ki, Azərbaycanda Maydanın təkrarlana biləcəyi barədə ABŞ-ın ölkəmizdəki səfiri Riçard Morninqstar da AzadlıqRadiosuna məlum qalmaqallı müsahibəsində xəbərdarlıq eləmişdi. Buna görə hakimiyyət dairələrinin dərhal sərt qınağına tuş gələn diplomat bildirmişdi ki, əgər ölkədə təməl azadlıqlar tapdanmaqda davam edərsə, vətəndaş cəmiyyətinə qarşı çox sərt mövqe tutularsa, vətəndaş cəmiyyətinə nəfəs almağa imkan yaradılmazsa, onda Ukraynadakı hadisələr nə vaxtsa Azərbaycanda da təkrarlana bilər.

Səfirin açıq mətnlə söylədiyi sərt fikirləri rəsmi Bakı hələ də həzm edə bilməyib. Gerçək belədir ki, bunu az qala "Amerika Azərbaycanda Maydan hazırlayır" kimi anlayan ölkə iqtidarı günü bu gün də dünyanın 1 nömrəli dövlətinə qarşı təbliğat kampaniyasını davam etdirir, Vaşinqtonun "maliyyələşdirdiyi ələltı qurumlar" vasitəsilə Azərbaycanda inqilab hazırlıqları içində olması görüntüsü yaradır. Bundan əlavə, hakimiyyətin yazılı və elektron mətbuatında vaxtaşırı surətdə "ifşaedici" materiallar dərc edilir, antiqərbçi "ekspertlər"in dilindən uzaqgedən, anti-Qərb xarakterli proqnozlar səsləndirilir.

Azərbaycanda son qalmaqallı siyasi həbslərin bir ucunun məhz bu motivə bağlı olduğuna şübhə edənlər yəqin ki, qalmayıb. Gerçək budur ki, tutulan tanınmış simaların mütləq əksəriyyəti *(İlqar Məmmədov, Anar Məmmədli, Tofiq Yaqublu, Leyla Yunus, Rauf Mirqədirov)* məhz qərbyönlü qüvvələri təmsil edən şəxslərdir. Azərbaycan iqtidarının kontur-Maydan tədbirləri yəqin ki, bu həbslərlə məhdudlaşmayacaq. Ancaq bunlar ölkədə qafqazsayağı Maydanı önləyə biləcəkmi? Sual budur.

❑ **Siyasət şöbəsi**



Fərrux Məmmədov

## "Moskva Azərbaycanın güc strukturlarında öz adamlarını yerləşdirə bilib"

### Fərrux Məmmədov: "Rusiya Ukraynada edə bilmədiyini Azərbaycanda edə bilər"

**"Rusiya Ukraynada edə bilmədiyini Azərbaycanda edə bilər". Bu sözləri axar.az-a NATO Əməkdaşlıq İnstitutunun rəhbəri Fərrux Məmmədov Rusiyanın son günlər Qafqaza qarşı yürütdüyü siyasəti şərh edərkən deyib.**

O, Moskvanın Azərbaycana təsirinin Qarabağ işğaldan azad olunana qədər davam edəcəyini bildirib:

"Rusiya keçmiş postsovet məkanı ölkələrini təsirində saxlamaq üçün yaratmış olduğu donmuş münaqişələr vasitəsilə, həmçinin həmin ölkələrin daxilində etnik problem kartıyla öz varlığını sübut etməyə çalışır. Bu, Rusiyanın xarici siyasətinin əsas xəttidir. Burada qeyri-adi bir şey yoxdur. Diversiya əməliyyatlarının keçirilməsi də təbii ki, bu və ya digər formada Rusiyanın marağı, istəyi nəticəsində həyata keçirilir. Diplomatiyada buna təsiretmə deyirlər. Bu cur təsiretmə ilə psixoloji mübarizə aparırlar ki, qarşı tərəf hər zaman narahatlıq keçirsin və sonda çıxış yeri məhz böyük dövlətlər olsun. Belə proses həmin işğalçı dövlətin bu regionda qalmasına xidmət edir. Həm də orada ciddi siyasi basqıya səbəb olur. Hazırkı şəraitdə də bu proses təkrarlanacaq. Bu, Qarabağ işğaldan azad olunana qədər davam edəcək".

F.Məmmədov Rusiyanın Azərbaycanda kifayət qədər adamının olduğunu söyləyib:

"Rusiyanın son 23 ildə Azərbaycanla, ümumilikdə Cənubi Qafqazla bağlı işğalçı siyasəti də göz qabağındadır. Lakin burada əsas ciddi bir məsələ var. Rusiya Ukraynada edə bilmədiyini Azərbaycanda edə bilər. Söhbət Moskvanın Azərbaycanda həyata keçirmək istədiyi hərbi çevrilişdən gedir. Bu qaçılmazdır. Rusiyanın Azərbaycanda təsir etmə imkanları yetəri qədərdir. Güc strukturlarında, hətta ölkənin siyasi xəttinə təsir etmək imkanı olan mühüm strateji yerlərdə Moskva öz adamlarını yerləşdirə bilib. Azərbaycanda demokratik cəmiyyətin qurulması və demokratik proseslərin sürətlənməsi qaçılmazdır. Bu, artıq reallıqdır. Sadəcə, müəyyən vaxt tələb olunur. Rusiya isə Cənubi Qafqazda demokratik və inkişaf etmiş dövlət istəmir. Buna görə də Azərbaycan daxilində olan gücü ilə demokratik proseslərə hərbi çevrilişlə cavab verəcək. Bu prosesdən qaçmaq üçün isə Azərbaycan NATO və Amerika ilə tərəfdaşlığını gücləndirməlidir".

## Qarabağda iki erməni hərbçisi öldürüldü

**Qondarma "DQR müdafiə nazirliyi" bu gün Azərbaycan Silahlı Qüvvələrinin erməni işğalçı qüvvələrinin təmas xəttinin şimal istiqamətindəki mövqelərindən birinə hücum etdiyi barədə məlumat yayıb.**

Virtualaz.org saytı xəbər verir ki, məlumatda postdakı erməni hərbçilərinin "bu hücuma mütəşəkkil müqavimət göstərdiyi, düşmənin əhəmiyyətli itki verərək geri çəkildiyi" iddia olunur.

Döyüş zamanı erməni ordusunun iki hərbçisinin öldüyü açıqlanıb, əlavə təfərrüatlar barədə məlumat verilmir.

Azərbaycan Müdafiə Nazirliyi insidentə hələlik münasibət bildirməyib. Bundan əvvəl - iyulun 26-da da erməni ordusu Qarabağda "Azərbaycan tərəfinin növbəti diversiya həmləsi nəticəsində" bir əsgərini itirdiyini, iki əsgərin yaralandığını bildirmişdi.

Azərbaycan Müdafiə Nazirliyi isə erməni tərəfinin yaydığı bu məlumatı təkzib edib: "Azərbaycan ordusu hücuma keçməyib".

YENİ MÜSAVAT
N 192 (5901) 1 avqust 2014

**Azpolitika.info saytının Əmlak Məsələləri Dövlət Komitəsi ilə bağlı yazısının növbəti hissələrini ixtisarla dərc edirik. "Yeni Müsavat" olaraq qarşı tərəfin də mövqeyini də dərc etməyə hazırıq.**

*(əvvəli ötən sayımızda)*

### Həsənov Mingəçevir alverində özünü "qurban" vermiş Cəlilovu geri qaytardı

16 noyabr 2005-ci ildə prezidentin fərmanı ilə Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi yaradıldı. Kərəm Həsənov axır ki, çoxdan arzuladığı, həsrətində olduğu yeni komitənin sədri təyin edildi. Və dərhal da yeni idarəetmə mexanizmini işə saldı.

Əvvəlcə Mingəçevir alverində özünü "qurban" vermiş Rafiq Cəlilovu və sadiq dostu Rüstəm Şahbazovu özünə müavin təyin etdirdi. Doğrudur, əvvəlcə prezidentin fərmanı ilə təsdiqlənən komitənin əsasnaməsində sədrin bir müavininin olması nəzərdə tutulmuşdu. Ancaq K.Həsənovun xahişi ilə komitənin əsasnaməsində edilən əlavə və dəyişiklikdən sonra iki müavin vəzifəsi oldu. Göründüyü kimi, K.Həsənov Rafiq Cəlilovu "pod atkos" buraxsa da, onunla vaxtilə birgə gördükləri işi öz üzərinə götürdüyünü, yəni yaxşılığını yaddan çıxarmadı. Əgər Mingəçevir alverində bir yerdə olmasaydılar, şübhəsiz ki, R.Cəlilov bu gün müavin vəzifəsində işləməzdi...

Ancaq bunu K.Həsənovun dostluğa sədaqəti qiymətləndirməsi kimi deyil, gələcəkdə həyata keçirməyi planlaşdırdığı "layihələri", maxinasiyaları reallaşdırmaqda ona yardımçı olacaq "sirr ortağını" yanına alması kimi xarakterizə etmək daha doğru olardı. Çünki Kərəm Həsənov ona çörək verən, əlindən tutub yuxarı çəkən Fərhad Əliyev və qardaşına xəyanət etməklə, bəzi dəyərlərin onun üçün elə də əhəmiyyət daşımadığını göstərdi...

Elə bunun göstəricisi idi ki, Kərəm Həsənovun tapşırığı əsasında Ləğvetmə Komissiyasının qərarı ilə F.Əliyevin vəzifəyə təqdim etdiyi 80 nəfərə yaxın əməkdaş yeni komitədə işə qəbul edilmədi.

### Kərəm Həsənov komitədə yeni iş rejimi tətbiq edir - pozanların "paketi" kəsilir

K.Həsənovun tapşırığına əsasən, komitədə yeni iş rejimi tətbiq olundu, sıravi dövlət qulluqçularının iş vaxtı əmrsiz axşam saat 19.00-a qədər, şöbə və sektor müdirlərinin iş saatı isə 20.00, bəzən 21.00-a qədər uzadıldı. Komitənin və onun rayon şöbələrinin əməkdaşlarına şənbə günü saat 17.00-dək işdə olmaları haqqında göstəriş verildi. Dövlət qulluqçusunun əmək məzuniyyətində olduğu müddət K.Həsənovun göstərişi ilə iki həftədən artıq olmamaq şərti ilə müəyyənləşdirildi. İki həftədən sonra əməkdaş müvafiq əmr olmadan məcburən iş yerində olmalı idi. Əgər əməkdaş iki həftədən artıq məzuniyyətdə olarsa, respublikada yeganə dövriyyyə pul tədavül vasitəsi olan manat əvəzinə ona ABŞ dolları ilə verilən "paket" maaşı kəsilirdi.



# Kərəm Həsənovun əmlak siyahısında nələr var?

## Əmlak Məsələləri Dövlət Komitəsinin sədri oliqarxlara mesaj göndərib: "Mənim sözüm sizdən üstün olacaq!"

DQMK tərəfindən vəzifəyə göndərilmiş əməkdaşa komitədə tətbiq olunan bir il sınaq müddətində "paket" maaşı verilmirdi. Yeni işçinin sınaq müddətində buna reaksiyasından çox şey asılıdır. Həmin dövrdə onun ehtiyaca dözümlülüyü araşdırılır. Qeyd edək ki, yuxarıda qeyd olunan qanunsuzluqlar bu gün də davam edir.

### Dövlət Qulluğu Məsələləri Komissiyasının sədri Həsənovdan niyə çəkinir?

Beləliklə, K.Həsənov yeni yaradılmış komitədə və onun strukturlarında çalışan 80 nəfərə yaxın əməkdaşı "F.Əliyevin kadrı" damğasını vurmaqla işdən azad etdi. Maraqlıdır ki, Dövlət Qulluğu Məsələləri Komissiyasının sədri B.Xəlilov öz vəzifə səlahiyyətindən istifadə edərək, azad olunmuş dövlət qulluqçularının hüquqlarının pozulmasının qarşısını almadı. Nə onların öz iş yerlərinə bərpa edilməsinə, nə də başqa dövlət təşkilatlarında işlə təmin olunmasına köməklik göstərdi... Bəlkə də K.Həsənovdan ehtiyat edirdi.

Çünki F.Əliyev kimi bir naziri, həmyerlisini, "xlebnik"ini "pod otkos" buraxan bir şəxs üçün, B.Xəlilovu da hansısa bir fikrinə görə, necə dəyərlər, "şərə salmaq" o qədər də çətin deyildi. Elə Həsənov özü də bunu gizlətmirdi. K.Həsənov Dövlət Qulluğu Məsələləri Komissiyasının 5-ci təsnifata imtahan verib qəbul olunmuş gəncləri "B.Xəlilov kimdir ki, mənim işimə qarışır, mənə göstəriş verir" deyərək 7-ci təsnifata uyğun vəzifəyə təyin edirdi. 5-ci təsnifata uyğun vəzifəyə qəbul olunmuş gənc etiraz etdikdə K.Həsənov - "get B.Xəlilova şikayət et, mən səni bu vəzifəyə təyin edirəm" və ya "B.Xəlilov mənim işimə qarışa bilməz, kimi hara təyin etdiyimi mən bilərəm" - deyə meydan oxuyurdu.

Yenidən DQMK-ya müraciət edən gənclərə heç bir köməklik göstərilmədi. Biz həmin gənclərin sonrakı karyerasını təhlükə altına atmamaq üçün adlarını açıqlamırıq. Sadəcə, bu faktları xatırlatmaqla, Həsənovda qısa müddətdə prezidentin yanında fəaliyyət göstərən icra orqanının rəhbərini belə saymayacaq dərəcədə özünəarxayınlığın yarandığına diqqəti çəkirik.

### Fərhad Əliyevə məxsus hansı müəssisələr əlindən alındı?

Fərhad Əliyev həbs olunduqdan sonra Kərəm Həsənov onun nəzarətində olan obyektləri əlindən almağa başladı. Təbii ki, "yuxarıların" tapşırığı ilə... Ancaq öz payını da götürməyi unutmadı.

Fərhad Əliyev aid "Mingəçevir Regenerat" ASC, "Mingəçevir Texniki Rezin" ASC, "Bakı Elektroavtomat" ASC, "Siyəzən Broyler" ASC, "Azərbaycan Aliminiumu" ASC, "Daşkəsən Filizsaflaşdırma" ASC, "Azərelektroterm" ASC, "Azərboru "ASC, "Bakıelektrikşəbəkə" ASC, "Sumqayıtelektrikşəbəkə" ASC ilə bağlanmış müqavilələr guya investorlar tərəfindən müqavilə şərtlərinin yerinə yetirilməməsi adı ilə ləğv olundu.

Həmin müəssisələrin fəaliyyətinə Kərəm Həsənov birbaşa özü nəzarət edir. Hazırda bu müəssisələrin gəliri komitənin "katyoluna" ödənilir.

Bundan başqa, Fərhad Əliyevin respublikanın müxtəlif yerlərində, Bakı şəhərində yaxınlarının adına özəlləşdirdiyi qeyri-yaşayış sahələri əlindən alındı. Onların bir hissəsini Kərəm Həsənov öz yaxınlarının adına keçirdi.

Fərhad Əliyev tərəfindən açılan, onun yaxınlarının nəzarət etdiyi bəzi müəssisələrin fəaliyyəti isə dayandırıldı. Məsələn, F.Əliyevin açdığı Gəncə Xalça Kombinatının yaxınlığında 100-dən çox ailənin yeganə iş yeri sayılan, Almaniya istehsalı olan 9 ədəd xalça toxuyan dəzgahla işləyən müəssisənin fəaliyyəti dayandırıldı. Əmlakının mülkiyyət sənədləri isə ləğv edildi.

### Məhkəmədə Fərhad Əliyevə salam verdiyinə görə vəzifəsindən azad olundu

Kərəm Həsənovun müavin təyin etdiyi Rafiq Cəlilov da F.Əliyevin vaxtilə onu işdən azad etməsini unutmamışdı. F.Əliyevin məhkəmə prosesi zamanı K.Həsənovun tapşırığı ilə R.Cəlilovun, R.Şahbazovun kabinetlərində komitənin xüsusi seçilmiş əməkdaşları təlimatlandırılırdı. Rafiq Cəlilov məhkəmədə kimin F. Əliyev haqqında nə danışacağını, onun "vəzifəsindən sui-istifadə edib" qanunsuz özəlləşdirmə ilə əlaqədar kimə necə təzyiq etməsi ilə bağlı göstərişlər verirdi.

Bəzilərinə proses zamanı F.Əliyevə xüsusi ironiya və kinayə ilə "ay Fərhad" deyə müraciət etməyi, "sənin yerin elə oradır" deyə təhqir etmələrini tapşırırdı.

Məhkəmə prosesində kimin necə ifadə verdiyi zalda əyləşən nümayəndə tərəfindən hər axşam K.Həsənova, həmçinin R.Şahbazova, R.Cəlilova məruzə olunurdu. Hətta şahid kimi məhkəməyə dəvət olunmuş Bakı şəhəri rayon şöbəsinin rəislərindən biri zala daxil olarkən F.Əliyevə salam verdiyinə görə bu üçlüyün qəzəbinə düçar olub, vəzifəsindən azad olundu. Ona rəğbəti olan sahibkarlardan biri məhkəmə prosesində özünü saxlaya bilməyib, F.Əliyevin barmaqlıq arxasında oturmasına acımış, üzünü ona tutaraq "sənə bir il həbs verilməlidir, o da K.Həsənov kimi birisini Əmlak Komitəsinə işə götürdüyünə görə" demişdi...

### Kərəm Həsənovun gücü

Kərəm Həsənov 2010-cu ildə qardaşı, "AZİNKO Holdinq"in rəhbəri Malik Həsənovu Milli Məclisə deputat təyin etdirdi. Bununla da Gülər Əhmədovanın sadaladığı siyahı üzrə kimin kadrı olduğu məlum oldu. Bunu heç gizlətmir də...

Arif Qaraşovdan sonra oliqarxların, imkanlı şəxslərin, iş adamlarının və digər şəxslərin əmlakları barədə bütün məlumatları hakimiyyətin "yuxarısına" ötürdüyünə görə az qala onlar tərəfindən parçalanmağa hazır olan, müxtəlif tədbirlərdə onun salamını almayan, özlərini görməməzliyə vuran şəxslərə mesaj göndərdi ki, "özünüzü yığışdırın, növbəti 5 ildə mənim sözüm sizdən üstün olacaq"...

Hökumət dəhlizlərində yayılan söz-söhbətə görə, Həsənov bəyan etmişdi ki, 5 il ərzində "ümumi katyol"dan maliyyələşdirilən Çernoqoriyada, Monteneqroda, Bolqarıstanda, Dubayda, Almaniyada, Çexiyada reallaşdırılan, həmçinin respublikada "AZİNKO Holding"in həyata keçirdiyi bütün layihələrdə maliyyələşmə və xərclərə nəzarəti ona tapşıracaqlar. Həqiqətən də yuxarıda qeyd olunan ölkələrdə daşınmaz əmlak alınması ilə birbaşa o məşğul oldu. Bununla da özünə qarşı olan gizli və açıq savaşları qismən neytrallaşdıra bildi.

### Həsənovun əmlak siyahısında nələr var?

İndi isə qısa da olsa Həsənovun sahib olduğu əmlak barədə məlumat verək. "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"nın təsdiq edilməsi barədə Tədbirlər Planı mövzusunda rüblük, yarımillik, illik hesabatlarda, kollegiya iclaslarında odlu-alovlu danışan K.Həsənov, görəsən, DƏN-ə işə qəbul olunandan sonra aldığı saysız -hesabsız mənzilləri, torpaq sahələrini, obyektləri hansı vəsaitlə əldə edib?

K.Həsənov həmyerlisi, ona karyerada qalxmağa kömək etmiş F.Əliyevdən fərqli olaraq, Bakı şəhərinin mərkəzindən uzaq, şəhər ətrafında yerləşən, gözə çarpmayan müəssisə və obyektləri ələ keçirməyə daha çox üstünlük verir. Ona birbaşa və dolayısı ilə məxsus olan torpaq və qeyri-yaşayış sahələrinin tam olmayan siyahısını oxuculara təqdim edirik:

*1. Şüvalan qəsəbəsi, A.İldırım küçəsi 39 ünvanındakı rayon maliyyə şöbəsinin köhnə 2 mərtəbəli binası. Tikilialtı sahəsi 600 kv.m, torpaq sahəsi 1156 kv.m.*

*2. Şüvalan qəsəbəsi, Şimal DRES-in uşaq bağçası. Tikilialtı sahə 800 kv.m, torpaq sahəsi 3000 kv.m.*

*3. Hövsan qəsəbəsi, Yardımçı təsərrüfat. Tikilialtı sahə 1300 kv.m, torpaq sahəsi 47000 kv.m.*

*4. Mərdəkan qəsəbəsi, Dəniz yolu. Məmmədov Umudəli Ramazan oğlunun adına rəsmiləşdirilib .Tikilialtı sahə 220 kv.m, torpaq sahəsi 8400 kv.m.*

*5. Əmircan qəsəbəsi, E.Həsənov küçəsi 42 ünvandakı qeyri-yaşayış sahəsi. Tikilialtı sahə 150 kv.m, torpaq sahəsi 1300 kv.m. Binnətov Zəbullanın adına rəsmiləşdirilib.*

*6. Şüvalan qəsəbəsinin cənub-şərq hissəsində Maşınqayırma Pansionatının yarımçıq tikilisi. Tikilialtı sahə 600 kv.m, torpaq sahəsi 127022 kv.m. Rəsmiləşdirilib Davudov Yusif Abdulhəmid oğlunun adına.*

*7. Mərdəkan qəsəbəsi, H.Z.Tağıyev küçəsində yerləşən Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin balansında olan qeyri -yaşayış sahəsi. Tikilialtı sahə 120 kv.m, torpaq sahəsi 9000 kv.m. Bayramova Xalidə Nuru qızının adına rəsmiləşdirilib.*

*8. Sabunçu qəsəbəsi, İ.Aslanov küçəsi, 3 ünvanda qeyri-yaşayış sahəsi. Tikilialtı sahə 1200 kv.m, torpaq sahəsi 23500 kv.m. Mustafayev Azad Niyazi oğlunun adına rəsmiləşdirilib.*

*9. Gürqan qəsəbəsi, Dənizkənarı tikili. Tikilialtı sahə 550 kv.m, torpaq sahəsi 50000 kv.m.*

*10. Şüvalan qəsəbəsi, A.İldırım küçəsi "Aqro" kooperativinin və Su doldurma məntəqəsinin yanında. Tikilialtı sahə 2000 kv.m, torpaq sahəsi 58000 kv.m.*

*11. Buzovna yolu, Mərdəkandan Buzovnaya gedəndə sol tərəfdə SMD-26-nın əmlakı və torpaq sahəsi.*

*12. Vişnevka dəmir yolunun yanı, Yardımçı təsərrüfat, idman sağlamlıq mərkəzi.*

*13. Bakıxanov qəsəbəsi, Sülh küçəsi 1 a keçmiş Keyfiyyət Evi. Tikilialtı 960 kv.m, torpaq sahəsi 3000 kv.m. İsmayılov Ramazan İslam oğlunun adına rəsmiləşdirilib.*

*14. Şüvalan qəsəbəsi, bağlara gedən təzə yolun üstündə. Tikilialtı sahə və torpaq sahəsi 5000 kv.m. Donuzçuluq və heyvandarlıq yardımçı təsərrüfatı.*

*15. Mexanizasiya ASC-nin nəzarət səhm zərfi.*

*16.Bəhrəmtəpə Qum-Çınqıl ASC-nin nəzarət səhm zərfi.*

*17. S.Vurğun küçəsində yerləşən Bakı Şəhər Yol Polisinin keçmiş ərazisi.*

*18. H.Zərdabi küçəsində Ticarət Nazirliyinin keçmiş qarajının yerində hündür mərtəbəli binaya şərikliyi (Papanin körpüsünün yanı.)*

*19. H.Ələsgərov küçəsi 6-12 ünvanında hündür mərtəbəli binaya şərikliyi.*

*20. Nizami rayonu 8-ci km bazarı.*

*21. Kənar şəxslərin adına rəsmiləşdirilən Nərimanov və Səbayel rayonundakı villa və mənzillər. H.Hacıyev küçəsindəki 2 mənzili, Qubada, Şamaxıda, Qəbələdəki villaları, Bigəhdəki bağ evi və s.*

**Azpolitika.info**





**2014-cü il ATƏT-in Minsk Qrupunun fəaliyyətində yəqin ki, ən ölgün və səmərəsiz bir dövr kimi qalacaq. Şübhə yox ki, danışıqlar prosesinə Qərblə Rusiya arasında Ukrayna uğrunda gedən mübarizə, ölkənin şərqində səngimək bilməyən qanlı proseslər öz təsirini göstərir. Ancaq məsələ ondadır ki, Ukrayna böhranına qədər də həmsədrlər sülh danışıqlarında bütün tərəfləri qane edən, ədalətli həll variantı ortaya qoya bilməyiblər.**

# Dağlıq Qarabağla bağlı ilginc iddia

## "Problem yaxın 5 ildə həllini tapacaq, ancaq Avrasiya layihələri çərçivəsində..."; moskvalı ekspertə görə, Bakı ABŞ-la dostluqda ehtiyatlı olmalıdır, çünki Birləşmiş Ştatlar istənilən müttəfiqə "ata" bilər"; Vaşinqtonun isə Qarabağa dair xüsusi tapşırığı var...

İndi isə Qarabağ ixtilafının dinc yolla yolun qoyilmasına məsul olan iki əsas güc mərəzi - Rusiya və Qərb *(ABŞ, Avropa)* arasında münasibətlər qat-qat gərgindir, hətta faktiki, soyuq müharibə dövründəkinə yaxındır. Belə bir situasiyada Qarabağ münaqişəsini nə gözləyir? Nikbinliyə hansısa əsaslar varmı, görünürmü? Sülh danışıqları nə vaxt dalandan çıxarılacaq?

**Durumu vesti.az portalına şərh edən "Odnako" nəşrinin siyasi şərhçisi İvan Lizanın yaranmış vəziyyətdə Qarabağ nizamlanmasına dair effektli formul tapılacağına inanmadığını deyib. Onun qənaətincə, mövcud geosiyasi reallıqlar fonunda problemin necə yoluna qoyulacağı ağla sığmır:** "Ancaq həm Azərbaycanın, həm də Ermənistanın önəmi nəzərə alınarsa, güman edirəm ki, regionun taleyinin həllində "ya bizə, ya da sizə" maksimalist yanaşmasından çıxış eləmək yox, hansısa aralıq, neytral bir qərara gəlmək lazımdır. Ancaq bu qərar necə olmalıdır və necə tərtib edilməlidir - birmənalı söyləməkdə çətinlik çəkirəm. Düşünürəm ki, Dağlıq Qarabağ məsələsi xeyli dərəcədə yaxın 5 ildə öz həllini tapacaq".

**Analitik problemin həllində Azərbaycanın istinad elədiyi Türkiyə amili ilə bağlı maraqlı, eyni zamanda mübahisə doğura biləcək fikir də söyləyib.** Sitat: "Azərbaycanın son 20 ildə oriyentasiya etdiyi Yaxın Şərq və Türkiyə gərginlik zolağına daxil olub. Bu gərginliyi Türkiyə adlamaya bilər. Nəzərə alsaq ki, kürdlər fəallaşıblar və referendum keçirərək müstəqilliklərini elan eləmək niyyətindədirlər, yeni xəritədə müstəqil "Kürdüstan" peyda ola bilər, bütün bunlar Türkiyə kürdlərini xeyli aktivləşdirəcək və Türkiyəni zəiflədəcək".

**Bu xüsusda ekspert hesab edir ki, bundan sonra Azərbaycana "zəifləyən Ankaranın mövqeyinə istinad eləmək", sadəcə, təhlükəli olacaq:** "ABŞ-la dostluq da həmçinin qorxuludur, çünki Birləşmiş Ştatlar istənilən müttəfiqə "ata" bilər". O üzdən Azərbaycan üçün yeni, ayaqlar üstdə möhkəm duran müttəfiq axtarıb tapmaq vacibdir. Düşünürəm ki, Avrasiya İttifaqı həmin vaxta məhz belə bir müttəfiq qismində olacaq. Əminəm ki, Qarabağ problemini azərbaycanlılarla ermənilər arasında münasibətləri qəti və geridönməz şəkildə pozmadan məhz Avrasiya inteqrasiyası çərçivəsində həll eləmək mümkündür. Özü də təkcə bir on illik ərzində yox".

Rusiyalı şərhçiyə görə, inteqrasiya Dağlıq Qarabağ məsələsində öz maraqlarını güdən və ondan Güney Qafqazda sabitsizlik ocağı kimi istifadə edən qüvvələri bölgədən çıxarmağa, konfliktin həllində yeni forma və formatları işləyib hazırlamağa, ziddiyyətləri azaltmağa, yekun olaraq ixtilafı kompromislər əsasında çözməyə imkan verəcək: "Hər halda, bu, azərbaycanlılar və ermənilərin bir-birinə avtomat nişangahının kəsiyindən baxmasından daha yaxşıdır".

***

Rusiyalı şərhçinin fikirləri söz yox ki, ilk növbədə təmsil elədiyi dövlətin - Rusiyanın maraqlarından qaynaqlanır və xeyli dərəcədə subyektivdir, birtərəflidir. Ona görə ki, Qarabağ münaqişəsindən yararlanaraq Güney Qafqazda illəridr sabitsizlik yaradan, ixtilafın həllinə mane olan əsas qüvvə məhz Rusiyanın özüdür. Hər halda, 21 ildi əlində müstəsna imkanlar ola-ola Moskva konfliktin nizamlanmasına heç bir maraq göstərməyib, töhfə və dəstək verməyib. Belədirsə, bunu onun Avrasiya Birliyi çərçivəsində edəcəyinə yalnız sadəlövhlər inana bilər.

ABŞ-a gəlincə, indiyədək onun öhdəsində həll üçün Rusiya qədər imkan və rıçaq olmayıb ki, irad tutmaq mümkün olsun ki, onlardan Vaşinqton da sırf öz maraqları naminə faydalanmağa çalışır. Fakt budur ki, Birləşmiş Ştatlardan ötrü Qarabağ problemi prioritet olmasa da, münaqişənin yoluna qoyulmasına Ağ Ev vaxtaşırı praktik səylər göstərir, təkliflər irəli sürür. Prezidentlərin birbaşa görüş təklifi də ilk olaraq Minsk Qrupunun Birləşmiş Ştatlardan olan həmsədri Ceyms Uorlik tərəfindən səslənib və müdafiə olunmaqdadır.

**Bu arada isə ABŞ-ın dövlət katibi Con Kerri Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi ilə bağlı xarici ölkələrdəki diplomatlarına xüsusi tapşırıq verib. Məlumatı ABŞ-ın İrəvandakı səfiri Con Heffer jurnalistlərə açıqlaması zamanı verib. Səfir ATƏT-in Minsk Qrupunun fəaliyyəti çərçivəsində münaqişənin həlli ilə bağlı diplomatik missiyalarını davam etdirdiklərini vurğulayıb:** "Con Kerri bizə Qarabağ münaqişəsinin həllində sülh yolunu axtarıb tapmağı tapşırıb", - deyə o, qeyd edib.

Diplomat münaqişənin həlli ilə bağlı yaxın günlərdə Azərbaycan və Ermənistan prezidentlərinin görüşlərin baş tutmasına ümid etdiklərini də söyləyib. Qeyd edib ki, ATƏT həmsədrləri münaqişənin sülh yolu ilə həll edilməsi barədə qəbul etdikləri qərarın üzərində dururlar: "Münaqişənin həlli üçün tək yol sülh danışıqlarıdır".

***

Doğrudur, Qarabağa məsələsinə yanaşmada Qərbin, Birləşmiş Ştatların da ikili münasibəti hiss olunur. Ən azından, Vaşinqton Krımın birmənalı şəkildə Rusiya tərəfindən ilhaq edildiyini bildirib "Krımın işğalı ilə heç vaxt barışmayacağıq", - deyə bəyan eləsə də, analoji ədalətli münasibət Qarabağ məsələsinə yanaşmada özünü göstərmir; "Dağlıq Qarabağ da zəbt edilib" qismində bəyanatlar səslənmir, Ermənistan təcavüzkar ölkə kimi barmaqla göstərilmir. İrəvana qarşı sanksiyalar məsələsi isə ümumiyyətlə, heç vaxt gündəmdə olmayıb, yoxdur.

Əksinə, Krıma, onun əhlisinə cürbəcür embarqolar, qadağalar, maliyə sanksiyaları tətbiq edən ABŞ və Avropa separatçı Dağlıq Qarabağ rejiminə hər il maliyyə-humanitar yardımları edir, Azərbaycan konstitusiyasını tanımayan bir ovuc ermənini yaddan çıxarmır, problemin həll variantlarında onlara öz müqəddəratını təyinetmə haqqı tanıyan bənd pərçim eləməyə çalışır.

Bu mənada rusiyalı politoloqun xəbərdarlığında həqiqət payı da var. Bu o anlama gəlir ki, Azərbaycan əslində iki pisdən ən yaxşısını seçmək, eyni zamanda hər mənada güclənmək zorundadır.

## "Qarabağda yeni müharibə qaçılmazdır"

### **Erməni politoloq:** "Azərbaycan əlverişli bildiyi məqamların birində mütləq hərbi əməliyyatlara başlayacaq..."



**Qarabağa dair sülh danışıqlarının dalana dirənməsi istər-istəməz müharibə ehtimalını da artırıb. İndi bunu təkcə vasitəçi dövlətlər deyil, Ermənistanda da dərk edir, ixtilaf ətrafında yaranmış mövcud şərtlər fonunda yeni hərbi əməliyyatların mümkün nəticələrini hesablamağa çalışırlar.**

"Azərbaycan əlverişli bildiyi məqamların birində müharibəyə başlayacaq". Musavat.com-un məlumatına görə, bunu erməni KİV-ə müsahibəsində politoloq Ayk Martirosyan deyib. Onun qənaətincə, Bakının neft-qaz kəmərlərinə görə hərbi əməliyyatlara başlamayacağı haqda deyilənlər yalançı özünü sakitləşdirmə nəzəriyyəsindən savayı bir şey deyil. "Azərbaycanı müharibədən çəkindirən neft-qaz sektoru yox, zamandır. Nə vaxt ki, bu ölkə uğurlu momenti düzgün seçdiyinə, öz ordusunun hazırlığına əmin olacaq, müharibə mütləq başlayacaq. Müharibə əfsus ki, qaçılmazdır", - deyə o proqnoz edib.

Erməni politoloq pessimistcəsinə belə vəziyyətdə Ermənistanın qəliz durumla üzləşəcəyini də söyləyib: "Bizim vəzifəmiz odur ki, yeni hərbi qərarlar verə bilək, başqa zonalarda yeni mümkün müttəfiqlər tapaq, gəncliyi hazırlayaq, ermənilərin ruhunu qaldıraq. Bunlarsız yeganə təsəllimiz Azərbaycanda bir neçə buruğun yandırılması olacaq, öz ölkəmizdə isə - yanğın olacaq, hansını ki, söndürmək həddən ziyadə çətin olacaq".

Göründüyü kimi, ermənin açıqlamasında həm də Qərbə təhdid var. Martirosyan açıqca bildirir ki, Azərbaycan öz torpaqlarını silah gücünə azad eləməyə girişsə, erməni tərəf neft-qaz kəmərlərinə təhlükə yaradacaq.

# "20 Yanvar"dakı ticarət obyektləri söküldü

## Metrodan çıxarılan ticarətçilərə "Metro"da yer verildi








**İyulun 30-dan Bakı Metropoliteninin "20 Yanvar" stansiyasının keçidindəki ticarət obyektlərinin söküntüsünə start verilib. "Yeni Müsavat"ın məlumatına görə, stansiyanın əsas giriş-çıxışının qarşısında olan obyektlər sökülüb.**

Metrodakı ticarət köşklərində çalışanların sözlərinə görə, metropoliten rəhbərliyi 3 gün vaxt veribmiş. Müddət bitdiyindən "20 Yanvar" stansiyasındakı keçiddə olan ticarət obyektlərinin söküntüsünə başlanılıb. Ticarətçilərin sözlərinə görə, əlacsızlıqdan köşklərində olan malları dəyər-dəyməzə, topdansatış qiymətinə satmağa məcbur olublar. Bəzi ticarətçilər isə paytaxtdakı digər ticarət mərkəzi və bazarlara üz tutmağa məcbur olublar.

**"Bakı Metropoliteni" QSC-dən milli.az-a verilən məlumata görə, obyektlər bir neçə günə tamamilə yığışdırılacaq:** "Əslində söküntü işləri bir neçə gün öncədən başlamalı idi. Ancaq Ramazan bayramı ilə əlaqədar camaatı həmin gün çörəkpulundan etmək istəmədik. Gözlədik ki, bayram qurtarandan sonra obyektlərin söküntüsünə start verək. Obyektləri sökülən sakinlərin harada və necə işləməklərinə artıq biz cavabdeh deyilik. Stansiyanın girişindən çıxışınacan olan ərazidəki bütün obyektlər söküləcək. Gündüz insanların çoxluğundan sıxlıq olur deyə söküntü işləri gecə vaxtı olur. Ona görə də işlərimiz, ola bilsin, bir az ləngisin, ancaq ən geci sabaha qurtararıq".

Məlumat üçün bildirək ki, "20 Yanvar"dan köçürülən metro ticarətçiləri metronun "Neftçilər" stansiyasının yaxınlığında yeni açılan "Metro" ticarət mərkəzinə üz tutub. Yeni açılan ticarət mərkəzində satıcılara güzəştlə mağazalar verilib. Burada da satıcılardan 3 ay yer pulu alınmayacaq.

Qeyd edək ki, "Metro" ticarət mərkəzilərində hazırda 800-ə yaxın köşk fəaliyyət göstərir. Həmin köşklərdə əsasən metronun "Neftçilər", "Qara Qarayev", "Koroğlu", "Nərimanov", "Gənclik", "20 Yanvar" stansiyalarının keçidlərində ticarətlə məşğul olmuş sahibkarlar yerləşdiriliblər. Sahibkarlarla ilkin olaraq 3 aylıq müqavilə imzalanıb. Müqavilə başa çatdıqdan sonra mağazalar satışa çıxarılacaq.

Qeyd edək ki, "Metro" ticarət mərkəzi Bakı Şəhər İcra Hakimiyyətinin sərəncamı əsasında yaradılıb. Məqsəd isə Bakı Metropolitenində yerləşən ticarət köşklərinin sökülməsindən sonra orda çalışan ticarətçiləri yerləşdirmək olub. Bundan əvvəl isə metro stansiyalarda yerləşən köşklərinin sökülməsinə etiraz edən sahibkarlar kompensasiya tələbi ilə bir neçə dəfə Bakı Metropoliteninin qarşısında aksiya keçiriblər.

❑ **Fərahim İLQAROĞLU**
**Fotolar müəllifin və milli.az-ındır**


# Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**


# Zirzəmidə yaşayan ailənin dramı

## Günü 7 manata dolanan 7 nəfərdən ibarət ailə
















**Ramazan bayramı günlərində facebook sosial şəbəkəsində bir elan sürətlə yayıldı. Elanda 7 nəfərdən ibarət ailənin Köhnə Günəşli qəsəbəsi, General Mehmandarov küçəsi, bina 57 ünvanındakı zirzəmidə acınacaqlı durumda yaşadığı bildirilirdi.**

Həmin ailənin durumu ilə yaxından maraqlanmaq, eləcə də bayram təbriki etmək üçün qeyd olunan ünvana yollandıq.

Köhnə Günəşli qəsəbəsinin hər tərəfini dolaşsaq da, sakinlər General Mehmandarov küçəsində nə 57 saylı binanın olduğunu, nə də belə bir ailəni tanımadıqlarını söylədilər.

Nəhayət, ərazidəki polislərdən birinə müraciət edərək belə bir ailəni tanıyıb-tanımadıqlarını soruşduq. Beləcə, G.Mehmandarov küçəsində axtardığımız ailəni General Şıxlinski küçəsi, bina 59-da tapdıq.

9 mərtəbəli binanın sakinləri həmin ailənin yaşadığı yeri göstərərək binanın 11-ci blokunun küncündə açılan qapını nişan verdilər.

Qapı açıq idi, köhnə, rəngi saralmış pərdə asılmışdı. Pilləkənləri aşağı enərək, içəridə kiminsə olub-olmamasını xəbər aldıq.

Zirzəmiyə ayaq basar-basmaz adamı üfunət qoxusu vururdu. Burda nəinki yaşamaq, 10 dəqiqə də oturmaq olmaz.

Ailə ilə söhbət zamanı məlum oldu ki, 1967-ci ildə Bakıda dünyaya gələn Bibixanım Quliyeva həyat yoldaşı 1962-ci il təvəllüdlü Aleksandr Makarovla 1986-cı ildə ailə həyatı qurub.

**Uşaq evində böyümüş A.Makarovla B.Quliyevanı yaxınları tanış edib. B.Quliyevanın dediklərindən:**

"Mən o vaxt anamla kombinatda işləyirdim. Bir nəfər bizi tanış elədi. O vaxt evimiz-eşiyimiz var idi. Sonra problemlərimiz oldu, məcburən satdıq. Neçə il anamın yanında qaldıq. Sonra da qardaşım evləndi. Ev 2 otaq idi, biz də məcbur çıxdıq. Allah rəhmət eləsin, buranın əvvəlki "JEK" müdirinə, buranı o bizə verdi. "Uje" 7-8 ildir burda qalırıq".

**4 övlad sahibi olan B.Quliyevanın 2 nəvəsi də var. B.Quliyeva imkansızlıq ucbatından böyük qızı və oğlunun qohumlarıgildə yaşadığını dedi. 15 yaşlı oğlunun epilepsiya xəstəsi olduğunu deyən ana, ona belə heç bir yardım ala bilmədiyni söylədi:**

"Sosial yardım, heç nə vermirlər. Uşağım xəstədir, deyirlər ona pensiya düşmür. Özüm də görürsünüz, yerdə yatıram. Ayaqlarım işləmir. Heç yerdə işləyə bilmirəm. Hara gedirəm deyirlər, sabah gəl, birisigün gəl".

Bu ailənin büdcəsini A.Makarov təmin edir. "JEK"də çalışan Makarovun gündəlik qazancı 7 manatdır. Arada qonşular yardım edir.

**İki otaqlı zirzəmidə hər şey üst-üstə tökülmüşdü. Yeməyi də bir otaqda bişirir, yeyirlər. Yatmağa belə yer yoxdur. Digər otaq isə binanın boruları ilə əhatəli idi. Ordan isə həm ayaqyolu, həm də çimmək üçün istifadə etdiklərini dedilər. Soyuducularının, qaz peçlərinin olmadığını deyən ailə üzvləri bu illər ərzində çox ağır günlər yaşadıqlarını bildirdilər:**

"Elə günlər olub, balalarıma verməyə yemək tapmamışam. Qaçmışıq qonşunun qapısına. Eləsi olub açıb qapını, eləsi olub açmayıb. Ac günlərimiz çox olub".

**Vəziyyətləri ilə bağlı aidiyyəti qurumlara müraciət etdiklərini deyən ailənin ortancıl qızı belə cavab aldıqlarını bildirdi:**

"Yazmışdılar ki, bu zirzəmi qeydiyyatda deyil deyə, sizə yardım edə bilmərik".

Sonda redaksiya hesabına bayram bazarlığı edib ailə ilə bayramlaşıb, sağollaşdıq.

Blokun girişində qonşularla da söhbət etdik. 7-8 ildir bu ailənin belə ağır vəziyyətdə yaşadığını deyən qonşular imkanları olanda ailəyə pul verdiklərini söylədilər. Binanın həyətində yerləşən kiçik market sahibi də ailənin tez-tez nisyə ərzaq almaq üçün gəldiyini, ailəyə imkan daxilində yardımçı olduğunu söylədilər.

Ümid edirik, tezliklə bu ailəyə aidiyyəti qurumlar və imkanlı şəxslər tərəfindən yardım ediləcəkdir.

❑ **Fəridə ABDIYEVA**


## Elan

**Şamaxı şossesi, MEXKALON -23-də 140 kv metr, hamam tualeti içəridə olan 2 otaq və zalı, mətbəx mebeli, qarajla birlikdə kupçalı və təmirli ev satılır.**
**Qiyməti razılaşma yolu ilə.**
**Əlaqə telefonu: 055 - 211-78-41**






**İş adamı Hafiz Məmmədov (“Hafka”) Məmməd Araz (keçmiş Teymur Əliyev) küçəsində yerləşən villalarını satışa çıxarıb.**



# “Hafka” villasını satışa çıxardı

## Nazir oğlu Hafiz Məmmədovun ofisini ələ keçirib

Həmin ərazidə fəaliyyət göstərən ev dəllallarının axar.az-a verdiyi məlumata görə, Hafkanın bu ərazidə bir neçə villası var: “Hafiz Məmmədovun villaları böyük pəncərəsi və əksəriyyətinin həyətində qurulan yaşıl çardaqla seçilir. Həm də memarlıq baxımından bir-birinə bənzəyirlər. Ona görə də onları digər villalardan seçmək asandır” deyə, sayt yazır.

Villanın qarşısında dayanmış 10 MN 010 dövlət nömrə nişanlı “Porşe”nin Hafiz Məmmədovun ailəsinə aid olduğu da qeyd edilib.

Dəllallar bildirib ki, burada satışda olan villalar normal halda 2 milyon manatdan başlayır: “Hafkanın villalarının ən aşağı qiyməti isə 3 milyondur. Müəllimin burda daha bahalı villası da var”.

Yeri gəlmişkən, son aylar münasibətləri pisləşdiyi deyilən biznesmenlə nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədov arasında münasibətləri gərginləşdirəcək daha bir hadisə yaşanıb.


Hafiz Məmmədov

“Bank of Azerbaijan”ın baş ofisi “Hafka”ya məxsus “Bağlan Qrup” holdinqin Həsən Əliyev küçəsində yerləşən binasına köçüb.

Qeyd edək ki, buna qədər bankın baş ofisi şəhərin mərkəzində - H.Sarabski-657 ünvanında *(Nəsimi Prokurorluğunun yaxınlığı)* yerləşirdi.

Artıq bank Həsən Əliyev küçəsində yerləşən holdinqin binasında fəaliyyətini davam etdirəcək. İddia olunur ki, nazir oğlu ilə iş adamı arasında konflikt daha da dərinləşib və Anar Məmmədov “Bağlan Qrup”un Bakıdakı baş ofisinə sahiblənib.

Xatırladaq ki, A.Məmmədovla “Hafka”nın bir çox sahələrdə şərikli bizneslər vardı. Ancaq son vaxtlar şəriklərin münasibətlərinin gərginləşdiyi bildirilir; əvvəlcə bankı “Hafka”nın əlindən aldılar, daha sonra “Topaz” bukmeyker kontorlarında şərikli biznesə son qoyuldu.

# Rusiya Azərbaycandakı bank sədrini niyə dəyişdi?

## Bank VTB (Azərbaycan) ASC-nin Müşahidə Şurasının qərarı ilə Yuri Yakovlev İdarə Heyətinin sədri vəzifəsinə təyin olunub

**“Turan”ın məlumatına görə, yeni rəhbər öz vəzifələrinin icrasına 2014-cü ilin iyul ayından Azərbaycan Respublikasının Mərkəzi Bankında attestasiyadan keçdikdən sonra başlayıb. Yuri Yakovlev VTB Qrupunda 2006-cı ildən işləyir, 2011-ci ildən Nyu-Dehli şəhərində VTB bankın filialına başçılıq edib.**

VTB prezidenti - İdarə Heyəti sədrinin birinci müavini Vasiliy Titov deyib: “Yuriy Dmitriyeviç maliyyə sektorunda zəngin təcrübəyə malikdir. O, qarşıya qoyulmuş məsələlərin həllindən uğurla gəlmiş, Bank VTB-nin Hindistandakı filialının işinin səmərəliliyini təmin etmişdir. Biz əminik ki, onun rəhbərliyi altında Bank VTB (Azərbaycan) biznesin fəal inkişafını davam etdirəcək, əsas maliyyə göstəriciləri üzrə müsbət dinamikaya nail olacaqdır”.

Yakovlev Yuri Dmitriyeviç 1957-ci ildə anadan olub. Ali təhsillidir *(Rusiya Federasiyası XİN-in Diplomatiya Akademiyasının məzunudur)* və iqtisadiyyat üzrə elmləri namizədi elmi dərəcəsinə sahibdir. Beynəlxalq ticari-iqtisadi münasibətlər sahəsində nüfuzlu mütəxəssisdir. Y.Yakovlev əmək fəaliyyətinə 1978-ci ildə başlayıb. 1980-ci ildən 2003-cü ilədək o, SSRİ Mədəniyyət Nazirliyində, RF-nin Xarici İqtisadi Əlaqələr Nazirliyində, həmçinin RF-nin Xarici İşlər Nazirliyində müxtəlif vəzifələrdə, o cümlədən rəhbər vəzifələrdə çalışıb. Cənubi Asiya ölkələrində bir sıra iri həcmli beynəlxalq investisiya layihələrinin hazırlanması və gerçəkləşməsində iştirak edib. Eyni zamanda Y.Yakovlev kredit təşkilatlarında böyük iş təcrübəsinə malikdir. Belə ki, 2003-cü ildən və 2006-cı ildə VTB-yə keçənədək o, İnvestisiya Kommersiya Bankı “Russkiy İnvestisionniy Alyans” MMC-də Xarici ticarət əməliyyatları və müxbir münasibətləri idarəsinin rəisi və sonradan İdarə Heyəti sədrinin müşaviri vəzifəsində çalışıb.


Yuri Yakovlev

Bank VTB (Azərbaycan) ASC Bank VTB ASC-nin törəmə bankıdır. Bank VTB (Azərbaycan) ASC-nin səhmdarları Bank VTB ASC və “AtaHolding” ASC-dir. Bank VTB (Azərbaycan) ASC korporativ biznes, kiçik biznes və fərdi müştərilərə xidmətlər göstərir. Bu gün bank 6 filial və baş ofisdə yerləşən müştəri xidmətləri idarəsi ilə təmsil olunub.

Virtualaz.org xatırladır ki, ABŞ bu yaxınlarda Rusiyanın bir sıra banklarına, o cümlədən Azərbaycanda filialı olan Bank VTB-yə qarşı sanksiyalar tətbiq edib. Düzdür, Bank VTB (Azərbaycan) bu sanksiyanın onun fəaliyyətinə hər hansı şəkildə təsir edəcəyi barədə iddiaları qəbul etmir. Amma ekspertlər başqa fikirdədirlər...

# Müharibə Vahid Ələkbərovun biznesini vurdu

**Azərbaycanlı biznesmen, Vahid Ələkbərovun prezidenti olduğu “LUKoil” şirkəti Ukraynadakı pərakəndə biznes şəbəkəsini satmağa qərar verib.**


Vahid Ələkbərov




Modern.az saytı xəbər verir ki, “LUKoil” bu barədə Avstriyanın “AMIC Energy Management GmbH” şirkəti ilə anlaşıb.

“LUKoil”in satışa çıxardığı obyektlərə 240 yanacaqdoldurma məntəqəsi və 6 neft bazası aiddir. Şirkətin yaydığı məlumata görə, danışıqların təşəbbüskarı Avstriyadır.

Lakin iki şirkət arasında imzalanan sazişin maliyyə tərəfləri və təfərrüatları açıqlanmır.

# Türmədən dustaq çıxaranın tutulması

Samir SARI

**Hamı bilirdi ki, cinayət işi açılıb, Leyla Yunusu istintaqa cəlb ediblər, sorğu-saul edirlər, köməkçisini axtarırlar, ərini hədələyirlər, bank hesabını dondurublar, özünü izləyirlər, amma yenə də heç kəs inanmırdı ki, onu tutarlar.**

Bir çoxları söz düşəndə deyirdilər ki, onu yekə yerdən tapşırıblar, Fransa prezidenti Olland Əliyevə ağız açıb, ona görə də, xanım Yunusu bir az qorxudacaqlar, incidəcəklər, amma tutmayacaqlar.

Al, sana Ollandın tapşırığı, hollandların dəstəyi... xanım artıq həbsdədir.

Yox, ölkə ictimaiyyəti bu xəbərdən şoka düşmədi. Allah tərəfi, başqa vaxt yel vurub hansısa müğənninin rübəndini atması və bədəninin bir yanının görsənməsi halını xəbər edən, xəbəri “Şok! Şok! Şok!” başlığı ilə verən saytlar da ölkənin bir nömrəli hüquq müdafiəçisinin, xalq hərəkatının ilk liderlərindən birinin həbs olunmasını “şok xəbər” kimi vermədilər. Ümumiyyətlə, bu xəbər ölkədə faciə kimi qarşılanmadı. Çünki biz belə həbsləri çox görmüşük.

Amma beynəlxalq təşkilatlar ya doğrudan da şoka düşüblər, ya da özlərini şoka düşmüş kimi aparırlar. Hələ bilmək olmaz, prezident Olland nə günə düşüb. Bu saat hamısı sərt bəyanat hazırlayır. Gözləmirmişlər. Elə bilirmişlər, bizim ölkəmizdə də hər şeyin bir əndazəsi var, siyasiləri, gəncləri tutmaq olar, amma hüquq müdafiəçilərini olmaz.

Əlbəttə, soyuqqanlı avropalılar bizim nə dərəcədə hirsli olduğumuzu, “nervilənəndə” qəti qərarlar vermək qabiliyyətimiz bilmirlər. Bilsələr, bu cür haqq-hesablar baş verəndə şoka düşməzlər, başa düşərlər, bilərlər ki, bizim xasiyyətimiz bu cürdür, şəxsimizlə söz güləşdirilməsini sevmirik, biri sözümüzün qabağında söz deyəndə, haqq-ədalətdən danışanda hiddətlənirik. Axırı da belə olur.

İctimai-siyasi fəallarımız isə, maşallah, daha aktivdirlər, hər bir həbs xəbərinə anındaca reaksiya verdikləri kimi, Leyla Yunusun da həbsinə operativ təpki verməkdədirlər.

Bir xanım sosial şəbəkədə yazır: “Leyla Yunusu həbs etdiyinə görə hakimiyyəti qınayıram...” Qeydin burasına qədər oxuyursan və avtomatik olaraq beynində bu cür cəsarətli, obyektiv vətəndaş mövqeyi sərgiləyən şəxs barədə minnətdarlıq duyğuları oyanır və dərindən nəfəs alaraq, statusun mabədinə baxırsan və görürsən ki, xanım fikrini bu cür bitirib: “Yox, ona görə yox, ona görə ki, onu həbs etməyi gecikdirib”.

Afərin! Heç demə, hakimiyyət Leyla Yunusu daha öncələr, məsələn, 1998-də, 2008-də, heç olmasa cari ilin əvvəlində həbs etsəymiş, daha çox savab qazanarmış. Bu cür obyektiv və operativ vətəndaş mövqeyi sərgiləyənlərin sayəsində biz əvvəl-axır xoşbəxt olacağıq, görərsiniz. Nazim Hikmət demişkən, gözəl günlər görəcəyik, cocuqlar. Daha dəqiqi, görəcəksiniz, biz gördüyümüzü görmüşük.

Başqa biri isə həbs xəbərinin altına şərh yazıb göndərib: “O anası ermənini düz eləyib tutublar”.

Demək, bu yarlıq az qala L.Yunusun vikipedisinə də yazılacaq. Budur, xanım 25 ildir anasının erməni olmadığını ha sübut edirsə, xeyri olmur, hər dəfə yeni bir dalğa gəlir. Birincisi, heç kəsi anasının erməni olmasına görə tutmaq olmaz, ona görə ki, adamın anası ermənidirsə, atası da azərbaycanlıdır. İkincisi, konstitusiyamızda “anaları bizimlə müharibə vəziyyətində olan xalqın nümayəndəsi olan insanların toxunulmazlıq hüququ məhdudlaşdırılır” qeydi yoxdur. Hətta belə bir cinayət növü (bir qrup şəxslə əvvəlcədən əlbir olaraq anasının erməni olmasından sui-istifadəyə görə) Cinayət Məcəlləsində də yoxdur. Üçüncüsü, anası, arvadı, sevgilisi erməni millətindən olmağa qalsa... onda gərək Qasım kişi danışmasın, çünki onun da dilini gödək eləyən şeylər var (“Qatarda” tamaşasından).

Yazının sonunda Leyla Yunusla bağlı bir gülməcənin də yeri gəlir. Deyilənə görə, bir gün Yaşar Türkəzər dünyaca ünlü və mübariz qadınlar barədə danışarkən deyib: “Adamın arvadı olanda da Benəzir Bhutto, Tansu Çillər, Marqaret Tetçer, heç olmasa, Leyla Yunus kimi arvadı ola...”

Yaşar belə deyərkən, onu nəzərdə tutub ki, bu cür güclü qadınlar məşhur dekabristlərin xanımları kimi yeri gəlsə Sibirə də gedə bilərlər. İndi Arif Yunus o güclü qadınlardan biri olan, türmədən “n” qədər dustaq çıxaran Leyla Yunusa sovqat aparacaq.



YENİ MÜSAVAT
N 192 (5900) 1 avqust 2014




Cümə söhbətləri

**Bismillahir-Rahmənir-Rahim! Mübarək Ramazan ayı ilə vidalaşdıq. Bağışlanmamız üçün yaradılmış fürsətlərdən, imkanlardan necə istifadə etdik? İlahi ziyafətdən öz payımızı götürə bildikmi? Günün sualları budur.**

# İlahi ziyafətdən payımızı götürə bildikmi?

## Ramazan ayı ilə vidalaşarkən salam deyirik

Ramazan ayının son anlarının özünəməxsus xüsusi əməlləri, çalarları mövcuddur. Ayla vidaşalmaqla bağlı İmam Səccaddan (ə) xüsusi bir dua buyurulub. Diqqət cəlb edən məsələlərdən biri bundan ibarətdir ki, biz bu duada mübarək aya iyirmi üç dəfə salam veririk. Yəni həmin mübarək vidalaşmaq duasında aya iyirmi üç dəfə salam verilir. Dəyərli İslam araşdırmaçıları mübarək aya bitəndə salam verilməsi ilə bağlı çox önəmli bir sual ortalığa qoyur. Hamıya məlumdur ki, salam adətən əvvəldə verilər, başlanğıcda verilər. Bəs bu, nə məsələdir?

## Namazın sonunda salamın deyilməsinin hikməti

Böyük İslam alimləri namazın salamı ilə bağlı da bir mühüm nöqtəyə toxunur. Biz salamı namazın sonunda veririk. Namazda da salam axırda verilir. Namazda salamın axırda verilməsi ilə bağlı çox maraqlı bir izah mövcuddur. Bir mömin namaza başladığı zaman, Allahı zikr etməklə məşğul olmağa başlanğıc verir. Bu zaman həmin mömin İlahi cəhət tapır. Bu dünyadan və onun içindəkilərindən qırılır. Namazın mahiyyəti ondan ibarətdir ki, insan gərək Allahı zikr etməklə məşğul olsun. Namaz - Allahla rabitənin, Allahla bağlantının ortalığa gəlməsidir. Və əgər biz, namaz zamanı Allahla bağlantı tapsaq, bütün ruhiyyəmiz İlahi cəhət tapar.

Namazın sonunda insan o zaman ki, Allahla rabitəni başa vurur və yenidən bu dünyaya geriyə qayıdır, bu dünyaya daxil olmanın başlanğıcında salam deyir. Yəni, bizim namazın yekununda verdiyimiz salam - namaz vaxtı qalxdığımız İlahi mələkut yüksəlişindən qayıdışımızın bildiricisidir. Namazın sonunda dediyimiz salam - bizim yenidən dünyaya qayıtmağımızın bildiricisidir. Namazı yekunlaşdırıqdan sonra biz maddi dünyaya qayıdırıq və bu, maddi dünyanın başlanğıcıdır. Başlanğıc, əvvəl olduğu üçün salam veririk. Əslində insan namazdan sonra maddi dünyaya enişində, maddi dünyaya daxil olarkən salam deyir.



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

Salam özü - Allahın adlarından biridir. Namazda biz yuxarı qalxırıq, səfər gedirik, yüksəlirik. Əgər təbii ki, həmin namazı namaz olaraq qılsaq, Rəbbimizə doğru uçuşumuz olar. Bu halda biz maddi dünyadan qırılırıq. Və yenidən həmin dünyaya qayıdanda, maddi dünyanın başlanğıcında Allahın həmin o adını - salamı deyirik.

## Ramazan ayından sonrakı eniş

Bəs Ramazan ayı ilə vidalaşan zaman İmam Səccaddan (ə) buyurulan duadakı salam nədir? Namazla bağlı aydınlıqdan ilhamlanan İslam araşdırmaçıları bildirirlər ki, necə ki, insan namazda maddi dünyadan qırılmışdı, mübarək Ramazan ayında da insan mənən yuxarı qalxmışdı, mələkutə yüksəlmişdi. Necə ki, namazdan sonra maddi aləmə qayıdırıq, eləcə də Ramazan ayından sonra biz rəmzi olaraq yerə enirik, maddi dünyanın süfrələrinə enirik, bu dünyanın həyatına enirik. Bu eniş o qədər ciddi bir vəziyyət yaradır ki, həmin enişimizi duada keçən iyirmi üç salamla qeyd edirik. Bir aylıq mənəvi aləmə uçuşumuzdan sonra yenidən maddi aləmə enməmizi əslində həmin salamlarla əlamətləndiririk.

Mübarək ayı artıq geridə qoymuşuq. İmam Səccadin (ə) duasında həmin çox mübarək salamlar var. Hər bir salamın özünəməxsus dərin fəlsəfi mənaları mövcuddur. Vidada toxunulan yalnız bəzi salamlara toxumaqla da, bəlkə onların mahiyyətini anlamaq olar. Hansı ay ilə xüdafizləşməyimizi bilmək üçün həmin salamlara diqqət etmək çox zəruridir.

## Hansı ayla vidalaşırıq?

“Ey Allahın ən böyük ayı, ey haqq aşiqlərinin bayramı salam olsun sənə!”. Mübarək Ramazan ayı - Allahın ən böyük ayıdır. O böyük aydan bu maddi yaşayışın içinə enin zaman biz onu xatırlayırıq. Onu xatırlayan biz bu dünyaya başlanğıcımızı edirik. Ey haqq aşiqlərinin bayramı! Bu ay - Allahın ən böyük ayıdır və haqq aşiqlərinin bayramıdır. Yəni, biz belə bir fürsətlərdən istifadə imkanından artıq qeyri-ixtiyari məhrum oluruq.

**“Ey vaxtlar içərisində ən kəramətli, həmneşin. Ey günlər və saatlar arsında ən üstün ay, salam olsun sənə!”** Vaxtlar içərisində ən kəramətli, oturub-durulası aydır Ramazan ayı. Bu ayın günləri - ən dəyərli günlərdir, saatları - ən dəyərli saatlardır. Hər anı İlahi tofiqatlarla zəngin bir aydır Ramazan ayı.

**“Ey məqamı böyük olan həmnəfəs, ayrılığın çox ağır olan ay, salam olsun sənə!”** Mübarək Ramazan ayı məqamı böyük olan həmnəfəs idi. Biz bir ay ərzində onunla birgə nəfəs aldıq, onunla birgə yaşadıq, həmahəng olduq, ona uyğun şəkildə halımızı tənzimləmək istədik. Bu ayın ayrılığı çox ağırdır. Bu xüsusiyyətlərini qeyd edərək Ramazan ayına salam verməliyik və əslində onunla vidalaşmalıyıq. Hansı ayla vidalaşdığımızı, hansı ayın başa çatdığını bilməliyik.

**“Ey qəlblər sənin yanında yumşalan, günahlar səndə azalan ay, salam olsun sənə!”** Bu, bir ay idi ki, qəlblər onun yanında yumşalardı. Çünki, elə bir qonşudur ki, onunla qonşuluq hesabına insanın qəlbi yumşalar. Günahları yandıran bir aydır Ramazan ayı. Məğfirət və bağışlanmaqla dolu olan aydır mübarək Ramazan ayı. Məhz buna görə də, vidalaşarkən xatırlayırıq ki, bu ayda günahlarımız azalardı.

## Bu ayda azad olanlar

**“Ey şeytanla (lən) mübarizədə bizə yardımçı olan, ehsan yollarını hamarlaşdıran və asanlaşdıran ay, salam olsun sənə!”** Mübarək Ramazan ayında şeytan (lən) zəncirlənmişdi. Bütün ay ərzində böyük gözlənti ilə gözləyirdi ki, ay bitsin, bu bir ayda imkanları nə qədər məhdud olubsa, indi gəlib bütün “qabiliyyətləri” ilə əlindən gələn mərdimazarlığı etsin. Əlindən gələni etsin ki, insanlar bu ayın içərisində qazandları ruhiyyədən qırılsınlar. Əldə etdikləri mənəvi durumları itirsinlər. Amma bu ayda şeytanla (lən) mübarizə aparmağımız üçün çox gözəl bir imkan var idi. İmkan var idi ki, içimizdə olan onun müttəfiqlərini yox edək, içimizdə ona tərəf yönələ bilən hər bir elementi nəzarətə götürək. Ramazan ayı başdan-başa ehsanlar etmək imkanı ilə zəngin idi. Rəbbimiz həm bizlərin ehsan etməsi üçün imkanlar yaradır, həm də Özü bizlərə ehsan edirdi.

**“Allah tərəfindən səndə azad olanlar nə çoxdur! Nə xoşbəxtdir o kəs ki, hörmətinə riayət etdi, salam olsun sənə!”** Ramazan ayı bir aydır ki, bu ayda cəhənnəm atəşindən azad olmaq imkanımız var. Ramazan ayının sonlarında bu imkan xüsusilə çoxalar. Əgər Ramazan ayının hörmətini saxlaya biləriksə, onun mahiyyətinə uyğun özümüzü apara biləriksə, bu qurtuluş bizə nəsib olar.

**“Çoxlu gümanlarımızı əməl dəftərimizdən yuyub, çoxlu eyblərimizi örtən ay, salam olsun sənə!”** O qədər günahlarımız var ki, bu ayda əməl dəftərlərimizdən silinib. Bu ayda o qədər eyblərimiz var ki, Rəbbimiz onları örtüb. Bu ay - eyblərin örtülməsi, günahların əməl dəftərindən silinməsi ayı idi. Belə bir ayla vidalaşdıq...

## Ayı qəm-qüssə ilə yola salırıq

**“Heç bir zamanların onunla müqayisə oluna bilmədiyi ay, salam olsun sənə!”** Belə bir mübarək ayla sağollaşırıq.

**“Bərəkəti ilə bizə gəlib, günahlarımızın, pisliklərimizi əməl dəftərindən silən ay, salam olsun sənə! Gəlməzdən öncə intizarında olduğumuz, getdiyindən sonra hicranından qəm-qüssəsində olduğumuz ay, salam olsun sənə!”** Gəlməmişdən bu ayın arzusunda olarıq, səbirsizliklə gözləyərik ki, tez gəlsin. Gedən zaman qəm-qüssəli olaraq ki, bu boyda fürsətlər imkanını itiririk. Və ayın bu xüsusiyyətlərini yada salaraq, salam veririk.

İmam Səccaddan (ə) olan bu mübarək duada iyirmi üç dəfəyədək salam veririk mübarək aya. Bu və ya digər xüsusiyyətlər yada salınır və vidalaşılır. Həm də İlahi ziyafətdən maddi dünyaya qayıdışımızın başlanğıcında salam deyirik. On yeddi saat və ondan çox İlahi ziyafətdə idik, indi isə əksinə, o fürsətimiz əldən gedir, dünyanın ziyafətlərinə qayıdırıq. Dünyanın bizlər üçün yaratdığı “rəngarəng” imkanlara qayıdırıq.

## Qiyamət günü ilə oxşarlıq

Həzrət Əmirəlmömininin Əli (ə) Fitr bayramlarından birində söylədiyi xütbədə buyurdu: **“Ey camaat! Sizin bu gününüz elə bir gündür ki, yaxşı əməl sahibləri onda mükafat alırlar, ziyankarlar, pis əməl sahibləri onda məyus və ümidsiz olurlar. Və bunun Qiyamət gününə çox oxşarlığı var. Bəs öz mənzillərinizdən çıxıb və bayram namazına yollanmaqla xatırlayın qəbirlərdən çıxmaqlığınızı və Rəbbinizə tərəf getməyinizi. Namaz qıldığınız zaman Allah Təala qarşısında necə duracağınızı və evinizə dönən zaman cənnətdəki evlərinizə qayıtmağınızı yadınıza salın.**

**Ey Allah bəndələri! Ən az şey ki, oruc tutan qadın və kişilərə veriləcək, budur ki, bir mələk Ramazan ayının axırıncı günü onlara nida edər və buyurar: “Bəşarətiniz olsun, xoş xəbəriniz olsun! Ey Allahın bəndələri ki, keçmiş günahları bağışlanmış oldu. Bəs öz gələcəyinizin fikrində və əndişəsində olun ki, qalan günləri necə başa vuracaqsınız””.**

Fitr bayramı elə bir gündür ki, mübarək Ramazan ayında oruc tutanlar, ibadət edənlər mükafatlarının bir hissəsini həmin gündə alarlar. Bir ay Allah dərgahında bəndəlik edənlər, İlahi ziyafətdə olanlar vəd edilən mükafatlarını Fitr bayramında alarlar. Ramazan ayına məhəl qoymayan, öz çirkin əməllərini bu ayda da davam etdirənlər həmin gün məyus və ümidsiz olarlar. Fitr bayramında yaxşı əməl sahiblərinin mükafat alması, pis əməl sahiblərinin isə məyus olması Qiyamət günü ilə müqayisə olunur. Həmin hadisə Qiyamət gününə çox oxşayır.

## Bağışlanmaq ayı

Mübarək Ramazan ayı bağışlanmaq ayı idi. Bu ayda bağışlanmaq imkanı o qədər geniş idi ki, Məsumlarımızdan (ə) buyurulan hədislərdə bu ayda özünü bağışlanmağa layiq ola bilməyən insan, uğursuz adam kimi adlanır. Rəvayət olunur ki, **“Mübarək Ramazan ayında hər günün axırında iftar vaxtında Allah Təala min-min kəsi cəhənnəm atəşindən azad edir. Elə ki, cümə gecəsi və cümə günü olur, hər saatında min-min kəsi cəhənnəm atəşindən azad edir. Ayın sonuncu gününün gecəsində və özündə o qədər kəsi ki, cəhənnəm atəşindən azad etmişdi, o miqdarda da həmin gün azad edər”** Mübarək ayın hər günündə bağışlanmaq üçün imkanlar, fürsətlər var idi. Bundan başqa, Ramazan ayının cümə günlərində hər saat bağışlanmaq üçün imkan olur. Mübarək ayın sonuncu günündə isə bütün ay boyunca bağışlananlar qədər insan bağışlanar və cəhənnəm atəşindən qurtular.

## Orucun səbəbi

Mübarək Qurani-Kərimin “Bəqərə” surəsinin 183-cü ayəsində görürük ki, Allah Təala tərəfindən bizlərə açıq-aydın bir əmr var: **“Ey iman gətirənlər! Sizlər üçün oruc yazıldı və qərar verildi, necə ki, sizlərdən öncəkilərə vacib yazılmışdı. Ola bilsin ki, təqvalı olasınız”.** Allah Təala aydın bir işarə ilə orucun vacib olmasının səbəbini açıqlayır - bizlər təqvaya yetişək. Təqva - insanın özünü nəzarətdə saxlamasıdır. Təqvalı insan günah edə bilər, amma bunu etmir. Təqva - əqlin və iradənin sayəsində formalaşan mənəvi immunitetdir ki, insan onunla iradəvi surətdə günahlardan çəkinir. Bəzi insanlar var ki, onlar onsuz da müəyyən günahları edə bilmir. Bu insana təqvalı insan deyilməz. Amma bir insan da var ki, onun günah etməyə gücü çatır, amma etmir. İradəvi surətdə günahlardan çəkinmək təqva adlanır. Mübarək Ramazan ayında Rəbbimiz oruc tutmağımızın səbəbini onunla açıqlayır ki, bizlər oruc tutmaqla təqvaya çata bilərik.

Allahım, bizləri bu aydan bağışlanmış halda çıxar! Allahım, bizləri bu aydan çıxan zaman təqva əldə edənlərdən qərar ver! Allahım, bu aydan sonra da Sənin nəzarətində olmağı, Sənə bəndə olmağı bizlərə nəsib et! Amin!

YENİ MÜSAVAT
N 192 (5901) 1 avqust 2014

# Yolu məhbəsə düşən məşhur qadınlar...

## Onların arasında “quşların azadlığına həsəd aparıram” deyənlər də olub

**Sülh və Demokratiya İnstitutunun direktoru Leyla Yunusun 3 ay müddətinə azadlıqdan məhrum edilməsi xəbəri Azərbaycanın ictimai-siyasi gündəmində əsas yer tutur. “Bu hakimiyyət qadınları tutmaz” tipli stereotiplər isə öz qüvvəsini çoxdan itirib. Artıq çoxdandır Azərbaycanda bu “buz” qırılıb. Hakimiyyət siyasi kimliyini, etdiyi “siyasi səhvləri” əsas götürüb, tanınmış qadınları türməyə göndərib.**

**Hələ 2002-ci ildə də o vaxtkı ADP fəalları Zəminə Dünyamalıyeva və Solmaz Ələsgərova da həbs olunmuşdu. Bir təxribat planının qurbanı olan siyasətçi xanımlar 6 sutka həbs cəzasına məhkum edilmişdi. Z.Dünyamalıyeva daha öncə əməkdaşımızla söhbətində bu həbsinin detallarını belə xatırlatmışdı:** “Həmin vaxt prezident seçkilərinə hazırlıq ili idi və cəmiyyətdə aktivlik vardı. Aprelin 22-də isə ümumi müxalifətin qadın mitinqi oldu. Xatırlayıram ki, səhər iki qadını arxamızca saldılar. Öyrədilmiş bu qadınlar başladılar ki, bizim gül kimi cəmiyyətimiz var, bizdən nə istəyirsiz? Bu qadınlar hətta bizə əl qaldırdılar. Həmin anda da hardansa öyrədilmiş polislər çıxdı və guya asayişi pozmaq adıyla bizi həbs etdilər. 6 sutka həbsdə qaldıq”.


Zəminə Dünyamalıyeva



Nigar Yaqublu


Gülər Əhmədova


Şəmsiyyə Bəylərqızı

**Müsavat Partiyasının gənc fəalı Nigar Yaqublu** da yolu həbsxanadan keçən müxalifətçi xanımlardan olub. Onu da 2012-ci ilin sentyabr ayında talesiz yol qəzasına görə həbs ediblər. 2013-cü ilin 19 dekabrında Abşeron Rayon Məhkəməsi onun barəsində 2.5 il azadlıqdan məhrumetmə cəzası verib. Elə həmin ilin 3 martında N.Yaqublu məntəqə tipli cəzaçəkmə müəssisəsinə köçürülüb.

**Gənc fəal son söz çıxışında həbsi ilə bağlı aşağıdakıları demişdi:** “Heç bir xanıma, qıza həbsxananı arzulamaram. Heç kimin qoluna qandal vurulmasını istəmərəm. Arzulamaram ki, dəmir qapılar onun üzünə çırpılaraq örtülsün, dəmir qapının balaca pəncərəsindən əyilərək baxsınlar...”

Son illər Azərbaycanda baş verən siyasi həbslərdən ən qalmaqallısı isə heç şübhəsiz sabiq deputat Gülər Əhmədova oldu. 2013-cü il fevralın 13-də həbs edilən sabiq deputat barəsində 3 il azadlıqdan məhrumetmə cəzası verilsə də, 2014-cü ilin 5 may tarixində Apelyasiya Məhkəməsi həbs qərarını şərti cəza ilə əvəzlədi.

**Həbsdə olduğu zaman G.Əhmədovanın verdiyi geniş müsahibələrdən birində türmə həyatı ilə bağlı ilginc fikirlər yer alırdı:** “Mətbuatda yazıldığı kimi, burada lüks şəraitim yoxdur. Televizorum, telefonum da yoxdur. Su sarıdan çox korluq çəkirəm. İsti su həftədə iki dəfə olur. Soyuq su da böyük fasilələrlə verilir. Hərəkətsizlik ucbatından ciddi problemlərim yaranıb, ürək-damar sistemində olan ağrılardan ciddi əziyyət çəkirəm. Mənim bu günümə həsəd aparanlara Allah qismət eləsin. Günümü namaz qılmaqla, mütaliə etməklə keçirirəm. Həbsxana insanı çox dəyişir. Mənim qaldığım kameradan azca səma görünür. Nə ağacları, nə otları görə bilirəm. Kameradan görünən hissədə, damda barmaqlıqlar arasında bir quş yuvası var. Hələ indiyə kimi quşları bu qədər seyr etməmişdim. Onların azadlığına həsəd aparıram. Kimsə həbsxanaya düşübsə, heç vaxt kiminsə günahsız yerə bura düşməsinə razı olmaz. Kamera sanki insanı qəbir həyatına hazırlayır. Başqa heç nə ilə müqayisə etmək mümkün deyil. İnsan azadlıqda olarkən kiminsə həbsə düşməsini sıradan bir iş kimi qarşılayır. Lakin bu amansız həqiqətlə üzləşərkən azadlığın nə olduğunu başa düşürsən. Qadın üçün həbsdə olmaq yüz qat əzabdır. Dözmək mümkün deyil. Bəlkə də Allaha, haqqa olan inamıma görə hələ də yaşayıram”.

Azərbaycan tarixində türmədə dünyasını dəyişən siyasi məhbus qadın da olub. Bu, ADP fəalı Faina Kunqurova idi. 2007-ci ilin oktyabrında polis onu tam aydın olmayan səbəblərdən saxlayıb. Yaxınlarının bildirdiyinə görə, polis onu guya şübhəli şəkildə dövlət başçısının korteji keçən yolun yaxınlığında dayandığına görə saxlayıb. Çantasına baxış zamanı polis oradan parlamentin sabiq spikeri və Demokrat Partiyasının o zamankı lideri Rəsul Quliyevin şəklini tapıb. Bu da Kunqurovanın saxlanmasına əsl səbəb olub. Bundan sonra isə onu narkotik saxlamaqda ittiham ediblər.

2007-ci ilin 26 noyabrında türmədə dünyasını dəyişən Kunqurovanın qəfil vəfatının səbəbi məlum olmayıb. Qohumlarına isə onun ölüm səbəbini 4 gündən sonra bildiriblər. Qeyri-rəsmi məlumatlara görə, onun ölümünə səbəb aclıqdan orqanizminin həddindən çox zəifləməsi olub, amma qohumları ona daim yemək ötürdüklərini bildirirlər. Kunqurova siyasi məhbus idi. İlk dəfə onu 2002-ci ildə xuliqanlıq ittihamı ilə həbs ediblər. Lakin həbsə əsas səbəb Kunqurovanın Rəsul Quliyevin müdafiəsi üçün keçirilən kütləvi aksiyalarda fəal iştirakı olub. İki il sonra, 2004-cü il mayın 10-da Kunqurova beynəlxalq ictimaiyyətin və xüsusən Avropa Şurasının çoxsaylı və inadcıl tələblərindən sonra əfv olunub.

Mərhumun azyaşlı uşağı var idi.

Tanınmış məhbuslar arasında İranın Azərbaycandakı sabiq səfiri Əfşar Süleymaninin keçmiş həyat yoldaşı Şəmsiyyə Bəylərqızının da adı var. Son olaraq 2014-cü ilin 11 iyununda Sabunçu Rayon Məhkəməsində həbsxanaya qanunsuz əşya keçirməkdə günahkar bilinən Şəmsiyyə Bəylərqızının işi üzrə məhkəmə keçirilib və onun həbs müddəti artırılıb. Ş.Bəylərqızı Əfşar Süleymaninin 741 min ABŞ dolları məbləğində pulunu mənimsəyib. Bundan əlavə, cinayət işi üzrə daha bir neçə zərərçəkmişin də olduğu qeyd edilib.

İranın Azərbaycandakı keçmiş səfiri Əfşar Süleymaninin şikayəti əsasında Şəmsiyyə Bəylərqızı Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə ittiham edilib. O, sabiq İran səfiri ilə ailə qurduğunu və ondan oğlu olduğunu bildirsə də, Əfşar Süleymani qadının onun etimadından istifadə edərək pulunu mənimsədiyini iddia edir. Şəmsiyyə Bəylərqızı Əfşar Süleymaninin şikayəti əsasında Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi tərəfindən tutulub.

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 10 il müddətinə azadlıqdan məhrum edilən Şəmsiyyə Bəylərqızı saxlanıldığı Bakı istintaq təcridxanasında qanunsuz əşya saxlayıb. Onun saxlanıldığı kameraya Penitensiar Xidmətin əməkdaşları baxış keçirib. Baxış zamanı kameradan Şəmsiyyə Bəylərqızına məxsus mobil telefon və digər əşyalar tapılıb.

Buna görə də Şəmsiyyə Bəylərqızının barəsində Cinayət Məcəlləsinin 317-2.2-ci (Cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxs tərəfindən qadağan olunmuş əşyaların hazırlanması, saxlanılması, gəzdirilməsi, daşınması və ya istifadəsi) maddəsi ilə ittiham verilib. Sabunçu Rayon Məhkəməsinin hökmü ilə Şəmsiyyə Bəylərqızı 1 il müddətinə azadlıqdan məhrum edilib. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü də birləşdirilərək, Şəmsiyyə Bəylərqızını barəsində 11 il müddətinə azadlıqdan məhrum etmə cəzası saxlanılıb.

Dünya tarixi də qadın siyasi məhbuslardan xali deyil. Onlardan ən yaddaqalan, parlaq sima Ukraynanın sabiq baş naziri Yuliya Timoşenko olub. O, ilk dəfə 2001-ci ildə Lukyanovskda 42 gün müddətinə həbs edilib. 2011-ci ilin 11 oktyabrında isə 7 il müddətinə azadlıqdan məhrum edilib. Timoşenko hökumətə başçılıq etdiyi vaxt dövlət əmlakını mənimsəməkdə, vəzifə səlahiyyətlərini aşmaqda və sair cinayətlərdə ittiham olunurdu. Y.Timoşenko hazırda azadlıqdadır.

❑ **Sevinc TELMANQIZI**

# Hüquq müdafiəçisinin məhkəməsi başladı

## Emil Məmmədov ev dustaqlığına buraxılmadı

**Lənkəran Ağır Cinayətlər Məhkəməsində hakim Mehdixan Abdullayevin sədrliyi ilə hüquq müdafiəçisi Emil Məmmədov və Tofiq Qasımovun cinayət işi üzrə məhkəməyə hazırlıq iclası keçirilib. Bu haqda “Yeni Müsavat”a E.Məmmədovun vəkili Elçin Sadıqov məlumat verib.**

Vəkil deyib ki, müvəkkili və digər ittiham olunan şəxs ittihamı qəbul etmirlər: “Bir neçə vəsatət verdik. Barələrindəki cinayət işinə xitam verilməsini, Emil Məmmədovun ev dustaqlığına buraxılmasını, hər iki şəxsin təqsirsizlik prezumpsiyasının pozulmasının tanınması vəsatətlə məhkəmədən xahiş etdik.

Məhkəmə Emil Məmmədovun ev dustaqlığına buraxılması haqda vəsatəti təmin etmədi. Digər vəsatətlərə məhkəmə baxışı zamanı münasibət bildiriləcəyini açıqladı”.

Vəkil bildirib ki, proses avqustun 13-nə təyin olunub. E.Məmmədovun həyat yoldaşı Sənubər Məmmədova azadliq.org-a məhkəmədən ədalət gözlədiklərini bildirib:

“Ümid edir ki, proses ədalətli keçiriləcək və Emil nəhayət ki, azadlığa çıxacaq”.

50 yaşlı hüquq müdafiəçisi 2014-cü il mayın 13-də “dələduzluq” ittihamı ilə həbs edilib.

İttihama görə, hüquq müdafiəçisi Salyan rayon telekommunikasiya qovşağının, maliyyə şöbəsi və su idarəsinin rəhbərlərinə hədə-qorxu gələrək, pul tələb edib. Hüquq müdafiəçisinin özü bu ittihamları qurama sayır və rayondakı korrupsiya halları ilə bağlı prezidentə etdiyi müraciətə görə sifarişlə həbs edildiyini bildirir.

Salyan İcra Hakimiyyəti isə ittihamları əsassız sayır.

❑ **E.MƏMMƏDƏLİYEV**



YENİ MÜSAVAT

Son səhifə

N 192 (5901) 1 avqust 2014



# Təkayaqlı futbolçu

4 yaşında futbol oynayarkən maşın vurduğu üçün bir ayağını itirən Barış Telli hər kəsin diqqət mərkəzindədir. İllər əvvəl ayağını itirən türkiyəli gənc tək ayağı olmasa da, futbolçu olmaq xəyalından heç vaxt vaz keçməyib. B.Tellinin sözlərinə görə, bir ayağı olmasa da, hər gecə başını yastığa qoyarkən futbolçu olmaq xəyalı qurub. Futbol meydançalarında top dalınca qaçmağın, qol vurmağın arzusu isə yaşayıb. Kəsilmiş ayağına yerləşdirilən xüsusi aparatın köməyi ilə indi qaça, qol vura, top oynaya, hətta tullana bilir. Uzun müddətdir futbol oynayan Barış Telli Çempion Klublar kuboku, Avropa ikinciliyi, Qol krallığı, Dünya üçüncülüyü, Turların ən yaxşı oyunçu kuboklarını alıb. O, 4 ay əvvəl ayağına taxılan yeni protezinin köməyi ilə indi də marafon qaçışlarında iştirak etməyə hazırlaşır. Ötən həftə Berlində təşkil edilən Granpri yarışlarında üçüncü yeri qazanan Barış Telli 2016-cı ildə təşkil ediləcək olimpiya yarışlarında iştirak etmək üçün əlindən gələni edir. Kiçik yaşlarından bəri bir ayağı olmadığı üçün hər kəsin qəribə baxışları ilə üzləşdiyini deyən Barış Telli zaman keçdikcə buna öyrəşdiyini deyir.

# Telefon həyatını xilas etdi

Tailandda silahlı hücuma məruz qalan bir nəfərin həyatı ağıllı telefonuna görə qurtulub. Güllə təsadüfən kişinin telefonuna tuş gəldiyi üçün həyatı xilas olub. Şahidlərin sözlərinə görə, Han və Xu adlı iki kişi restoranda mübahisə etməyə başlayıblar. Mübahisə böyüdüyü üçün Xu tapançasını çıxararaq Hana atış açıb. Güllə təsadüfən Hanın cibindəki telefona tuş gəlib. Ölümcül yara almayan kişi qısa müddətdə xəstəxanaya çatdırılıb. Xu isə polislər tərəfindən həbs edilib. Polislərin açıqlamasına görə, Xu əldə hazırlanmış silahdan atəş açdığı üçün güllə telefonu deşə bilməyib.



# Zukerberqdən afrikalılara pulsuz internet

Facebookun yaradıcısı Mark Zukerberq 3 milyon insanı pulsuz internetlə təmin edib. Bu barədə Zukerberq öz səhifəsində yazıb. O qeyd edib ki, bir il bundan əvvəl qurduğu internet.org portalı vasitəsilə indi hamıya pulsuz internet çatdırmaq mümkündür. Zukerberqin fikrincə, hər bir şəxs pulsuz internetə çıxış əldə etməlidir: "Ötən il ərzində biz bu məqsədə çatmaq üçün bütün dünyada mobil rabitə operatorları ilə əməkdaşlıq etdik. Biz bu perspektivin reallığa çevrildiyini görmək istəyirik və artıq 3 milyon insana pulsuz internet xidməti göstəririk. Mən bu gün Zambiyada internet.org portalının fəaliyyətə başlandığını elan etdiyim üçün çox həyəcanlıyam. İndi Zambiyada insanların yalnız 15%-nin internetə çıxışı var. Tezliklə burada hər kəs Facebook vasitəsilə sevdikləri insanlarla əlaqə saxlamaq, iş yeri tapmaq və s. üçün pulsuz internetdən istifadə edə biləcəklər".

O bildirib ki, bu, irəliyə atılan böyük bir addımdır və facebook internet.org-un missiyasına nail olacaq: "Biz tezliklə digər ölkələri də pulsuz internet xidmətləri ilə təmin edəcəyik və bunu səbirsizliklə gözləyirik".





# Ofisiantdan "mən şahzadəyəm" iddiası

İspaniyada ötən ay krallıq tacını oğluna verərək hakimiyyətdən uzaqlaşan Kral Xuan Karlos haqqında qəribə iddialar səslənir. İspaniya mediasında yayılan məlumatlara görə, kralın gənclik illərində Barselonada tanış olub, əlaqə saxladığı bir qadından oğlu dünyaya gəlib. İspaniyanın Jirona şəhərindəki bir barda ofisiant olaraq çalışan Alberto Sola Jimenes adlı oğlan Xuan Karlosun oğlu olduğunu iddia edib. Bu günə qədər bir neçə dəfə kralın oğlu olduğunu sübut etməyə çalışsa da, heç bir nəticə əldə edə bilməyib. Çünki atası kral olduğu üçün toxunulmazlığı var və məhkəməyə verilə bilməzdi. Atasının hakimiyyətdən çəkilməsindən sonra onu məhkəməyə verən Jimenes DNT testi verməyə hazır olduğunu deyib. "El Mundo" qəzetinin xəbərinə görə, krallıq ailəsindən məsələ ilə bağlı heç bir açıqlama verilməyib. Bir neçə ay davam edəcək məhkəmə prosesindən sonra hər şey aydınlaşacaq. Jimenesin Kralın oğlu olduğu sübut edilsə belə, kraliçadan olmadığından krallıq ailəsinin heç bir imtiyazını daşımayacaq.

# Qoroskop




**QOÇ** - Fəaliyyət zəminində xırda irəliləyişlərdən başqa hansısa mütərəqqi uğurlara yiyələnməyəcəksiniz. Qohumluq-qonşuluq münasibətlərində humanistlik göstərin. Savab qazanmağa çalışın.

**BUĞA** - Yeni ayın bu ilk günü əsasən fərdi yaradıcılığınız üçün uğurlu olacaq. Həmkarlarınızla aranızda mövcud olan gərginlik qismən səngiyəcək. Səhhətinizin də qayğısına qalın.

**ƏKİZLƏR** - Təxminən saat 12-yə qədər ümumi əhvalınızda gərginlik müşahidə ediləcək. Sonrakı saatlarda isə daxili sabitliyiniz bərpa olunacaq. Əsas vaxtınızı istirahətə həsr edin.

**XƏRÇƏNG** - Göstərdiyimiz zaman kəsiyində yeni işlərə başlamaq və sizə aid olmayan münasibət məsələlərinə müdaxilə etmək xoşagəlməz sonluqla nəticələnə bilər. Qazanmaq ehtimalınız böyükdür.

**ŞİR** - Bürcünüz üçün aktiv olan bu təqvimdə hansısa ciddi problemlə rastlaşma ehtimalınız yoxdur. Əksinə, uğurlu nəticələrdən xəbər verən çoxsaylı görüş və sövdələşmələrdə iştirakınız baş verəcək.

**QIZ** - Yaramaz adamlardan uzaq olun. Çünki sizə qarşı pislik etmək istəyənlər çoxdur. Hər hansı mübahisə və prinsipiallıq isə sizin üçün deyil. Boş məsrəflərə çox pul xərcləməyin.

**TƏRƏZİ** - Avqustun bu ilk təqvimi sizin üçün kifayət qədər uğurlu olacaq. Xırda maliyyə problemlərini nəzərə almasaq, digər sahələrdə cərəyan edən situasiyalar zövqünüzlə uyğunlaşacaq.

**ƏQRƏB** - Gün ərzində bütün işlərdə bacardığınız qədər məsuliyyətli olmalısınız. Əks təqdirdə, nəzərdə tutduğunuz planları reallaşdırmaqda problemləriniz olacaq. Səfərə hazırlaşmağa dəyər.

**OXATAN** - Qarşıdakı on gün üçün üzərinizə düşən vəzifələri indidən planlaşdırın. İştirakçısı olduğunuz hər bir sövdələşmədə qarşı tərəfin rəyini nəzərə alın. İnadkarlıq sizə başucalığı gətirən deyil.

**OĞLAQ** - Sağlamlığınızı qorusanız, başqa probleminiz olmayacaq. Sıxıntı çəkməkdənsə dəniz sahilində, kənd yerində dincəlin. Amma lazımsız yerlərə pul xərcləmək fikrinə düşməyin.

**SUTÖKƏN** - Günün birinci yarısını nəzərə almasaq, qalan saatlar bürcünüz üçün düşərli olacaq. Yeni simalarla rastlaşmağınız, işgüzar proseslərdə dəstək almağınız gərginliyinizi azaldacaq.

**BALIQLAR** - Qarşınızda olduqca məsuliyyətli bir dövr durur. Biznes sahəsində və münasibətlərdə proseslər ürəyinizcə olacaq. Amma xətakar və yalançı adamların şirin dilinə aldanmayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 25 milyon dollarlıq məhkəmə



Almaniyada yaşayan biznesmen Bernie Ecclestonenin qeyri-adi təklifi hər kəsi şoka salıb. Formula 1 yarışlarının rəhbəri olan Bernice haqqında bir müddət əvvəl araşdırma başlamışdı. Məşhur biznesmenin Bayern LB bankının sahibinə rüşvət verdiyi iddia edilir. Uzun müddətdir məhkəmə proseslərinə çağırılan və haqqında araşdırma aparılan 83 yaşlı biznesmen qəribə addım atıb. O, məhkəməyə müraciət edərək 25 milyon dollar ödəmək istədiyini deyib. Bernice 25 milyon dollar ödədikdən sonra haqqındakı məhkəmə prosesinin dayandırılmasını istədiyini deyib. Yaşlı biznesmenin müraciəti qəbul olub. Avqust 8-də keçiriləcək məhkəmə prosesindən sonra pulun ödənilib-ödənilməməsi haqda qərar çıxarılacaq.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 10.565